RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 70 (10090) 24 aprel 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Sınanmış dostluq, genişlənən iqtisadi imkanlar

## Azərbaycan-Latviya münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyur

Prezident İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul etdilər. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi", "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Latviya Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti arasında bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Latviya Respublikasının Dövlət Sərhəd Mühafizəsi arasında 2026-2027-ci illər üzrə İkitərəfli Əməkdaşlıq Planı" mübadilə edildi.

Bu sənədlər müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə xidmət edir. Həmin sənədlərin imzalanması iki ölkə arasındakı strateji tərəfdaşlığın hüquqi əsaslarını daha da möhkəmləndirdi. Azərbaycan və Latviya arasındakı münasibətlər yalnız iki dövlətin maraqlarına xidmət etməklə qalmır, həm də geniş coğrafiyanın rifahını hədəfləyir. Prezidentlərin də qeyd etdiyi kimi, bu dostluq münasibətləri qarşılıqlı etimada söykənir. Aprelin 22-də Bakıda keçirilən görüşlər və əldə olunan razılaşmalar da sübut etdi ki, Azərbaycanın xarici siyasəti xalqımızın milli maraqlarına xidmət edir. Eyni zamanda bu strategiya ilə beynəlxalq müstəvidə yeni və səmərəli dostluq körpüləri qurulur.

6

# Azərbaycan Ağsaqqallar Şurası ölkəmizin inkişafına töhfə verir

## Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir. Ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini, adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub.

Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərilərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır.

Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı.

Sevindirici haldır ki, bu gün ağsaqqallarımız ölkə həyatının bütün sahələrində fəal iştirak edirlər. Dünyada artan təhdidlər, xüsusilə də qloballaşma və sosial şəbəkə platformalarının zərərli təsirləri nəticəsində bir çox ölkələrdə milli-mənəvi və ailə dəyərlərinin deformasiyaya uğraması Azərbaycanda mövcud olan ağsaqqallıq institutunun əhəmiyyətini və rolunu daha qabarıq şəkildə vurğulayır. Gənclərimizi milli vətənpərvərlik və öz köklərinə bağlı ruhda yetişdirmək, onları düzgün yola istiqamətləndirmək ağsaqqallarımız qarşısında duran əsas vəzifələrdən biridir.

Keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir.

İnanıram ki, IX Qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə, ölkənin ictimai-siyasi həyatında təşkilatın rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

Qurultayın işinə uğurlar, hər birinizə isə möhkəm cansağlığı, uzun ömür, dəyərli ictimai fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 aprel 2026-cı il*

# Ermənistan mədəni irsimizin məhvinə görə cavabdehlik daşıyır



Ermənistanın işğalı dövründə Qarabağ və ətraf rayonlarımız hərbi təcavüzlə yanaşı, həm də mədəni irsimizin soyqırımı ilə üzləşib. Torpaqlarımızın işğalı nəticəsində Azərbaycanın mədəni mühiti vandallığa məruz qalıb, yüzlərlə tarixi abidə, muzey, minlərlə sənət nümunəsi vandalizmin qurbanı olub.

Ermənistan tərəfindən həyata keçirilən işğal siyasəti, sadəcə, torpaqlarımızı zəbt etmək deyil, həm də azərbaycanlıların bu yerlərdəki izlərini tamamilə silmək məqsədi daşıyıb. Şuşadan Ağdama, Kəlbəcərdən Füzuliyə qədər bütün qədim şəhərlərimizdə məscidlər, muzeylər, türbələr və kitabxanalar vəhşicəsinə dağıdılıb. Tarixi abidələrin təhqir olunması və mənimsənilməsi beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, bəşəri dəyərlərə qarşı törədilmiş bir cinayətdir. Törədilmiş dağıntıların miqyası Ermənistanın həm hüquqi, həm də mənəvi məsuliyyətini önə çıxarır.

İşğal nəticəsində 700-dən çox tarixi abidə, 22 muzey və 4 rəsm qalereyası məhv edilib, o cümlədən 100 min muzey eksponatı talan olunub. 927 kitabxanada saxlanılan 4,6 milyon kitab və əlyazma yandırılıb. 58 arxeoloji yaşayış yeri, 26 qala və qala divarı, 144 məbəd və 65 məscid dağıdılıb. Bütün bu faktlar sistemli şəkildə həyata keçirilən vandalizmin təsdiqidir.

9

# Avtomatla gələnlər unitazla getdilər

## Yaxud erməni xisləti və ondan doğan milli mahiyyət

"Soyqırımı günü" adlandırdıqları 24 apreli isə hər il xüsusi təntənə və təmtəraqla keçirirlər.

Amma bu "bayramları"nın mahiyyətində də pul yığımı kampaniyası dayanır.

Bütün ermənilərdən kütləvi şəkildə toplanan ianələr isə erməni diasporu rəhbərlərinin sərəncamına verilir.

Həmin pulun bir qismi beynəlxalq qurum və təşkilatlarda çalışanların, ayrı-ayrı dövlətlərin parlament üzvlərinin, vəzifə sahiblərinin ələ alınmasına və erməni maraqlarının müdafiəsinə xərclənir.

Şübhəsiz, diaspor rəhbərləri də yaxşıca bəhrələnirlər.

İşğal dövründə "Miatsum" hərəkatına ayrılan pullar isə Ermənistan prezidentləri L.Ter-Petrosyan, R.Koçaryan, S.Sarkisyanın və "DQR" rəhbərlərinin ciblərinə axırdı.

Erməni xalqına isə övladlarını bu sərsəm ideya yolunda qurban vermək qalırdı...

"Soyqırımı tədbirləri" həm də erməni toplumunu birləşdirir, bir arada saxlayır.

Bu birlikdən istifadə edən dünya erməniliyi "seçici səsi" biznesini də qura bilir.

ABŞ-də, Fransada erməni diasporu daha böyük olduğundan "səslərin bir əldən satılması" prosesi baş verir.

Belə ki, razılaşma əsasında "erməni səsi" alaraq prezident seçilən yeni dövlət başçısı erməni diasporuna "borclu" düşmüş olur.

Borcunu qaytarmaqdan ötrü isə prezidentliyi dövründə öz administrasiyasında və parlamentdə erməni maraqlarının qorunmasını təmin etməlidir.

Üstəlik, 24 aprel "bayramı"nda çıxış edərkən "soyqırımı" ifadəsini işlətməlidir.

Doğrudur, prezidentlərin əksəriyyəti bu saxta ifadəni işlətməkdən çəkinib, lakin erməni fitnəsinə gedənlər də olub.

Məsələn, Ronald Reyqan 22 aprel 1981-ci ildə "soyqırımı" ifadəsini işlədən ilk ABŞ prezidenti oldu.

Bundan 40 il sonra - 2021-ci ilin aprelində Co Bayden də eyni ifadəni işlətdi.

Hər ikisi erməni diasporunun "borcu"ndan çıxdı.

Amma mahiyyətcə heç nə dəyişmədi.

Vətənsiz olan - onlara vətənə çevirmək üçün torpaq verənlərə xəyanət edənlər yenidən forpost dövlətlərini tərk etmək məcburiyyətində qalaraq, dünyanın müxtəlif ölkələrinə səpələnirlər.

Qəribə xislətdir: daim riyakar həyat sürür, öz ərazilərində digər millətlərin yaşamasına yol vermirlər, yaxşılıq gördükləri dövlətlərə xəyanət edirlər, işğal etdikləri əraziləri isə xarabalıqlara çevirərək bayquş kimi yaşamağı sevirlər.

3



# Siyasi birlik, iqtisadi inteqrasiya

## Ötən il türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 1,12 trilyon dollara çatıb

7

# Yunan-Roma güləşi üzrə komandamız ardıcıl ikinci il Avropa çempionu oldu

Albaniyanın paytaxtı Tiranada keçirilən yunan-Roma güləşi üzrə Avropa çempionatında iki qızıl və üç bürünc medal qazanan Azərbaycan komandası 133 xal toplayaraq Türkiyəni (121) və Gürcüstanı (118) qabaqlayaraq yenidən qitənin ən güclü komandası tituluna sahib olub.

Həsrət Cəfərov (67 kq) və Qurban Qurbanov (82 kq) qızıl, Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq) və İslam Abbasov (87 kq) isə bürünc medal qazanıblar. Xatırladaq ki, milli komandamız Avropanın ən güclüsü adına ilk dəfə 2022-ci ildə layiq görülmüşdü.

12



## N.S.İbrahimovun Lənkəran Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Natiq Səhrab oğlu İbrahimov Lənkəran Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2026-cı il*

## Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikası Dövlət İnternet-informasiya Ofisinin naziri ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası Dövlət İnternet-informasiya Ofisinin naziri Cuan Junvenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə strateji tərəfdaşlıq mərhələsinə yüksəlmiş Azərbaycan-Çin əlaqələrinin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub. Dostluq, qarşılıqlı hörmət və dəstək prinsiplərinə söykənən dövlətlərarası əlaqələrin inkişafında ölkə rəhbərlərinin xüsusi rolu vurğulanaraq, mövcud olan fəal siyasi dialoqla yanaşı, iqtisadi, ticarət, "yaşıl enerji", rəqəmsal texnologiyalar, innovasiya və süni intellekt sahələrində əməkdaşlığın genişləndirilməsi yüksək qiymətləndirilib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova ötən ay Asiya üçün Boao Forumunun illik konfransında iştirakını məmnunluqla xatırladaraq, konfrans çərçivəsində Çin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Cao Lici ilə keçirdiyi görüşü parlamentlərarası əlaqələrin inkişafı baxımından yüksək qiymətləndirib, aparılan danışıqlar zamanı əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi barədə fikir mübadiləsi aparıldığını bildirib.

Söhbət zamanı Azərbaycanda həyata keçirilən rəqəmsal transformasiya siyasəti barədə də məlumat verilib. Milli Məclisin Sədri bildirib ki, son illər Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda dövlətin yeni rəqəmsal arxitekturasının formalaşdırılması istiqamətində ardıcıl siyasət həyata keçirilir. Bu kontekstdə cari ilin fevral ayında "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirənin əhəmiyyəti qeyd olunub. Bildirilib ki, aparılan siyasət kritik infrastrukturun inkişafını, rəqəmsal iqtisadiyyatın genişlənməsini və dövlət idarəçiliyi sistemində innovativ həllərin tətbiqini əhatə edir. Diqqətə çatdırılıb ki, Milli Məclis də öz növbəsində bu sahədə müasir qanunvericilik bazasının formalaşdırılmasına mühüm töhfə verməkdədir. Söhbətdə həmçinin parlamentin fəaliyyətində informasiya texnologiyalarından çevik istifadə, kibertəhlükəsizlik sahəsində əməkdaşlıq, habelə süni intellekt həllərinin tətbiqinin sürətləndirilməsi məqsədilə görülən işlər barədə məlumat verilib.

Görüşdə eyni zamanda vurğulanıb ki, müasir dövrdə kibertəhlükəsizlik ölkələrin milli təhlükəsizliyinin mühüm tərkib hissəsidir və bu sahə daim diqqət mərkəzində saxlanılmalıdır.

Çin Xalq Respublikası Dövlət İnternet-informasiya Ofisinin naziri Cuan Junven ölkəsinin Azərbaycanla bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa böyük önəm verdiyini bildirib. Son illər Çinin informasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətlər barədə geniş məlumat verən qonaq deyib ki, ölkəsi Azərbaycanla internet, kibertəhlükəsizlik, rəqəmsal iqtisadiyyat, süni intellekt və digər mühüm istiqamətlər üzrə əməkdaşlığı genişləndirməyə hazırdır. Azərbaycanda bu sahədə görülən işləri, habelə ölkə əhalisinin 90 faizdən artığının internetə əlçatanlığını yüksək qiymətləndirən qonaq bildirib ki, bu istiqamətdə əldə olunan nəticələr məmnunluq doğurur.

Söhbət zamanı tərəflər Azərbaycan ilə Çin arasında həqiqi dostluğa, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin bundan sonra da xalqların rifahı naminə bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər.

***"Azərbaycan"***

## Azərbaycan ilə Özbəkistan arasında dostluq və strateji tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir

İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-Özbəkistan Birgə Hökumətlərarası Komissiyasının həmsədri, Özbəkistan Respublikasının investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratovla görüşüb.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Özbəkistan arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb. İki ölkə arasında həyata keçirilən layihələrin iqtisadi əməkdaşlığın gücləndirilməsində əhəmiyyəti qeyd olunub.

Tərəflər qarşılıqlı sərmayələrin və ticarət dövriyyəsinin artırılması, birgə investisiya və infrastruktur layihələrinin icrası, sənaye sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

## İKT və innovasiya ekosisteminin inkişafı istiqamətində mövcud imkanlar barədə fikir mübadiləsi aparılıb



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Çinin Dövlət İnternet-informasiya Ofisinin naziri Cuan Junven ilə görüş keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı ölkələrimiz arasında nəqliyyat, logistika və texnologiya sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

İKT və innovasiya ekosisteminin inkişafı istiqamətində mövcud imkanlar barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda kibertəhlükəsizlik, tədqiqat, kadr hazırlığı və digər müvafiq sahələrdə birgə təşəbbüslərin həyata keçirilməsi, eləcə də bu istiqamətdə normativ-hüquqi bazanın genişləndirilməsi haqqında danışılıb.

## Ekologiya və təbii sərvətlər naziri Ağcabədidə vətəndaşların müraciətlərini dinləyib



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, aprelin 23-də ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov Ağcabədi rayonunda Ağcabədi, Beyləqan və Ağdam rayonlarından olan sakinləri qəbul edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq dahi şəxsiyyətin əziz xatirəsi anılıb.

Vətəndaş qəbulu zamanı ətraf mühitin və biomüxtəlifliyin mühafizəsi, meşələrin qorunması və digər aidiyyəti məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin araşdırılması və zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul əməkdaşlarına müvafiq tapşırıqlar verilib. ETSN-in fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydiyyata alınıb.

## Latviya Prezidenti Edqars Rinkeviçs Heydər Əliyev Mərkəzini ziyarət edib

Azərbaycanda səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs aprelin 23-də Heydər Əliyev Mərkəzində olub.





AZƏRTAC xəbər verir ki, qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası haqqında məlumat verilib.

Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur. Prezident Edqars Rinkeviçs əvvəlcə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli Liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Edqars Rinkeviçsə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələrinin sərgiləndiyi, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Klassik avtomobillər sərgisi" ilə də tanış olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs daha sonra xatirə kitabına ürək sözlərini yazıb.

## Latviya Prezidentinin Azərbaycana səfəri başa çatıb



Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 23-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Latviya Prezidenti Edqars Rinkeviçsi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

## İrlandiya parlament nümayəndə heyəti Şuşa və Xankəndi şəhərlərində olub

Ölkəmizdə səfərdə olan İrlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni MakKormakın başçılıq etdiyi İrlandiya parlament nümayəndə heyəti aprelin 23-də Şuşa və Xankəndi şəhərlərində olub.






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, əvvəlcə Şuşaya gələn İrlandiya parlament nümayəndə heyətinin tanışlığı Şəhər Meydanından başlayıb. Qonaqlara Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin burada qoyulmuş heykəllərinin işğal dövründə ermənilər tərəfindən güllələnməsi barədə məlumat verilib. Sonra qonaqlar Aşağı Gövhər ağa məscidi ilə tanış olublar, Şuşanın Qala divarlarını seyr edib, Cıdır düzünə qalxıblar. Xankəndi şəhərinə gələn qonaqlar burada Zəfər meydanı, Qarabağ Universiteti və Azərbaycan dövləti tərəfindən həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olublar.

Diqqətə çatdırılıb ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bu gün həyat öz axarına qayıdır. Yaşayış məskənləri tikilib bərpa olunduqca keçmiş məcburi köçkünlər öz yurdlarına qaytarılır.

Səfər zamanı qonaqları Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Erkin Qədirli, qrupun üzvü Sevinc Fətəliyeva və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

## Çin tərəfinin WUF13-də geniş iştirakı gözlənilir

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Çinin Azərbaycandakı səfiri Lu Mey ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Çin strateji tərəfdaşlığının gücü bir daha vurğulanıb. Tərəflər Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) dayanıqlı şəhər inkişafının gələcəyini formalaşdıran mühüm qlobal platforma kimi rolunu qeyd edərək Çin tərəfinin bu platformada fəal iştirakını məmnunluqla bildiriblər. Bununla yanaşı, forum çərçivəsində yüksəksəviyyəli nümayəndə heyətlərinin, akademik dairələrin və özəl sektor təmsilçilərinin geniş iştirakının gözlənildiyi bildirilib.

## "Azərbaycanla tarixi, dini və mədəni əlaqələrin daha da möhkəmləndirilməsi vacibdir"

Aprelin 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov İranın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilu ilə görüşüb.



Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə İran arasında dini sahədə əməkdaşlıq məsələləri, qarşılıqlı əlaqələrin inkişaf perspektivləri və regionda dini sabitliyin qorunmasının əhəmiyyəti müzakirə olunub.

Ramin Məmmədov ölkəmizdə mənəvi dəyərlərin qorunması və inkişafına dövlət tərəfindən göstərilən xüsusi qayğını vurğulayaraq bildirib ki, Azərbaycanda dini-mənəvi irsin yaşadılması, milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsi və tolerantlıq ənənələrinin möhkəmləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Səfir Müctəba Dəmirçilu İran ilə Azərbaycan arasında tarixi, dini və mədəni bağların mövcudluğunu vurğulayaraq, bu əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini qeyd edib. O, son dövrlərdə baş verən hadisələr zamanı ölkəmizin nümayiş etdirdiyi mövqeyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. Azərbaycan dövləti tərəfindən edilən humanitar yardımların və göstərilən mənəvi dəstəyin xüsusi əhəmiyyətə malik olduğunu, yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Görüşdə həmçinin dini-elmi tədqiqatlar üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.




# Avtomatla gələnlər unitazla getdilər

## Yaxud erməni xisləti və ondan doğan milli mahiyyət

Hər bir millətin özünəməxsus xarakteri olur.

Buna milli xarakter də deyirlər.

*Milli xarakter özünü davranışda büruzə verir, digərlərindən fərqlənir, əsrlər keçsə də, heç zaman dəyişmir.*

Yaşam tərzi ilə milli xarakter bir-birinə sıx bağlıdır.

Hansı hansını müəyyən edir, bunu söyləmək çətindir.

*Ancaq milli xüsusiyyətin, milli xarakterin bütövlükdə millətin həyatına və müqəddəratına təsiri danılmazdır.*

Bütün bu deyilənləri hayların timsalında açıq-aşkar görmək mümkündür.

❖ ❖ ❖

**Hər hansı bir millətin özünə dövlət qurması üçün üç vacib şərt mövcuddur:**

*Ən əvvəl,* vətən saydığın ərazin, torpağın olmalıdır.

*İkincisi,* yeraltı, yerüstü sərvətin xalqını rahat yedirib saxlamağa kifayət etməlidir.

*Üçüncüsü,* dövlət qurmağı, onu idarə və inkişaf etdirməyi bacaran övladların da mövcudluğu mühüm şərtdir.

**Hayların heç zaman öz torpaqları və öz əraziləri olmayıb.**

- *Qaraçı kimi dünyaya səpələnərək onun-bunun qoltuğunda yaşayıblar.*
- *Öz güclərinə dövlət qurmaq istəsələr də, heç zaman buna nail ola bilməyiblər.*

Odur ki, guya nə vaxtsa "Böyük Ermənistan" adlı "dənizdən-dənizə uzanan dövlətləri" olduğu barədə miflər uydurublar.

**"Böyük Ermənistan"ın mövcudluğunu sübut edən bir dənə də olsun maddi-mədəniyyət abidəsi, qala, yaşayış məntəqələsi, hətta onların qalıqları belə yoxdur.**

Amma "tarixi məxəzlər"də guya bu barədə məlumatların olduğu çoxsaylı əfsanə və kitablar mövcuddur.

Bu, erməni xalqının "bacarığı"ndan irəli gələn haldır.

*Bəli, ermənilər tarixi saxtalaşdırmağı, sonra həmin saxtakarlıqları kitablara çevirərək "məxəzlər" yaratmağı ustalıqla bacarırlar.*

"Ustalıqları" təkcə "tarixi mənbələr" yaratmaqla bitmir.

**Məsələn, Azərbaycanda alban kilsələrində müəyyən dəyişikliklər etməyi - xaçları dəyişərək erməninkiləşdirməyi, divarlardan üzərində özgə əlifba ilə başqa dildə yazıları olan daşları çıxararaq əvəzində yenilərini hörməyi məharətlə bacarırlar.**

Kəlbəcər ərazisindəki udilərə məxsus alban kilsələrinin necə erməniləşdirildiyinə bütün dünya şahid oldu.

*Hətta bundan ötrü kilsənin yanında "tarixi sübutlar" sayılan üstü yazılı daşların düzəldilməsi, sonra onların uzun müddət sirkədə saxlanılaraq "qədimləşdirilməsi"ni həyata keçirən xüsusi sex də yaratmışdılar.*

*"Kələklə gələn, küləklə gedər" demişlər.*

Hazırda kilsənin əsl sahibləri öz dini məbədlərində zəruri qayda yaradaraq ibadət mərasimləri keçirirlər.

❖ ❖ ❖

**İkinci erməni yalanı guya "xristianlığı ilk olaraq onların qəbul etməsi"dir.**

*Bu, kimin yanında olub, kimlər buna şahiddir - ortada yoxdur.*

Xristianlığı hansı kilsədə, hansı erməni şəhərində qəbul ediblər - bunlar durırmu?

Yox!

Niyyət bəllidir:

Bunları demək və bayrağa çevirməkdə məqsəd "xristian təəssübkeşliyi"nə sığınmaq və "xristian evləri"nin himayəsindən bəhrələnməkdir.

Bundan indi də gen-bol yararlanırlar.

❖ ❖ ❖

**Bütün dünyada vay-şivənə çevirdikləri ən böyük "hadisə" isə guya 1915-ci ildə baş verən "erməni soyqırımı"dır.**

Erməni xislətinə uyğun olaraq, ərazisində yaşadıqları dövlətə xəyanət edərək milli təhlükəsizliyin təmini məqsədilə oradan köçürülən ermənilər bunu "soyqırımı" adlandıraraq illərdir ki, yorulmadan müxtəlif kampaniyalar aparırlar.

*Köçürülmə qardaş Türkiyə ərazisində baş verib.*

**Türkiyə öz arxivlərini açaraq soyqırımı faktlarının aşkar şəkildə araşdırılmasını, eyni zamanda Ermənistanın da öz arxivlərini açmasını istəyir.**

*Haylar heç bir arxivdən "soyqırımı faktları"nın çıxmayacağını bildiklərindən belə aşkarlığa getmirlər.*

Əvəzində İrəvanda "soyqırımı abidəsi" yaradaraq bolluca saxta göz yaşları tökürlər.

❖ ❖ ❖

**Dördüncü yalanları isə guya Cənubi Qafqazda bineyi-qədimdən yaşamaları barədəki uydurmalardır.**

*Halbuki ermənilərin sonralar buraya gətirilərək Azərbaycana məxsus ərazidə yerləşdirilmələrinin tarixi və bunları sübut edən sənədlər var.*

- Hələ 3 əsr əvvəl - 1724-cü il noyabrın 10-da I Pyotr tərəfindən verilən fərmana əsasən, ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində, Dərbənd və Bakı, həmçinin Gilan, Mazandaran və Gürvan ərazilərində məskunlaşdırılmasına başlanıldı.
- II Yekaterina isə Albaniya erməni dövləti yaratmaq istəyirdi.
- 1828-ci ildə imzalanan "Türkmənçay" müqaviləsinə əsasən, 40 min erməni ölkəmizin müxtəlif ərazilərində məskunlaşdırıldı.
- I Dünya müharibəsi illərində isə 250 mindən çox erməni regiona gətirildi.

Ermənilər özlərini nə qədər Cənubi Qafqazda və Qarabağda "aborigen" millət elan etsələr də, müxtəlif yerlərdə saxsı qırıqları, xaçkariklar basdırıb, sonradan "tarixi tapıntı" kimi çıxarıb "faktlar" adı ilə qələmə versələr də, arxivlərdə saxlanılan sənədlərlə onların Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazilərinə köçürülmələri birmənalı şəkildə sübut olunur.

**30 illik işğal dövründə ermənilər Azıx mağarasına da girişərək saxtakarlıq əməllərinə başlamışdılar.**

*İşğal bir qədər də uzansaydı, yəqin ki, mağaradan "erməni skeletləri" "tapılacaqdı".*

❖ ❖ ❖

**Hayların əbədi "matəm"inə çevrilən "erməni soyqırımı" kampaniyası isə çoxməqsədli niyyətlərə xidmət edir.**

Uzun illərboyu davam edən "soyqırımı" kampaniyalarının əsas hədəflərindən biri qardaş Türkiyədir.

Öz xəyanətləri, müharibə gedən dövrdə düşmənlə əlbir olaraq arxa cəbhə açmaları və vətəndaşı olduqları dövlətə zərbələr endirmələri barədə susan ermənilər zərurətdən baş verən köçürülmələri "erməni qırğını" kimi qələmə verməklə Türkiyənin nüfuzdan salınmasına xidmət edən kampaniyalar keçirirlər.

*Son məqsəd isə təzminat qoparmaqdır.*

Qeyd etdiyimiz kimi, Türkiyə dövləti öz arxivlərini açaraq birlikdə araşdırma əməkdaşlığı təklif etdikdən sonra ermənilərin canfəşanlığı xeyli azaldı...

*İkinci niyyət öz vəhşiliklərinin, vandallıqlarının pərdələnməsidir.*

*Ermənilər özlərini "məzlum", "zavallı", "əzabkeş" millət adlandırmağı çox sevirlər.*

*Guya "dinc", "sakit" yaşadıqları bir vaxtda türklər onları "soyqırımı"na uğradıblar.*

**Amma Xocalı, Qaradağlı, Ballıqayada törətdikləri vəhşiliklər, mülki əhalini, o cümlədən qadınları, uşaqları, qocaları qətlə yetirmələri, girov düşmüş insanların başına açdıqları müsibətlər, soyqırımı əməlləri "məzlum" maskasının altında qəddar və qaniçən xislətlərinin gizləndiyini açıb göstərdi.**

İşğaldan azad edilən Azərbaycan ərazilərində aşkar olunan genosid, urbisid, ekosid faktları onların necə "məzlum" və "zavallı", "fağır" olduqlarını üzə çıxardı, dünyanın hər yerindən buraya gələn jurnalistlər, ictimai fəallar, siyasi partiya nümayəndələri törədilən əməllərin izlərini öz gözləri ilə gördülər.

❖ ❖ ❖

**"Soyqırımı günü" adlandırdıqları 24 apreli isə hər il xüsusi təntənə və təmtəraqla keçirirlər.**

*Amma bu "bayramları"nın mahiyyətində də pul yığımı kampaniyası dayanır.*

Bütün ermənilərdən kütləvi şəkildə toplanan ianələr isə erməni diasporu rəhbərlərinin sərəncamına verilir.

Həmin pulun bir qismi beynəlxalq qurum və təşkilatlarda çalışanların, ayrı-ayrı dövlətlərin parlament üzvlərinin, vəzifə sahiblərinin ələ alınmasına və erməni maraqlarının müdafiəsinə xərclənir.

Şübhəsiz, diaspor rəhbərləri də yaxşıca bəhrələnirlər.

**İşğal dövründə "Miatsum" hərəkatına ayrılan pullar isə Ermənistan prezidentləri L.Ter-Petrosyan, R.Koçaryan, S.Sarkisyanın və "DQR" rəhbərlərinin ciblərinə axırdı.**

*Erməni xalqına isə övladlarını bu sərsəm ideya yolunda qurban verməK qalırdı...*

❖ ❖ ❖

"Soyqırımı tədbirləri" həm də erməni toplumunu birləşdirir, bir arada saxlayır.

**Bu birlikdən istifadə edən dünya erməniliyi "seçici səsi" biznesini də qura bilir.**

ABŞ-də, Fransada erməni diasporu daha böyük olduğundan "səslərin bir əldən satılması" prosesi baş verir.

*Belə ki, razılaşma əsasında "erməni səsi" alaraq prezident seçilən yeni dövlət başçısı erməni diasporuna "borclu" düşmüş olur.*

**Borcunu qaytarmaqdan ötrü isə prezidentliyi dövründə öz administrasiyasında və parlamentdə erməni maraqlarının qorunmasını təmin etməlidir.**

*Üstəlik, 24 aprel "bayramı"nda çıxış edərkən "soyqırımı" ifadəsini işlətməlidir.*

Doğrudur, prezidentlərin əksəriyyəti bu saxta ifadəni işlətməkdən çəkinib, lakin erməni fitnəsinə gedənlər də olub.

**Məsələn, Ronald Reyqan 22 aprel 1981-ci ildə "soyqırımı" ifadəsini işlədən ilk ABŞ prezidenti oldu.**

**Bundan 40 il sonra - 2021-ci ilin aprelində Co Bayden də eyni ifadəni işlətdi.**

*Hər ikisi erməni diasporunun "borcu"ndan çıxdı.*

*Amma mahiyyətcə heç nə dəyişmədi.*

Vətənsiz olan - onlara vətənə çevirmək üçün torpaq verənlərə xəyanət edənlər yenidən forpost dövlətlərini tərk etməK məcburiyyətində qalaraq, dünyanın müxtəlif ölkələrinə səpələnirlər.

**Qəribə xislətdir: daim riyakar həyat sürür, öz ərazilərində digər millətlərin yaşamasına yol vermirlər, yaxşılıq gördükləri dövlətlərə xəyanət edirlər, işğal etdikləri əraziləri isə xarabalıqlara çevirərək bayquş kimi yaşamağı sevirlər.**

❖ ❖ ❖

Hər bir rəhbər öz xalqına bənzəyir - demişlər.

"Müstəqillik" illərində Ermənistanın üç prezidenti olub.

- Hər üçünün adları müxtəlif cinayət əməllərində hallanır.
- Hər üçü "Miatsum"a dəstək verərək erməni xalqına fəlakətlər və itkilər yaşadıb.
- Hər üçü Yerablurun salınmasında və genişlənməsində müəyyən "xidmətlər" göstərib.
- Hər üçü xalqın varidatını talamaq, pulyığma marafonlarında toplanaraq "Miatsuma dəstək" üçün göndərilən vəsaitlərdən oğurlayaraq böyük var-dövlət sahibinə çevriliblər.
- Hər üçü işlədikləri dövrdə törətdikləri əməllərinə görə ümumxalq nifrəti qazanıblar və xalq onları bir daha hakimiyyətdə görmək istəmir.
- Hər üçü ölkəni blokadada saxladıqlarından əhalinin hədsiz dərəcədə yoxsullaşmasına, ölkəni kütləvi şəkildə tərk etməsinə səbəb olublar.

Onlardan ikisi öz postundan qovulub, biri isə hakimiyyətə gəlmək üçün parlamentdə qanlı qətl törədib.

*Bu gün də ağıllanmayıblar, dəyişən reallığı qəbul etmək istəmirlər, revanşist mövqedə dayanırlar.*

Çünki onları sadə erməni xalqının güzəranı və həyatı yox, daim hakimiyyət və sərvət hərisliyi düşündürüb.

**Sonuncu başçıları Paşinyanı isə "dəmir yumruq" ağıllandırdı.**

Əvvəllər lovğalanaraq başından böyük danışsa da, indi Azərbaycanın yaratdığı yeni reallığı zorən də olsa, qəbul edir.

*Amma yenə erməni xisləti canında və qanındadır.*

- Gündə bir səmtə yıxılır, gündə bir ağla qulluq edir, gündə bir fikir söyləyir.
- Bilir ki, vəzifəsini itirsə, həyatını da faciə ilə itirəcək.
- Ermənistanı istədiyindən yox, Ermənistandakı vəzifəsini itirməməsi üçün əldən-ayaqdan gedir.
- Erməni Qriqoryan kilsəsi ilə müharibəyə başlayıb.

*Erməni xalqının ağıllanmış hissəsi seçkilərdə onu dəstəkləyir.*

*Lakin Rusiya və ruspərəstlər, həm də revanşist qüvvələr əleyhinə ciddi iş aparırlar.*

**Bu lənətlənmiş diyarda hakimiyyətə gəlmək istəyənlər anlamırlar ki, Ermənistanın dövlət başçısı postu da lənətlənib.**

Paşinyanın yerinə namizədliyi verilən, Rusiyada hazırlanmış iki milyarder - Ruben Vardanyan və Samvel Karapetyan "növbə" tutmuşdular.

Aqibətləri yaxşı olmadı...

Hər ikisi hazırda sərvətlərini, var-dövlətlərini qoyaraq həbsxana kamerasında yaşayır.

Xalqın içindən çıxan təzə lider isə görünmür.

**Beyni Njdenin timsalında faşizm ilə zəhərlənən, daim qonşuları ilə münaqişəyə girən, özgə torpağını işğal etdiyinə görə başı "dəmir yumruq"la əzilən bu millət çətin ki, ağıllana.**

Ancaq başqa çarəsi qalmayıb!

Arxalandığı KTMT idi, indi onu özünə ən böyük düşmən hesab edir.

Avropa İttifaqına güvənməsi, dalbadal ondan maliyyə və siyasi dəstək alması da boş və mənasızdır.

Heç ölkəsində saxladığı avrocasuslarının da elə bir faydası yoxdur.

Nə qədər istəyirlər, qoy biz tərəfə boylansınlar.

**Ermənilər isə yaxşı olar ki, Aİ-yə güvənən Gürcüstanın və Ukraynanın bu günündən və bütövlükdə başlarına gələnlərdən doğru-düzgün nəticə çıxarsınlar!**

Ulaq bir dəfə batdığı palçığa nə qədər məcbur etsən də, ikinci dəfə girmir!

Bu isə qalib Azərbaycan xalqının atalar sözüdür.

❖ ❖ ❖

Yalançı göz yaşlarındansa, gerçək əməkdaşlıq yaxşıdır!

Azərbaycan bir dəfə haylara torpaq verərək dövlət qurmalarına şərait yaradıb.

İndi isə blokadadan çıxmalarına kömək göstərir.

Onsuz da nə hərbdə, nə siyasətdə, nə də diplomatiyada bizə gücləri çatandır!

44 günlük müharibə hər şeyi açıq-aşkar meydana qoydu!

Bundan belə nə biz zəifləyəcəyik, nə də Ermənistanın biz qədər güclənmək imkanı var.

Ağlınızı başınıza yığın, kiminsə əlaltısı olmağa son qoyun!

Yoxsa Paşinyan demişkən, mifik "Böyük Ermənistan"ın dalınca çox getsəniz, "real Ermənistanı" da itirəcəksiniz!

**Artıq itirmə dövrünüz başlayıb...**

**İkiəsrlik Qarabağ savaşında yeganə qazancınız Kəlbəcərdən götürdüyünüz unitaz oldu!**

*Bir unitaza görə Yerablurun sahəsini genişləndirməyə dəyərmi?!*

*Dəyəriniz budursa, buyurun!*

**Bəxtiyar SADIQOV**





# "Azərbaycanda regionların, yerli demokratiyanın və özünüidarəetmənin inkişafında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib



Aprelin 23-də Milli Məclisin Regional məsələlər komitəsinin təşkilatçılığı ilə "Azərbaycanda regionların, yerli demokratiyanın və özünüidarəetmənin inkişafında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə komitənin sədri Siyavuş Novruzov bildirib ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanın bütün sahələrində olduğu kimi, regionların inkişafı, idarəetmənin təkmilləşdirilməsi və yerli özünüidarəetmə institutlarının formalaşdırılmasında da mühüm rol oynayıb. Regionların sosial-iqtisadi inkişafı Heydər Əliyevin rəhbərliyi dövründə dövlət siyasətinin əsas istiqamətlərindən biri olub.

Siyavuş Novruzov çıxışında Ulu Öndər Heydər Əliyevin regionlara mütəmadi səfərlər etdiyini, yerlərdə mövcud vəziyyətlə birbaşa maraqlandığını və bölgələrin inkişafı üçün məqsədyönlü addımlar atdığını bildirib. Vurğulanıb ki, həmin dövrdə bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra olunub, yollar salınıb, məktəblər, xəstəxanalar və digər sosial obyektlər tikilib, yeni istehsal sahələri yaradılıb.

Siyavuş Novruzov deyib ki, Ulu Öndərin regionların sosial-iqtisadi inkişaf siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Onun sözlərinə görə, bu istiqamətdə icra edilən dövlət proqramları nəticəsində ölkənin bütün bölgələri sürətlə yenilənib, geniş quruculuq və abadlıq işləri həyata keçirilib. O, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma prosesini də bu siyasətin davamı kimi yüksək dəyərləndirib.

Sonra çıxış edən Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov bildirib ki, Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu, müstəqil dövlət institutlarının formalaşdırılması, eləcə də yerli özünüidarəetmə və vətəndaş cəmiyyəti təsisatlarının yaranması məhz Ulu Öndərin adı ilə bağlıdır.

Qeyd olunub ki, Azərbaycan üçün nisbətən gənc təsisat olan yerli demokratiya və özünüidarəetmənin hüquqi əsasları Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşdirilib. Sonrakı dövrdə qəbul olunan qanunlar və digər normativ-hüquqi aktlar isə bələdiyyələrin hüquqi əsaslarının formalaşdırılmasında mühüm rol oynayıb.

Vitse-spiker bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə regional inkişaf proqramlarının ardıcıl icrası, yerli özünüidarəetmə sisteminin təkmilləşdirilməsi və demokratik institutların möhkəmləndirilməsi istiqamətində həyata keçirilən uğurlu islahatlardan bəhs edib.

Qeyd olunub ki, son illərdə Azərbaycan özünün dövlətçilik və suverenlik tarixinin ən qüdrətli mərhələsini yaşayır. Ümummilli Liderin siyasi vəsiyyətini parlaq Zəfərlə gerçəkləşdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma prosesi həyata keçirilir. Regional inkişaf siyasətinin əsas prioritetlərindən biri işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişaf modelinin qurulmasıdır. Bildirilib ki, həmin ərazilərdə tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları müasir idarəetmə və infrastruktur modellərinin formalaşdırılmasını nəzərdə tutur. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu Azərbaycanda yerli demokratiyanın inkişafı, özünüidarəetmə prinsiplərinin möhkəmlənməsi və regionların davamlı tərəqqisi üçün fundamental əsas formalaşdırıb.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Heydər Əliyev - Azərbaycanda regional inkişaf strategiyasının banisi" mövzusunda çıxış edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin regional iqtisadi siyasət təcrübəsi bu gün də aktualdır. Komitə sədri qeyd edib ki, həmin regional iqtisadi inkişaf strategiyası ölkənin bütün bölgələrinin tarazlı və dayanıqlı inkişafını təmin etməyə yönəlmiş uzaqgörən dövlət yanaşmasına əsaslanıb. Vurğulanıb ki, bu strateji yanaşma nəticəsində regionların inkişafı üçün etibarlı zəmin formalaşdırılıb, onların iqtisadi imkanlarından daha səmərəli istifadə olunub, istehsal və infrastruktur potensialı genişləndirilib, bölgələrdə sənayeləşmə inkişaf edib.

Azər Əmiraslanov qeyd edib ki, sonrakı dövrdə qəbul olunan regional inkişaf dövlət proqramları da məhz Heydər Əliyevin müəyyən etdiyi strateji kursun uğurlu davamı olub. Komitə sədri deyib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı siyasəti yeni məzmunla davam etdirilir, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri və "Böyük qayıdış" proqramı bu strategiyanın müasir mərhələsini təşkil edir.

Tədbirdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsinin rəisi Elmin Həsənov "2026 - Şəhərsalma və Memarlıq İli: bələdiyyələr qarşısında duran vəzifələr" mövzusunda çıxış edib.

O bildirib ki, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması yerli özünüidarəetmə orqanları qarşısında yeni çağırışlar və mühüm vəzifələr müəyyənləşdirir. Onun sözlərinə görə, bu mərhələdə bələdiyyələr öz fəaliyyətlərinə yeni baxış formalaşdırmalı, şəhərsalma məsələlərinə birbaşa məsuliyyət sahəsi kimi yanaşmalıdırlar. O, bu çərçivədə yerli özünüidarəetmə orqanlarının şəhərsalma sahəsində fəaliyyətinin daha səmərəli təşkili baxımından həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Sonra Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyasının Bələdiyyələrin Onlayn Xidmət Mərkəzinin direktoru Adil Əhmədov "Rəqəmsal İnkişaf Konsepsiyası və bələdiyyələrin fəaliyyət istiqamətləri" mövzusunda çıxış edib.

Müzakirələrdə Milli Məclisin deputatları Vüqar Bayramov, Aydın Hüseynov, Vasif Qafarov, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov, Füzuli rayonu Horadiz bələdiyyəsinin sədri Tural Nəbiyev çıxış ediblər.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yerli idarəetmə sisteminin əsasını qoymasından, regionlarda müasir infrastrukturun formalaşdırılmasından və bu infrastruktur potensialının iqtisadi dəyərə çevrilməsindən bəhs olunub. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən reinteqrasiya prosesi, bələdiyyələrin fəaliyyəti, habelə bölgələrdə icra olunan infrastruktur layihələrinin regional inkişaf baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov tədbirə yekun vuraraq konfransın səmərəli keçdiyini bildirib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# *Ağsaqqallar Şurasının IX Qurultayı:* Eldar Quliyev yenidən sədr seçilib



Aprelin 23-də Bakıda Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl qurultay iştirakçıları Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvlərinin, görkəmli alimlərin, ictimai-siyasi xadimlərin, respublikamızın tanınmış ziyalılarının, ağsaqqalların, şəhid ailələrinin üzvlərinin, gənclərin, eləcə də şuranın 81 şəhər və rayon təşkilatının nümayəndələrinin iştirakı ilə keçirilən qurultayda Dövlət Himni səsləndirildikdən sonra torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin və ötən dövr ərzində dünyasını dəyişmiş ağsaqqalların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra tədbir öz işinə başlayıb.

Əvvəlcə şuranın sədri Eldar Quliyev Prezident İlham Əliyevin Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayına ünvanladığı təbrik məktubunu oxuyub.

Qurultayın gündəliyi səsə qoyularaq təsdiq edildikdən sonra Eldar Quliyev Şuranın 5 illik fəaliyyətinə dair hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qurultayda həmçinin Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri - AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, akademik Ziya Səmədzadə, professorlar Aqiyə Naxçıvanlı və Vaqif Şadlinski, eləcə də Yasamal Rayon Ağsaqqallar Şurasının sədri Fuad Məmmədov, gənc fəal, Dövlət İdarəçilik Akademiyasının tələbəsi Nəzrin Abdullayeva, Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri Arif Hümbətov, Xətai Rayon Ağsaqqallar Şurasının sədri Mürvət Əsgərov, Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri Nurəddin Məmmədov, Bərdə Rayon Ağsaqqallar Şurasının sədri Yaşar Zamanov, Beyləqan Rayon Ağsaqqallar Şurasının sədri Etibar İmanov və başqaları çıxış ediblər.

Natiqlər çıxışlarında Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursundan, davamlı inkişaf prosesindən, əldə olunan uğurlardan, eləcə də möhtəşəm Zəfərdən, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərindən, soydaşlarımızın doğma torpaqlarına qayıdışından bəhs ediblər.

Bu davamlı inkişaf fonunda ölkəmizdəki ictimai-siyasi və sosial-mədəni proseslərdə yaxından iştirak edərək dövlətimizin və xalqımızın milli mənafeyinə xidmət göstərən Azərbaycan Ağsaqqallar Şurasının aktiv fəaliyyətindən söz açılıb. Qeyd olunub ki, şuranın 81 şəhər və rayon təşkilatının 35 mindən çox üzvü milli-mənəvi dəyərlərimizin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, cəmiyyətimizdə sağlam ictimai münasibətlərin formalaşdırılması istiqamətində bilik və təcrübələrini əsirgəmir.

Natiqlər ağsaqqalların və ziyalıların daim Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayıblar.

Qurultayda daha sonra təşkilati məsələlərə baxılıb. Səsvermə yolu ilə professor Eldar Quliyev yenidən Azərbaycan Ağsaqqallar Şurasına sədr seçilib, yeni üzvlər qəbul olunmaqla İdarə Heyətinin və Nəzarət-Təftiş Komissiyasının tərkibi formalaşdırılıb.

Şuranın Nizamnaməsi əlavə və dəyişikliklər edilməklə yeni redaksiyada qəbul olunub. Həmçinin qurultay nümayəndələri adından Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırıma Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının keçirilməsi ilə bağlı məlumat məktubunun göndərilməsi qərara alınıb və Prezident İlham Əliyevə müraciət qəbul edilib.

Bununla da Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı öz işini yekunlaşdırıb.

# Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları təlimdə yüksək peşəkarlıq nümayiş etdiriblər

Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində keçirilən "Heydər Əliyev-2026" birgə təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, tədbirdə Əlahiddə Ümumqoşun Ordunun bir qrup hərbi qulluqçusu və Azərbaycanın Türkiyədəki hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.

Əvvəlcə hərbi təyinatlı müasir silah və döyüş texnikaları, həmçinin ərazidə bölmələrin yerləşməsi və mərhələlər üzrə icra olunacaq fəaliyyətlər haqqında məlumat verilib. Planla tanışlıqdan sonra qonaqlar komanda məntəqəsində təlimin gedişatını izləyiblər. Təlim poliqonunda cəlb olunan iştirakçılar tərəfindən müxtəlif epizodlar praktiki icra olunub.

Sonda təlimdə fərqlənən hərbi qulluqçular həvəsləndiriliblər.

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin may ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | **6** |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | **7** |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | **8** |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | **5** |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | **4** |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | **12** |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | **18** |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | **4** |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | **15** |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | **12** |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | **14** |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | **20** |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | **13** |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | **26** |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | **22** |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | **7** |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | **21** |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | **25** |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | **19** |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | **20** |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | **1** |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | **15** |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | **22** |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | **26** |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | **25** |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | **19** |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | **13** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05**

# *Pakistanlı ekspert:* "Regionda gərginliyin azaldılması prosesləri Bakının maraqlarına cavab verir"

Pakistan, İslamabad Sülh Prosesində vasitəçi kimi çıxış edərək, İran ilə ABŞ arasında gərginliyi azaltmaq üçün diplomatik səylərini artırıb. Tərəflər arasında iki həftəlik atəşkəsi təmin etməyə və Tehran və Vaşinqton nümayəndələri arasında ilk birbaşa danışıqları təşkil etməyə nail olan məhz Pakistan olub.



Bu barədə AZƏRTAC-a Ortaq Gələcək İcması üzrə Pakistan Tədqiqat Mərkəzinin (Pakistan Research Center for a Community with Shared Future, PRCCSF) icraçı direktoru Xalid Taymur Əkrəm bildirib. "1979-cu il İslam İnqilabından sonra İran və ABŞ rəhbərliyi heç vaxt birbaşa, üzbəüz danışıqlar aparmayıb. Heç bir ölkə onları eyni masaya gətirməyə nail olmayıb, lakin Pakistan heç kimin edə bilmədiyinə nail olub. Danışıqlar 2026-cı il aprelin 11-12-də İslamabadda baş tutub və hərbi qarşıdurmaya son qoymaq, İranın nüvə proqramını müzakirə etmək, sanksiyaları ləğv etmək, qlobal enerji marşrutlarının təhlükəsizliyini təmin etmək və hərbi eskalasiyanın qarşısını almaq məqsədi daşıyan genişmiqyaslı diplomatik təşəbbüsün bir hissəsi olub", - deyə agentliyin həmsöhbəti qeyd edib.

Onun sözlərinə görə, ABŞ və İsrailin İranın hərbi və dövlət obyektlərinə zərbələrindən sonra şiddətlənən münaqişə regionda ciddi qeyri-sabitliyə, Hörmüz boğazının bağlanmasına və qlobal enerjidaşıyıcılarının qiymətlərinin artmasına səbəb olub. Dünya daha geniş regional müharibənin astanasındadır.

"Pakistan münaqişədə tərəf tutmayaraq aktiv neytrallıq mövqeyini nümayiş etdirdi. Baş nazir Məhəmməd Şahbaz Şərif və feldmarşal Seyid Asim Munir Əhməd Şahın rəhbərlik etdiyi ölkə rəhbərliyi İran, ABŞ, Çin, Körfəz ölkələri və digər regional oyunçularla intensiv məsləhətləşmələr aparır. Dünya təhlükəli müharibənin astanasında olanda Pakistan qarşıdurma əvəzinə dialoqu seçdi", - deyə ekspert vurğulayıb.

İran ətrafında baş verən hadisələrin Azərbaycan üçün regional təhlükəsizlik və enerji sabitliyi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edən icraçı direktor əlavə edib ki, Hörmüz boğazı və qlobal enerji təchizatı marşrutları ətrafındakı vəziyyətdə hər hansı bir dəyişiklik Azərbaycan da daxil olmaqla, beynəlxalq bazarlarda əks olunur.

"Bundan əlavə, regionda gərginliyin azaldılması prosesləri Cənubi Qafqazda ümumi sabitliyin möhkəmləndirilməsinə töhfə verir ki, bu da regional diplomatiya və enerji əməkdaşlığında mühüm iştirakçı kimi Bakının maraqlarına cavab verir. Danışıqların birinci mərhələsi yekun razılaşma olmadan başa çatsa da, Pakistan vasitəçilik səylərini davam etdirir və məsləhətləşmələrin ikinci mərhələsinə hazırlıq üzərində işləyir. Uzunmüddətli sülhə aparan yeganə davamlı yol hərbi ssenarilər deyil, məhz diplomatiya olaraq qalır", - deyə Xalid Taymur Əkrəm sözünü yekunlaşdırıb.

## 25 Aprel Sahibkarlar Günüdür

# Müasir çağırışlar ölkə sahibkarlarının qarşısına yeni vəzifələr qoyur

**Müstəqilliyimizin ilk illərində Azərbaycan olduqca çətin siyasi və çoxsaylı iqtisadi problemlərlə üz-üzə qaldı. Belə bir vəziyyətdə 1993-cü ilin iyun ayında məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdaraq qətiyyətli addımlar atması nəticəsində xalqımız bir çox təhlükədən xilas oldu, ölkəmizdə sabitlik bərpa olundu və inkişaf prosesləri başladı.**

Ulu Öndər ölkə iqtisadiyyatının canlanması, ilk növbədə sahibkarlığın inkişaf imkanlarının reallaşdırılması üçün bir sıra fərman və sərəncamlar imzaladı. Atılan bu addımlar ölkədə biznes mühitini xeyli yaxşılaşdırdı. 1993-cü ildə "Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)" Dövlət Proqramının qəbulu və onun icrasına başlanması, sahibkarlıq sektorunda islahatların həyata keçirilməsi ölkədə fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətini genişləndirməyə imkan verdi.

Ümummilli Liderin sahibkarlara qayğısına nümunə kimi 2002-ci il aprelin 25-də yerli və mayın 14-də xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, növbəti illər üçün Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramları təsdiq olunmuşdur.

Məhz bu görüşlərin Azərbaycanda sahibkarlığın inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, Prezident İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi təsis edilmişdir.

Cənab İlham Əliyev ötən 22 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm işlər gözləyir.

Müasir dövrdə sahibkarlıq hər bir ölkənin iqtisadi inkişafında mühüm rol oynayan əsas amillərdən biridir. Sahibkarlıq təkcə gəlir əldə etmək məqsədi daşımır, eyni zamanda yeni iş yerlərinin yaradılması, innovasiyaların tətbiqi və cəmiyyətin rifah səviyyəsinin yüksəldilməsi baxımından da böyük əhəmiyyət kəsb edir. Amma sahibkarlıq fəaliyyətinin inkişafı üçün ilk növbədə əlverişli iqtisadi mühit formalaşdırılmalıdır. Dövlət tərəfindən tətbiq olunan vergi güzəştləri, subsidiyalar və müxtəlif dəstək mexanizmləri sahibkarların fəaliyyətə başlamasını və bizneslərini genişləndirməsini əhəmiyyətli dərəcədə asanlaşdırır. Bununla yanaşı, hüquqi və inzibati maneələrin minimuma endirilməsi də sahibkarlığın inkişafına müsbət təsir göstərir.

Sahibkarlığın inkişafında təhsil və bilik səviyyəsi xüsusi rol oynayır. Müasir sahibkar yalnız ideyaya malik olmaqla kifayətlənməməli, eyni zamanda bazar tələblərini düzgün analiz etməyi, əsaslandırılmış qərarlar verməyi və riskləri effektiv idarə etməyi bacarmalıdır. Bu baxımdan biznes təhsili və praktiki təcrübə xüsusi əhəmiyyət daşıyır. Yeri gəlmişkən qeyd edək ki, texnologiyanın sürətli inkişafı sahibkarlıq üçün yeni imkanlar açır. Rəqəmsal platformalar, elektron ticarət və innovativ həllər sahibkarlara daha geniş bazarlara çıxış imkanı yaradır. Bu isə həm yerli, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin artmasına gətirib çıxarır. Nəticə etibarilə sahibkarlığın inkişafı iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Bu reallığı nəzərə alan Prezident milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin gücləndirilməsinə çalışır. Prezident İlham Əliyev öz çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Sahibkarlığın inkişafına münasibətdə belə ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi sistemdə mənəvi dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür. Hazırda bu nəcib missiyanı məsuliyyətlə üzərinə götürərək təmənnasız həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Mehriban xanım Əliyeva öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir. Onun ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir. İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla, Azərbaycan sahibkarlarının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, etimad və etibar ünvanı saydığı rəhbərdir.

Prezident ölkəmizdəki biznes mühiti barədə öz çıxışlarında qeyd edib ki, müstəqillik dövründə əhalimiz 3 milyondan çox artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir:



"Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir". Bütün bunlar ölkəmizdə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir.

Məlum olduğu kimi, son illər Azərbaycan xalqı üçün çox əlamətdar olmuşdur. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal antiterror əməliyyatında Prezident-Ordu-Xalq birliyi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir.

Son illər Azərbaycanda bütün addımlar postmüharibə dövrünün yeni reallıqlarına uyğun atılır. Hazırda Azərbaycan dövləti tərəfindən Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük işlər görülür.

Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma ilə yanaşı, sürətli iqtisadi reinteqrasiya tədbirləri görülür, biznesin canlanması məqsədilə sağlam bünövrə yaradılır. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının yaradılması bu məqsədlə həyata keçirilən ən önəmli işlərdəndir. Hər iki parkda sahibkarların müxtəlif güzəştlər əldə etməsi üçün əlverişli şərait yaradılıb və biznes fəaliyyəti stimullaşdırılır. İşğaldan azad edilmiş ərazilərdəki sənaye parklarının rezidentləri üçün tətbiq edilən güzəştlər çoxdur:

- Rezidentlər qeydiyyata alındığı vaxtdan başlayaraq, 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar.
- Müvafiq iqtisadi fəaliyyət sahələri üzrə texnika, texnoloji avadanlıq və qurğuların, xammal və materialların idxalı ƏDV və gömrük rüsumundan azad edilib.
- Məcburi dövlət sosial sığorta haqqı subsidiyalaşdırılır.
- Bölgədə vergi uçotuna alınan və istehsal fəaliyyəti ilə məşğul olan riskli vergi ödəyicisi olmayan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə ödədikləri vəsaitin 20 faizi məbləğində maliyyə yardımı ödənilir.
- Sahibkarların maliyyə əlçatanlığının artırılması üçün güzəştli kreditlər verilir.
- Sahibkarlar bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlər üzrə dövlət zəmanəti və subsidiyadan yararlana bilərlər. İnvestisiya layihəsi həyata keçirən sahibkarların məbləği 5 milyon manatadək, müddəti 7 ilədək, illik faiz dərəcəsi 15 faizədək olan biznes kreditlərinin 90 faizədək hissəsinə dövlət zəmanəti verilir. Bu kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır.

Sahibkarlar elektron hökumət portalı və İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondunun rəsmi internet səhifəsi üzərindən "Elektron kredit və zəmanət" informasiya sistemində qeydiyyatdan keçərək mexanizmdən yararlanmaq üçün müraciət edə bilərlər. İnsan kapitalının inkişafı məqsədilə iş yeri işğaldan azad edilmiş ərazilərimizdə olan mütəxəssislərə əlavə məzuniyyət verilir və onların aylıq vəzifə maaşlarına əlavələr hesablanır.

Yaradıldığı vaxtdan 4 ildən az vaxt keçməsinə baxmayaraq, artıq Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkədə ikinci belə zonadır. Cənab İlham Əliyev demişdir: "Mən Ağdam və Cəbrayıl rayonlarında iki sənaye parkının təməlini qoymuşam və bu yaxınlarda iqtisadiyyat naziri mənə orada görüləcək işlər barədə məruzə etmişdir. Maraq böyükdür, yerli şirkətlər çox böyük maraq göstərirlər və mən əminəm ki, yaxın 2 ildə o parklar üçün nəzərdə tutulmuş çox böyük ərazi bəlkə çatmaya da bilər. Ona görə mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcək.

Azərbaycan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə Türk Ticarət və Sənaye Palatasına daxil olan dövlətlərlə keçirilmiş görüşlərdə Qarabağa investisiya qoyulması ilə bağlı iqtisadi imkanlar müzakirə edilmişdir. Həmçinin təşkilat bütün üzvlərinə müraciət edərək şəhid ailəsi üzvlərinin, qazilərin işlə təminatında aktiv olmağa çağırmışdır. İndiki şəraitdə, xüsusilə postmünaqişə dövründə özəl sektorun üzərinə daha böyük vəzifələr düşür. Konfederasiya öz imkanlarından istifadə edərək azad olunmuş torpaqlarda biznesin inkişafı, mövcud layihələrə xüsusi yanaşmaların tətbiq edilməsi və sahibkarların dövlətin dəstək tədbirlərindən yararlanması üçün təşkilati yardım göstərməyə hazırdır. Qeyd edək ki, artıq aqrar, təhsil, emal, mədənçıxarma, ticarət, turizm sahələrini əhatə edən investisiya təklifləri mövcuddur və bundan sonra təkliflərin icra mərhələsinə keçid etmək lazımdır. Əminik ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağ və Şərqi Zəngəzur yenidən dirçələcək, insanlar öz doğma yurdlarına dönəcəklər.

Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət daşıyır. İqtisadiyyat Nazirliyinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərimizdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün 30-dan çox ölkədən xarici şirkətlər müraciət edərək öz layihələrini təqdim etmişlər. Çünki Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında yerli və xarici sahibkarları bərpa-quruculuq işlərində dəstəkləmək üçün müxtəlif stimullaşdırıcı addımlar atır. Gələcəkdə burada çalışan sahibkarlar müxtəlif vergi və rüsumlardan azad oluna bilərlər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda və Şərqi Zəngəzurda iş qurmaq istəyən ölkə sahibkarlarının təkliflərini toplamaq məqsədilə işçi qrupu yaradılmış və sahibkarların təklifləri hökumətə təqdim edilmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Regionların yeni sosial-iqtisadi reallığından söz açarkən ilk növbədə 2004-cü ildən bu günədək ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası yada düşür. Ötən illər ərzində şəhər və rayonlarda, kəndlərdə, qəsəbələrdə infrastruktur layihələri gerçəkləşmiş, ölkə vətəndaşlarının həyat tərzinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Dövlət proqramlarının icrası nəticəsində bölgələrin siması bütünlükdə dəyişmişdir. Regionlarda sənayenin, aqrar sektorun inkişafına təkan verilmiş, sənaye parkları, aqroparklar, fabrik və zavodlar açılımış, işsizlik səbəbindən paytaxta üz tutan insanlar yenidən regionlara dönməyə başlamışlar. Bu və digər istiqamətlərdə aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərinə əlçatanlığını asanlaşdırmaq üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, sənədlərin notarial təsdiq olunması şərti ləğv edilib və 200 min manatadək kreditlər üzrə biznes-plan tələbi aradan qaldırılıb. Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi prosesi dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmədən geri qaytarılan vəsaitlər hesabına təmin edilir.

İqtisadiyyat Nazirliyi yanında "Azərbaycan Biznesinin İnkişafı Fondu" ASC 2025-ci ildə ümumi dəyəri 888,2 milyon manat olan 6210 investisiya layihəsinə 412,5 milyon manat güzəştli kredit vermişdir. 2024-cü illə müqayisədə investisiya layihələrinin sayı 8,5, güzəştli kreditlərin məbləği isə 66,2 faiz artmışdır. Ötən il verilmiş kreditlərin hesabına 5,6 mindən çox yeni iş yerinin açılması imkanı yaranmışdır. Güzəştli kreditlərin 38,5 faizi kənd təsərrüfatı, 61,5 faizi müxtəlif sənaye məhsullarının istehsalına və emalına yönəldilmişdir. Kreditlərin 76,4 faizi regionların, 23,6 faizi Bakı şəhəri və ətraf qəsəbələrin payına düşmüşdür.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2025-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Belə ki, dünyanın aparıcı beynəlxalq reytinq agentliklərindən biri olan "Moody's Ratings" 2025-ci il 3 iyul tarixində Azərbaycan Respublikasının suveren kredit reytinqini investisiya səviyyəsinə ("Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə) yüksəltmiş, reytinq üzrə proqnozu isə "müsbət" olaraq saxlamışdır. Bu nəticə Azərbaycanın regionda daha dayanıqlı iqtisadi mövqe nümayiş etdirdiyini göstərir. Qlobal miqyasda geosiyasi və iqtisadi çağırışların artdığı bir dövrdə Moody's-in bu qərarı ölkəmizə olan etimadın gücləndiyini, uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycanın beynəlxalq investorlar üçün daha da cəlbedici məkana çevrildiyini təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində iqtisadi göstəriciləri açıqlayaraq bildirdi ki, ötən il həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2025-ci ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadi artım prosesləri sürətlənmiş və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olmuşdur.

1 yanvar 2026-cı il tarixə ölkəmizdə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı 1 milyon 435 min nəfərdən çox olmuşdur. 2025-ci ildə ölkədə 129,1 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,4 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. İqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz artmışdır. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil etmiş, əhalinin hər nəfərinə düşən ÜDM 12602,2 manata bərabər olmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılığın azaldılması, bu sektor üzrə ümumi daxili məhsulda və ixracdakı payının aşağı düşməsi qeyri-neft sektorunun inkişaf etməsinin əsas göstəricilərindən biridir. 2026-cı il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən, 1,8 milyon nəfər olmuşdur. Onlardan 865,8 min nəfəri iqtisadiyyatın dövlət, 942,2 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir. 2025-ci ilin ilkin məlumatlarına əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 9,3 faiz artaraq 1102,9 manat təşkil etmişdir. Qeyri-dövlət sektorunda işləyənlərin sayının dövlət sektoruna nisbətən çox olması ölkədə sahibkarlığın sürətli inkişafının göstəricisidir.

2025-ci ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 180 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 128 ölkəyə məhsul ixrac olunmuş, 173 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2025-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 48905,8 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 24526,1 milyon dollarını və ya 50,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 24379,7 milyon dollarını (49,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 146,4 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2025-ci ildə qeyri-neft-qaz məhsullarının ixracı 3628,2 milyon dollar təşkil etmiş və 2024-cü ilə nisbətən faktiki qiymətlərlə 8,1 faiz artmış, real ifadədə isə 18,1 faiz azalmışdır.

19 yanvar 2026-cı ildə Davosda keçirilən Dünya İqtisadi Forumunun əvvəlki toplantılarında olduğu kimi, bu dəfə də Azərbaycan diqqət mərkəzində olmuşdur. Davosdakı bu və digər görüşlər bir daha göstərdi ki, Azərbaycan investorlar üçün cəlbedici ölkə olaraq qalır. Burada münbit investisiya mühiti var. Müxtəlif sahələrin inkişafına sərmayə yatırmaq istəyən şirkətlər qarşısında yaşıl işıq yanır və onların hüquqlarının qorunmasını təmin edən mükəmməl qanunvericilik bazası var. Ən başlıcası - Azərbaycanın qurub yaradan, dediyi söz də atdığı imza qədər etibarlı olan Prezidenti var!

Cari il fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Qeyd etdiyim kimi, transmilli böyük şirkətlərlə iş təcrübəmiz - bu da böyük üstünlükdür. Müsbət investisiya iqlimi. Azərbaycan iqtisadiyyatına son 20 il ərzində 350 milyard dollardan çox sərmayə qoyulub. Xarici sərmayələr qorunub - həm qanunlar tərəfindən, eyni zamanda gündəlik həyatda da görürük. Həm yerli, həm xarici sərmayələrin qorunması hər bir ölkənin inkişafını müəyyən edib, o cümlədən Azərbaycanın 30 ildən çox davam edən bizim neft-qaz layihələrimiz necə imzalanıbsa, bu gün elə də icra edilir. Bu təcrübə əlbəttə ki, rəqəmsal dünyada aparıcı rol oynayan şirkətlərlə münasibətlərdə də özünü göstərməlidir".

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və sair xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamının icrası olaraq ölkəmiz 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olmuşdur. Bu sərəncamın icrası üçün dövlət-özəl dialoqunun dərinləşməsi istiqamətində mühüm addımlar atılır. Həmin istiqamətdə Azərbaycan Sahibkarlar Konfederasiyasına daxil olan bütün müraciətlər aidiyyəti üzrə İqtisadiyyat Nazirliyi ilə koordinasiya edilir.

Son illər ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı islahatları və görülən işləri saymaqla bitməz. Məhz bu islahatların uğurla aparılması bütün dövlət orqanlarının, xüsusən iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərliyi ilə İqtisadiyyat Nazirliyinin gərgin əməyi nəticəsində mümkün olmuşdur. Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2026-2028-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir. Belə ki, əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Məlum olduğu kimi, Azərbaycan Sahibkarlar Konfederasiyası Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasının Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının üzvüdür. Həmin komissiyaya "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası həvalə olunmuş və ötən dövrdə aktiv əmək müqavilələrinin sayı xeyli artmışdır. Bütün bunlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Azərbaycan Sahibkarlar Konfederasiyası ilə birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Vətən müharibəsində iştirak etmiş və fərqlənmiş gənclərimizin işlə təmin olunmaları Azərbaycan Sahibkarlar Konfederasiyasının qarşısında prioritet məsələ kimi durur. Konfederasiya üzv olan sahibkarlara bu sahədə məsləhətlər verir və hüquqi yardım göstərir.

Sahibkarların qarşılaşdığı məsələlərin operativ şəkildə həllinə nail olmaq üçün yaradılan əlverişli mexanizmlərdən biri də Əməkdaşlıq şuralarıdır. Hazırda konfederasiyanın Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Mərkəzi Bankı, Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq şuraları fəaliyyət göstərir. Bu şuralar sahibkarların qaldırdıqları məsələlərin həllində müstəsna rola malikdir və dövlət-özəl dialoqunun ən işlək mexanizmlərindən biridir.

Bütün bunlarla yanaşı, Azərbaycan Sahibkarlar Konfederasiyası mütəmadi olaraq beynəlxalq əlaqələr sahəsində işini təkmilləşdirir və müxtəlif beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq imkanlarından istifadə edir. Azərbaycan Sahibkarlar Konfederasiyası sahibkarlarla, dövlət orqanları ilə, yerli qurumlarla birgə fəaliyyəti ilə yanaşı, bir çox ölkənin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə hazırda Azərbaycanın xarici ölkələrdə 12 Ticarət evi fəaliyyət göstərir. Azərbaycanın xaricdə fəaliyyət göstərən ticarət nümayəndəlikləri sayəsində ölkənin qeyri-neft məhsullarının ixracının genişləndirilməsi sürətlə davam edir və qeyri-neft ixracının potensialı yüksək səviyyədə reallaşdırılır. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur.

Konfederasiya həmçinin Beynəlxalq Əmək Təşkilatı, Türk Ticarət və Sənaye Palatası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresi və digər təşkilatlarda yüksək səviyyədə ölkəmizi təmsil edir.

Konfederasiya hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir, sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır. Bundan əlavə, dövlət və özəl sektorda şəffaflığın, uçot və hesabatlılığın müasir tələblərə uyğun təşkil olunması məqsədilə hər il İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin dəstəyi ilə sahibkarlıq subyektlərində çalışan mütəxəssislər üçün birgə tədbirlər keçirilir. Həmçinin Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Sahibkarlar Konfederasiyası arasında Əməkdaşlıq Şurası yaradılmış və şura üzvləri ilə birlikdə sahibkarlara dəstək məqsədilə müxtəlif tədbirlər həyata keçirilir ki, bu da sahibkarlar tərəfindən aparılan idxal-ixrac əməliyyatlarının sadələşdirilməsinə, operativliyin təmin olunmasına xidmət edir. Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq çərçivəsində bu ilin dekabr ayında ikinci gömrük forumunun keçirilməsi planlaşdırılır. Azərbaycan Sahibkarlar Konfederasiyası Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi ilə də əməkdaşlığı davam etdirərək birgə tədbirlərin həyata keçirilməsində yaxından iştirak edir.

Ölkədə həyata keçirilən qeyri-neft sektorunun inkişaf konsepsiyasında ilk növbədə hüquqi və fiziki şəxslərin qismində sahibkarların fəal iştirakına geniş meydan verilməsi, sahibkarlıq subyektlərinə dövlət tərəfindən güzəştli kreditlər şəklində verilən maddi dəstəyin ilbəil artırılması və çoxsaylı digər tədbirlər Prezident İlham Əliyevin bu sahəyə diqqətini təsdiqləyən faktların yalnız az bir hissəsidir. Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkşafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaşlı işlər aparır. Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından yardımçı olmalıdırlar. Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirməlidirlər.

*Biz Sahibkarlar Konfederasiyası olaraq Azərbaycanda fəaliyyət göstərən bütün sahibkarları bu əlamətdar gün - Sahibkarlar Günü münasibətilə təbrik edir, onlara fəaliyyətlərində uğurlar arzu edirik. İnanıram ki, bütün sahibkarlarımız Prezident İlham Əliyevin ətrafinda sıx birləşərək dövlətimizin yaratdığı bu imkanlardan istifadə edərək rəqabətədavamlı istehsal potensialının artırılması məqsədilə öhdələrinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə istifadə edərək ölkəmizin, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızın daha da çiçəklənməsi, əhalinin rifah halının yaxşılaşdırılması üçün bütün qüvvələrini səfərbər edəcəklər.*

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Azərbaycanın xarici siyasətinin uğurları

**Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, sözünə sadiq dövlət kimi tanınır. Ölkəmizin xarici siyasət kursu qarşılıqlı hörmət, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə dəstək, habelə iqtisadi maraqların qorunması üzərində qurulub.**



## Sınanmış dostluq, genişlənən iqtisadi imkanlar

### Azərbaycan-Latviya münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyur

Bu strateji yanaşma Azərbaycanı həm regionda, həm də qlobal miqyasda cəlbedici tərəfdaşa çevirib. Avropa İttifaqı ölkələri ilə qurulan sıx münasibətlər, xüsusilə Baltikyanı dövlətlərlə mövcud olan dostluq əlaqələri bu siyasətin uğurlu təzahürlərindən biridir. Bu xüsusda Latviya ilə münasibətlər də yüksək dinamika ilə inkişaf edir.

**Hərtərəfli münasibətlərdə yeni mərhələ**

Azərbaycan ilə Latviya arasında diplomatik əlaqələr 1994-cü ildə qurulub. Respublikalarımızı birləşdirən əsas amillərdən biri hər iki ölkənin bir-birinin müstəqilliyini və suverenliyini qətiyyətlə dəstəkləməsidir. Ötən müddətdə ölkələrimizin dostluğa, səmimi tərəfdaşlığa dayanan əlaqələri hərtərəfli şəkildə inkişaf edib.

Latviya Prezidenti Edqars Rinkeviçsin bu günlərdə Azərbaycana rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyən edən mühüm hadisə oldu. Səfər diplomatik protokol xarakteri daşımaqla yanaşı, həm də dərinləşən iqtisadi-siyasi bağların, ortaq maraqların və strateji hədəflərin nümayişi oldu.

Bakıda Azərbaycan və Latviya prezidentlərinin geniş tərkibdə görüşündə tərəflər siyasi dialoqun hazırkı səviyyəsindən məmnunluqlarını ifadə etdilər. Prezident İlham Əliyev görüş zamanı dedi: "Ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma və burada Azərbaycanda fəal şəkildə təşviq etdiyimiz bütün sahələrə aid olan məsələləri həll etmək məqsədilə əməkdaşlığımıza dair praktiki məsələləri nəzərdən keçirməliyik".

Öz növbəsində Latviya Prezidenti Edqars Rinkeviçs çıxışında xüsusi vurğuladı ki, Latviya Azərbaycanı strateji tərəfdaş və dost hesab edir.

Azərbaycan və Latviya prezidentlərinin mətbuata bəyanatları zamanı səsləndirilən fikirlər ölkələrin gələcək perspektivlərini aydın şəkildə ortaya qoydu.

Prezident İlham Əliyev bəyanatında söylədi ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var: "Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq".

Dövlətimizin rəhbəri bildirdi ki, Latviya Prezidenti Edqars Rinkeviçslə həmçinin Cənubi Qafqaz və Baltik regionunda təhlükəsizlik məsələlərini, regional inkişafı və ətrafımızda baş verən hadisələri müzakirə ediblər. Həmçinin öllkəmizin başçısı Latviya Prezidentinə Azərbaycanla Ermənistan arasında çox perspektivli sülh prosesinə aid ən son məlumatları çatdırıb.

Latviya Prezidenti bəyanatında qeyd edib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işlərində ölkəsinin məsləhət və təcrübələri faydalı ola bilər: "Bildiyiniz kimi, Latviya meşələr ölkəsidir və biz həm Qarabağın müasirləşməsi və yenidən qurulmasında daha çox meşələrin salınması ilə bağlı, cənab Prezident, Sizin qarşıya qoyduğunuz planları, həm də bu məsələləri daha geniş anlamda müzakirə etdik. Hesab edirəm ki, bu məsələdə bizim məsləhətimiz və təcrübəmiz sizin üçün faydalı ola bilər və biz müvafiq nazirlərə bu sahədə çalışmaq tapşırığını verdik".

Edqars Rinkeviçs Azərbaycanın regionda sülh və sabitliyin təmin olunmasındakı rolunu qeyd edərək, ölkəmizin iqtisadi potensialının Avropa üçün əhəmiyyətini önə çəkib.

**Beynəlxalq dostluq körpüləri**

Səfərin ən praktiki və nəticəyönümlü hissələrindən biri Bakıda keçirilən Azərbaycan-Latviya Biznes-Forumu oldu. Azərbaycan və Latviya liderlərinin qatıldığı forumda hər iki ölkədən onlarca sahibkar və rəsmi şəxs iştirak etdi. İş adamları arasında qurulan birbaşa təmaslar göstərdi ki, hər iki tərəf ticarət dövriyyəsini mövcud potensiala uyğun olaraq daha da artırmaq əzmindədir.

Forumda Edqars Rinkeviçs söylədi ki, Latviya Azərbaycanla əməkdaşlığa, ticari əlaqələrini dərinləşdirməyə və genişləndirməyə hazırdır.

Latviya Prezidentinin ölkəmizə səfəri çərçivəsində Azərbaycan və Latviya arasında imzalanmış sənədlərin mübadiləsi aparıldı.

Prezident İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul etdilər. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi", "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Latviya Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti arasında bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Latviya Respublikasının Dövlət Sərhəd Mühafizəsi arasında 2026-2027-ci illər üzrə İkitərəfli Əməkdaşlıq Planı" mübadilə edildi.

Bu sənədlər müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə xidmət edir. Həmin sənədlərin imzalanması iki ölkə arasındakı strateji tərəfdaşlığın hüquqi əsaslarını daha da möhkəmləndirdi.

Azərbaycan və Latviya arasındakı münasibətlər yalnız iki dövlətin maraqlarına xidmət etməklə qalmır, həm də geniş coğrafiyanın rifahını hədəfləyir. Prezidentlərin də qeyd etdiyi kimi, bu dostluq münasibətləri qarşılıqlı etimada söykənir. Aprelin 22-də Bakıda keçirilən görüşlər və əldə olunan razılaşmalar da sübut etdi ki, Azərbaycanın xarici siyasəti xalqımızın milli maraqlarına xidmət edir. Eyni zamanda bu strategiya ilə beynəlxalq müstəvidə yeni və səmərəli dostluq körpüləri qurulur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlıq

Azərbaycanın xarici siyasət uğurlarında tarixi Zəfərimizin və suverenliyimizin bərpasının yaratdığı yeni reallıqlar əhəmiyyətli rol oynayır. Ötən ilin avqustunda Ermənistanla Azərbaycan arasında tarixi sülh razılaşmasının əldə olunması ümumilikdə regionda dayanıqlı inkişafı və təhlükəsizliyi təmin edəcək əsas faktor kimi diqqət çəkir.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan çoxtərəfli əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji xəritəsini şaxələndirən mühüm tərəfdaşdır. Xüsusilə qlobal enerji böhranı fonunda ölkəmiz qitənin enerji təhlükəsizliyinin əsas mərkəzlərindən birinə çevrilib. Hazırda tərəfdaşlıq karbohidrogen resurslarından bərpaolunan enerjiyə doğru transformasiya olunur. "Azərbaycanın malik olduğu bərpaolunan enerji potensialı yeni əməkdaşlıq formatlarının yaradılmasını şərtləndirir. Ölkəmizin Xəzər dənizindəki külək enerjisi potensialının Qara dəniz sualtı kabeli vasitəsilə Avropaya nəqli layihəsi əməkdaşlığın gələcək miqyasını və hədəfini müəyyən edir. 2024-cü ildə ölkəmizin yüksək səviyyədə evsahibliyi etdiyi və uğurlu nəticələrin əldə olunmasına imza atdığı COP29 iqlim konfransı çoxtərəfliliyin növbəti nümunəsi olmaqla yanaşı, ölkəmizin "yaşıl enerji"yə keçidinin təqdir edildiyini bir daha təsdiqlədi. Azərbaycanın enerji və nəqliyyat imkanları hər zaman beynəlxalq səviyyədə qeyd edilir. Bu imkanlar yeni körpülər qurulmasında əhəmiyyətli rol oynayır. Ölkəmizin tranzit imkanları beynəlxalq maliyyə qurumlarının, o cümlədən Davos İqtisadi Forumunun hesabatlarında liderliyini şərtləndirən əsas amillər sırasındadır. Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin ən mühüm halqası kimi Avropanın Asiya bazarlarına təhlükəsiz və qısa çıxışını təmin edir. Bu, Bakını qitə üçün önəmli ticarət və logistika məkanına çevirir", - deyə o bildirib.

Deputat qeyd edib ki, Azərbaycan Avropa İttifaqı üçün strateji əhəmiyyəti artan dövlətdir. Bu baxımdan Azərbaycan ilə Latviya arasında münasibətlərin inkişafı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Latviya münasibətləri ümumilikdə dostluq və əməkdaşlıq xarakteri daşıyır, xüsusilə Avropa-Xəzər bölgələri arasında əlaqələrin inkişafı baxımından nümunə sayılır. İki ölkə arasında diplomatik əlaqələr 1994-cü ilin yanvarında qurulub və Azərbaycanın Latviyada səfirliyi 2005-ci ildə fəaliyyətə başlayıb. Azərbaycan-Latviya münasibətləri dostluq ruhunda inkişaf edərək konstruktiv xarakter daşıyır. Latviya beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən biri kimi çıxış edib. Eyni zamanda Latviya Avropa İttifaqı üzvü olaraq Azərbaycanın Avropa institutları ilə əməkdaşlığında mühüm rol oynayır.

V.Rəhimzadə vurğulayıb ki, müxtəlif səviyyələrdə həyata keçirilən rəsmi səfərlər, parlamentlərarası əlaqələr və siyasi dialoq bu münasibətlərin institusional əsaslarını gücləndirir: "İqtisadi əməkdaşlıq, nəqliyyat və tranzit sahəsində əlaqələr xüsusilə diqqətəlayiqdir. Latviya Baltik regionunda mühüm logistika və nəqliyyat mərkəzi kimi tanınır. Onun limanları Azərbaycanın Avropa bazarlarına çıxışı üçün əlavə imkanlar yaradır. Azərbaycan isə öz növbəsində zəngin enerji ehtiyatları və strateji coğrafi mövqeyi ilə Latviya üçün Cənubi Qafqaz və daha geniş Asiya regionuna çıxış imkanı təqdim edir. Bu amillər iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli zəmin yaradır".

Deputat bildirib ki, Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin Bakıya rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi təkbətək və geniş tərkibdə görüşləri, mətbuata birgə bəyanatları, sənədlərin imzalanması münasibətləri yeni inkişaf mərhələsinə yüksəldəcək. Prezident İlham Əliyev mətbuata bəyanatında qeyd etdi ki, səfərin ölkələrimiz



arasında ikitərəfli münasibətləri gücləndirəcəyinə, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaradacağına əmindir: "Şadıq ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq".

Latviya Prezidenti Edqars Rinkeviçs bəyanatında aparılan müzakirələri çox müsbət, praqmatik və gələcək əməkdaşlıq kimi dəyərləndirərək Azərbaycanı xüsusilə Trans-Xəzər nəqliyyat dəhlizində, həmçinin energetika sahəsində rolunu həm Latviya, həm də ümumilikdə Avropa İttifaqı üçün strateji bir dəyər kimi gördüklərini vurğuladı.

İki ölkə arasında mədəni və humanitar sahədə münasibətlərin ardıcıl şəkildə inkişaf etdiyini deyən deputat bildirib ki, təhsil proqramları, tələbə mübadiləsi, mədəni tədbirlər iki xalq arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir: "Latviyada 450-dən artıq azərbaycanlı tələbənin təhsil alması da bunun təsdiqidir. Bu əlaqələr dövlətlərarası münasibətlərin yalnız siyasi və iqtisadi çərçivə ilə məhdudlaşmadığını, eyni zamanda humanitar müstəvidə də dərinləşdiyini göstərir. Enerji sahəsində əməkdaşlıq da perspektivli istiqamətlərdən biridir. Azərbaycanın enerji resursları Avropa ölkələri, o cümlədən Latviya üçün alternativ mənbə kimi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan ilə Latviya arasında münasibətlər dostluq xarakterli və qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlıq modeli kimi qiymətləndirilə bilər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Yolların kəsişdiyi strateji coğrafiya

### Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" arasında ən etibarlı və təhlükəsiz məkandır

Dünya nizamı kommunikasiya xətləri, logistik marşrutlar və nəqliyyat dəhlizləri ilə yenidən formalaşır. Yeni düzəndə Avrasiyanın mərkəzində, Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən Azərbaycan qlobal iqtisadiyyatın hərəkətverici arteriyalarından birinə çevrilməkdədir. Ölkəmizin strateji transformasiyası təkcə coğrafi mövqeyə əsaslanmır. Bu həm də illər öncə əsası qoyulmuş uzaqgörən xarici siyasətin və zərgər dəqiqliyi ilə icra edilən infrastruktur layihələrinin məntiqi yekunudur.

Prezident İlham Əliyevin aprelin 22-də Azərbaycan-Latviya biznes-forumunda çıxışı zamanı toxunduğu məqamlar bir daha təsdiqləyir ki, ölkəmiz nəqliyyat layihələrində, sadəcə, iştirakçı tərəf statusunu çoxdan geridə qoyub. Azərbaycan bu gün qlobal layihələrin həm təşəbbüskarı, həm də əsas moderatoru kimi çıxış edir. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan üçün prioritet məsələlərdən biri nəqliyyat bağlantılarıdır: "Əsasən keçmişdə, indi və gələcəkdə diqqət yetirəcəyimiz digər sahə bağlantıdır. Burada coğrafiya investisiyalarımızla və Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün uzunmüddətli siyasətlə tamamlanır. Bu, artıq baş verib və Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə nəqliyyat dəhlizləri artıq fəaliyyət göstərir".

Azərbaycan Prezidenti qeyd edib ki, ölkəmizdə investisiyalar üçün böyük imkanlar var: "Çünki bu gün Azərbaycan olmadan Şərq və Qərb arasında bağlantı problemlidir. Dediyim kimi, biz buraya çoxlu investisiyalar yatırmışıq və dost ölkələrlə, birbaşa qonşularımızla və qonşularımızın qonşuları ilə əməkdaşlıq edərək yüklər üçün təhlükəsiz və etibarlı nəqliyyat marşrutunu təmin edə bilmişik. Yeri gəlmişkən, Azərbaycan ərazisindən keçən yüklərin həcmi ildən-ilə artır".

Prezident İlham Əliyevin vurğuladığı əsas məqamlardan biri Azərbaycanın Çinlə Avropa arasında ən qısa və təhlükəsiz keçid olan Orta dəhlizdəki mərkəzi roludur. Orta dəhliz ənənəvi dəniz yolları və digər quru marşrutları ilə müqayisədə ciddi üstünlüklərə malikdir. Çindən Avropaya yüklərin dəniz yolu ilə daşınması 30-45 gün çəkdiyi halda Orta dəhliz vasitəsilə bu müddət 12-15 günə qədər azalır. Ələlxüsus, hazırkı mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanın təqdim etdiyi marşrut ən sabit və proqnozlaşdırıla bilən təhlükəsizlik limanı hesab olunur.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilməsi və ötürücülük qabiliyyətinin 1 milyon tondan 5 milyon tona çatdırılması məqsədilə aparılan işlərin yekunlaşması bu dəhlizin rəqabət qabiliyyətini artırıb. Bu artım Azərbaycanı böyükhəcmli yüklərin idarə olunduğu əsas paylayıcı mərkəzə çevirir. Xəttin modernləşdirilməsi sərnişindaşıma potensialını artırır ki, bu da regional inteqrasiyanı gücləndirir. Xəzər dənizində ən böyük logistik mərkəz olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanında tətbiq olunan avtomatlaşdırılmış idarəetmə sistemləri yüklərin gecikmədən dəmir yollarına ötürülməsini təmin edir. Ələt Azad İqtisadi Zonasında istehsal müəssisələrinin qurulması xammalın emal edilərək hazır məhsul kimi ixrac olunmasına imkan yaradır. Bu, Azərbaycanı tranzit ölkədən istehsal və ixrac habı statusuna yüksəldir. Xəzər dənizində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin (ASCO) gəmi-bərə və tanker parkının yenilənməsi, gəmiqayırma zavodunun tam gücü ilə işləməsi dəniz seqmentində asılılığı aradan qaldırır. Həmçinin Orta dəhliz boyu keçən ölkələrlə vahid rəqəmsal sistemin yaradılması bürokratik maneələrə imkan vermir.

Zəngəzur dəhlizi də (TRIPP) Orta dəhlizin bir qolu olaraq Azərbaycanın Naxçıvan və Türkiyə üzərindən Avropaya çıxışını diversifikasiya edir. Sözügedən marşrut digər alternativlərlə müqayisədə məsafəni və zamanı daha da azaldır. Çindən və Mərkəzi Asiyadan gələn yüklər üçün daha bir qapının açılması Azərbaycanın tranzit həcmini dəfələrlə artıra bilər. Bu dəhlizin işə düşməsi həm də milli təhlükəsizlik və tarixi ədalətin bərpası məsələsidir. Zəngəzur dəhlizi (TRIPP) eyni zamanda türk dünyasının birləşməsi layihəsidir. Bu yol Türkiyəni birbaşa Azərbaycan və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ilə bağlayır. Azərbaycanın logistik strategiyası çoxvektorludur. "Şimal-Cənub" dəhlizi ilə kəsişən bu yol Azərbaycanı Avrasiyanın "logistik ürəyi" halına gətirir. Bu, gələcəkdə on milyardlarla dollarlıq tranzit dövriyyəsinin əsasını təşkil edir.

Azərbaycan dünyada nadir ölkələrdəndir ki, həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" layihələrində aktiv iştirak edir. Hindistandan gələn yüklərin İran vasitəsilə Azərbaycan ərazisindən keçərək Rusiyaya və Şimali Avropaya çatdırılması üçün dəmir yolu və magistral yollar tam hazır vəziyyətə gətirilib. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Azərbaycanı böyük gömrük və anbar mərkəzinə çevirir ki, bu da regionun siyasi arxitekturasında Azərbaycanın həlledici rolunun təmin edilməsidir. "Şimal-Cənub" dəhlizi ənənəvi Süveyş kanalı marşrutu ilə müqayisədə inanılmaz dərəcədə səmərəlidir. Süveyş kanalı vasitəsilə daşınmalar 45-60 gün çəkdiyi halda Azərbaycan üzərindən keçən quru yolu ilə müddət 20-25 günə qədər azalır. Zamanın azalması birbaşa daşıma xərclərinin 30-40 faiz civarında aşağı düşməsinə gətirib çıxarır.

"Şimal-Cənub" dəhlizi həm də Azərbaycan, Rusiya və İran arasında üçtərəfli əməkdaşlıq formatının inkişaf etdirilməsidir. Əgər Orta dəhliz Azərbaycanı Çin və Avropa üçün əvəzolunmaz tərəfdaş edirsə, "Şimal-Cənub" dəhlizi ölkəmizi Hind okeanı hövzəsi ilə Şimali Avropa arasında əsas açar dövlətə çevirir. İlham Əliyevin strateji kursunun mahiyyəti bu iki nəhəng layihəni sinxronlaşdıraraq Azərbaycanı Avrasiyanın vazkeçilməz nəqliyyat orbitrinə çevirməkdir.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan öz üzərinə düşən bütün texniki işləri, yolların tikintisini tam başa çatdırıb: "İndi gördüyümüz işlər isə müasirləşməyə, yeni fiziki infrastrukturun yaradılmasına, rəqəmsallaşdırılmaya, o cümlədən süni zəka tərəfindən yaradılan imkanlara investisiyaların yatırılmasından ibarətdir ki, Azərbaycan ərazisindən daşımalar bugünkü geosiyasi vəziyyətdə nəinki təkcə ən təhlükəsiz, lakin eyni zamanda daşıma haqları və zamanı nöqteyi-nəzərindən rəqabətli olsun".

Müasir dövrün tələblərinə uyğun olaraq, Azərbaycan nəqliyyat infrastrukturunu "yaşıl enerji" ilə inteqrasiya edir, intellektual və logistik ekosistem qurur. Dəmir yollarının tam elektrikləşdirilməsi və nəqliyyat mərkəzlərində alternativ enerji mənbələrindən istifadə edilməsi Azərbaycanı qlobal "yaşıl logistika" trendlərinə uyğunlaşdırır. Rəqəmsallaşma nəqliyyat qovşağının səmərəliliyini təmin edən əsas amildir. Sərhəd-keçid məntəqələrində rəqəmsal texnologiyaların tətbiqi yük maşınlarının və qatarların dayanma vaxtını bir neçə dəfə azaldır. Bu, qlobal logistik şirkətlər üçün əsas seçim meyarıdır. Rəqəmsal transformasiya Azərbaycanı xarici investorlar üçün daha cəlbedici edir. Çünki müasir investorlar yolun intellektual idarəetməsini və karbon izinin aşağı olmasını tələb edir. Qarabağ və Şərqi Zəngəzurdakı beynəlxalq hava limanları da bölgənin yeni hava nəqliyyatı qovşağına çevrilməsinə xidmət edir. Bu limanlar sərnişin daşımaları ilə yanaşı, beynəlxalq yük aviasiyası üçün strateji bazadır.

Azərbaycan qlobal logistik xəritələri yenidən cızan və qaydaları müəyyən edən əsas aktorlardan biridir. Orta dəhlizin əsas bağlantı mərkəzinə çevrilmək, "Şimal-Cənub" marşrutunu canlandırmaq, türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizini (TRIPP) açmaq və rəqəmsal nəqliyyat infrastrukturu istiqamətindəki fəaliyyətlər Azərbaycanı Avrasiyanın vazkeçilməz və mühüm nəqliyyat qovşağına çevirib. Bakının təklif etdiyi əməkdaşlıq formatında bütün iştirakçılar qazanır. Beynəlxalq yollar təkcə yükləri yox, həm də sabitliyi, rifahı və mədəniyyətlərarası dialoqu daşıyır. Azərbaycan bu prosesin lokomotivi, əsas təşəbbüskarıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

**Latviya Prezidenti Edqars Rinkeviçsin ölkəmizə rəsmi səfəri çərçivəsində keçirilən bütün tədbirlərdə əməkdaşlığın bir sıra digər istiqamətləri ilə yanaşı, enerji sahəsi də diqqət mərkəzində olub. Məlumdur ki, Azərbaycan-Latviya iqtisadi əməkdaşlığı getdikcə genişlənməkdədir. Latviya Avropa İttifaqının üzvü olaraq Azərbaycanın Avropa strukturları ilə əməkdaşlığında mühüm tərəfdaşlardan biri kimi çıxış edir.**



## Latviya Prezidentindən yüksək qiymət

### "Azərbaycanın energetika sahəsində rolunu həm Latviya, həm də ümumilikdə Avropa İttifaqı üçün strateji bir dəyər kimi görürük"

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rolu olan ölkələrdəndir. Qoca qitənin xüsusilə qaza ehtiyacı var və bu baxımdan ölkəmiz etibarlı mavi yanacaq təchizatçısı kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycan Pan-Avropa qaz təchizatçısı imicini qazanıb.

Azərbaycan-Avropa enerji əməkdaşlığı xüsusilə 2022-ci ildə imzalanan Strateji Tərəfdaşlıq Memorandumu ilə zirvəyə çatdı. Belə ki, həmin il iyulun 18-də Bakıda Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen tərəfindən "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Bu memoranduma əsasən, Azərbaycanın Avropaya qaz tədarükünün 2027-ci ilə qədər ən azı 20 milyard kubmetrə çatdırılması hədəfləndi. Bununla Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş kimi mövqeyi daha da gücləndi.

Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qaz alır. Qaz idxal edən ölkələrin ümumi sayı isə 16-ya çatıb. Bu göstəriciyə görə, Azərbaycan dünyada boru kəməri ilə qazı təchiz edən birnömrəli ölkədir. Qaz alan ölkələr bunlardır: Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Bu, əlbəttə, son hədd deyil.

Avropa İttifaqi ilə enerji əməkdaşlığının digər bir istiqaməti isə bərpaolunan enerji ilə bağlıdır. Aİ ilə 2022-ci ildə imzalanmış memoranduma əsasən, əməkdaşlıq yalnız qazla məhdudlaşmayıb, həmçinin bərpaolunan enerji layihələrini də strateji gündəmə daxil edib.

Yaxın illərdə gerçəkliyə çevriləcək "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi hazırda dünyanın diqqət mərkəzindədir. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu sazişə əsasən yaradılan, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən "yaşıl enerji dəhlizi" sözügedən dörd ölkənin təmiz və təhlükəsiz enerjinin ötürülməsi üzrə ortaq strateji baxışına əsaslanır. Ümumi uzunluğu 3 min kilometr olan dəhliz vasitəsilə "yaşıl enerji" Qara dənizin dibi ilə Avropaya ötürüləcək. Bu kabel vasitəsilə ildə təxminən 4 giqavat gücündə "yaşıl enerji"nin Avropaya nəqli planlaşdırılır.

Təsadüfi deyil ki, Latviya Prezidenti Edqars Rinkeviçs bu il aprelin 22-də Bakıda mətbuata verdiyi bəyanatda ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirdi. Bu yanaşma xüsusilə son illərdə Avropanın enerji siyasətində baş verən dəyişikliklər fonunda xüsusi aktuallıq kəsb edir.

Bütün bu məsələlər Prezident İlham Əliyevin həmin tarixdə keçirilən Azərbaycan-Latviya Biznes-Forumundakı çıxışında da öz əksini tapdı. Dövlətimizin başçısı qeyd etdi ki, indi biz ixracatımızın şaxələndirilməsi üzərində fəal işləyirik. Hərçənd bunu etmək çətin olacaq. Çünki ölkəmizdə təbii qaz hasilatı artır. Hasil etdiyimiz qazın böyük hissəsi ixrac olunur. Beləliklə, qeyri-neft-qaz sektoruna aid sənaye və iqtisadiyyat artan hasilat profili və beynəlxalq bazarlarda, ilk növbədə Avropa bazarlarında artan tələbatla uzlaşmalıdır.

Gələcək planlara da toxunaraq Prezidentimiz dedi: "Biz Azərbaycanda və həmçinin xaricdə, əsasən qonşu ölkələrdəki və Avropa İttifaqı zonasındakı enerji aktivlərinə investisiya qoymağa davam edirik. Bu, Avropa Komissiyası tərəfindən də dəstəklənir. Avropa Komissiyası ilə bir neçə əməkdaşlıq formatımız var ki, onlardan biri də enerji əməkdaşlığıdır. Avropa Komissiyası öz ictimai bəyanatlarında hər zaman Azərbaycanı enerji sahəsində etibarlı tərəfdaş adlandırır və bu enerji əməkdaşlığı böyüyür. Biz neft satışı ilə başladıq, indi təbii qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik və "yaşıl enerji" ixrac etməyi planlaşdırırıq. Portfelimizdə olan sərmayə sahələrindən biri də nəhəng Günəş və külək potensialına malik bərpaolunan enerji mənbələridir. Biz artıq böyük oyunçuların ciddi marağına səbəb olmuşuq. Bizim planımız, - hansı ki, təkcə niyyət deyil, həm də imzalanmış hüquqi qüvvəyə malik müqavilələrə əsaslanır".

Hədəf 2032-ci ilə qədər 8 giqavatlıq günəş, külək və hidroenerji gücünə malik olmaqdır və bu, tamamilə realdır. Elektrik enerjisi istehsalı üçün istifadə olunan təbii qaz böyük həcmdə "yaşıl enerji" ilə əvəz ediləcək. Bu isə hazırda beynəlxalq bazarlarda çox ehtiyac duyulan bir neçə milyard kubmetr qaza qənaət etməyə imkan verəcək.

Avropa İttifaqına üzv olan ölkələr üçün Azərbaycan qazı və nefti onların enerji istehlakı portfelinin ən böyük hissəsini təşkil edir. Son bir neçə ildə Azərbaycan qazına ehtiyac artmışdır, son bir neçə ayda isə daha da artdı. Odur ki, qarşıda istehsalı və mütləq şəkildə ixracı artırmaq məsələsi dayanır.

"Cənub qaz dəhlizi" vasitəsilə Avropaya nəql olunan təbii qazın həcminin artması fonunda Latviya ilə əməkdaşlıq yeni mərhələyə qədəm qoya bilər. Eyni zamanda "yaşıl enerji" sahəsində əməkdaşlıq perspektivləri də diqqət çəkir. Azərbaycanın bərpaolunan enerji potensialı, xüsusilə günəş və külək enerjisi sahəsində həyata keçirilən layihələr Avropa üçün yeni tərəfdaşlıq imkanları yaradır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan-Latviya əməkdaşlığı: aqrar sahə önə çıxır

Aqrar sektor Azərbaycanın və Latviyanın iqtisadiyyatında strateji əhəmiyyət daşıyan sahələrdəndir. Azərbaycan zəngin təbii resurslara və məhsuldar torpaqlara malikdir, Latviya isə yüksəktexnologiyalı aqrar sistemləri və təcrübəli fermer infrastrukturu ilə fərqlənir. Ölkələrimiz arasında aqrar sahə üzrə əməkdaşlıq ticarət əlaqələrinin genişləndirilməsi, texnologiya və bilik mübadiləsi, həmçinin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından da mühüm rol oynayır.



Hər iki ölkənin aqrar sektoruna daha ətraflı nəzər salsaq görərik ki, Azərbaycan üçün əsas məhsullar arasında taxıl, pambıq, tərəvəz, meyvə, eləcə də bostan məhsulları yer alır. Əhəmiyyətli kənd təsərrüfatı regionları Şəki-Zaqatala, Lənkəran və Gəncə-Qazax bölgələridir. Latviya isə əsasən süd və ət məhsulları, kartof, arpa, buğda istehsal edir və onların böyük hissəsini Avropa bazarına çıxarır.

Texnologiya və bilik mübadiləsi sahəsində Latviya fermerləri Azərbaycanda müasir torpaq işləmə texnologiyaları və soyuq hava anbarlarını tətbiq etməklə təcrübə qazanırlar. Bununla yanaşı, Avropa İttifaqı və beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən layihələr də tərəflər arasında əməkdaşlığı gücləndirir. Göründüyü kimi, həm Azərbaycan, həm də Latviya üçün aqrar sahə iqtisadiyyatda strateji əhəmiyyət daşıyır və əhalinin məşğulluğunda mühüm rol oynayır.

Latviya Prezidentinin Azərbaycana səfəri çərçivəsində Bakıda keçirilən Azərbaycan-Latviya biznes-forumunda tərəflər hər iki ölkənin kənd təsərrüfatı sahəsindəki imkanlarını və qarşılıqlı əməkdaşlıq perspektivlərini müzakirə etdilər. Forum zamanı tərəflər xüsusilə texnologiyaların tətbiqi, modern kənd təsərrüfatı avadanlıqları və iqlim şəraitinə uyğun bitkiçilik və heyvandarlıq metodlarının paylaşılması kimi sahələrdə təcrübə mübadiləsinin önəmini vurğuladılar. Eyni zamanda qarşılıqlı investisiya imkanları və kənd təsərrüfatı məhsullarının ixrac potensialı da gündəmə gətirildi.

Bütün bu müzakirələr və əməkdaşlıq perspektivləri fonunda Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxış edərək ölkəmizin bu sahədə əldə etdiyi uğurları, həyata keçirilən islahatları və yeni layihələri iştirakçılara təqdim etdi. Nazir Azərbaycanla Latviya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasının aprelin 15-də Şuşada keçirildiyini xatırladaraq qeyd etdi ki, həmin tədbir çərçivəsində ticarət, kənd təsərrüfatı, mədəniyyət, turizm, təhsil və digər sahələrdə gələcək əməkdaşlıq üçün prioritet istiqamətlər müəyyənləşdirilib. M.Məmmədov hər iki ölkədə əlverişli biznes mühiti və investisiya imkanlarının genişləndirilməsi, yeni biznes tərəfdaşlığının qurulması baxımından tədbirin böyük əhəmiyyət daşıdığını dedi. Daha sonra o, aqrar sektorda mütəmadi biznes-forumların təşkilinin, rəqabətədavamlı ixrac məhsulları barədə məlumat mübadiləsinin güclənirilməsinin və beynəlxalq sərgilərdə fəal iştirakın iki ölkənin sahibkarları arasında əlaqələrin möhkəmlənməsində əsas rol oynayacağını bildirdi. Məcnun Məmmədovun sözlərinə görə, aqrar texnologiyalar, ərzaq təhlükəsizliyi və məhsul ixracı sahələrində təcrübə mübadiləsi hər iki tərəf üçün qarşılıqlı fayda gətirəcək.

Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze isə çıxışında tərəflər arasında əməkdaşlığın əhəmiyyətini vurğuladı. O, biznes-forumların işgüzar dairələr arasında əlaqələrin qurulması üçün mühüm platforma olduğunu, belə tədbirlərin yeni investisiya imkanlarının yaradılmasına şərait yaratdığını və ticarət dövriyyəsinin genişlənməsinə töhfə verdiyini diqqətə çatdırdı.

Təbii ki, forum, sadəcə, işgüzar dairələrin görüş yeri deyildi. Bu tədbir hər iki ölkəyə innovativ texnologiyaların paylaşılması, investisiya imkanlarının genişləndirilməsi və ixrac potensialının artırılması kimi konkret faydalar gətirdi. Tərəflər kənd təsərrüfatı sahəsində texnologiyaların tətbiqi, modern avadanlıqlar və iqlim şəraitinə uyğun bitkiçilik və heyvandarlıq metodları üzrə təcrübə mübadiləsinin vacibliyini müzakirə etdilər. Qarşılıqlı investisiya imkanları və kənd təsərrüfatı məhsullarının ixrac potensialı da diqqətdən kənarda qalmadı. Forumun yekununda tərəflər gələcək əməkdaşlığın perspektivlərini müzakirə edərək kənd təsərrüfatı sahəsində qarşılıqlı faydalı layihələrin reallaşdırılması üçün niyyətlərini təsdiqlədilər.

Bu cür tədbirlər ölkələr üçün yalnız ticarət və investisiya baxımından deyil, həm də elmi-texniki və mədəni sahələrdə əməkdaşlığı inkişaf etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bütün bu təşəbbüslər və forumlarda əldə olunan razılaşmalar əməkdaşlığın yeni sahələrə doğru genişlənməsinə zəmin yaradır. Gələcəkdə Azərbaycan-Latviya əməkdaşlığı daha geniş sahələrdə inkişaf edə bilər. Orqanik kənd təsərrüfatı, biotexnologiya və aqroturizm kimi sahələr həm iqtisadi fayda, həm də yerli əhaliyə əlavə gəlir gətirər. İxrac bazarlarının genişləndirilməsi, xüsusən Baltik regionu və Avropa bazarları üçün yeni imkanlar açır.

Azərbaycan və Latviya arasında aqrar əməkdaşlıq xeyli dərəcədə faydalıdır və onun gələcəkdə daha da genişlənməsi üçün maneə yoxdur. Bu baxımdan texnologiya mübadiləsi, birgə layihələr və ixrac imkanlarının artırılması əməkdaşlığın səmərəliliyini yüksəldir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Siyasi birlik, iqtisadi inteqrasiya

### Ötən il türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 1,12 trilyon dollara çatıb

Son dövrlər dünyada baş verən ciddi hərbi-siyasi qarşıdurmalar göstərdi ki, qlobal idarəetmədəki mövcud təhlükəsizlik mexanizmləri artıq işləmir - dünyada beynəlxalq hüquqa əməl olunmur, hamılıqla qəbul edilən təhlükəsizlik qaydaları işə yaramır, güclü dövlətlər zəiflərə hərbi təcavüz edir, onun qarşısının alınması üçün yaradılan beynəlxalq qurumların təsir səviyyəsi sıfra bərabərdir.

Üstəlik, yeni dünya düzəninin qurulması adı ilə başlanan bu proses mövcud siyasi, iqtisadi və hərbi sahələrdəki beynəlxalq qanunlarla tənzimlənmir. Belə ki, köhnəsi işləmir, yenisi isə yaradılmayıb və bu səbəbdən dünyada siyasi, iqtisadi və hərbi xaos hökm sürür. Vəziyyətin belə olması isə hər bir dövləti özünü gözlənilən təhlükədən qorumaq üçün çıxış yolu axtarmağa vadar edir. Bu zaman yeni ittifaqların yaradılması köməyə gəlir.

Türk dünyası ötən əsrlərdə tarix səhnəsində güclü imperiyalar yaradıb. İndi o, yenidən daha güclü şəkildə tarix səhnəsinə qayıtmaq üçün ittifaq yaradır. Türk Dövlətləri Təşkilatı (TDT) əvvəlcə dil və mədəni köklərə söykənən bir etnosun birliyi kimi ilk addımlarını atdı. Yeni dünya düzəninin formalaşması prosesinin yaratdığı siyasi qarşıdurmalar isə qardaş xalqların daha ciddi inteqrasiyasına ehtiyac yaratdı.

Hazırda TDT özünün formalaşma dövründədir - daha dərin siyasi, iqtisadi və maliyyə transformasiyasını dərinləşdirmək üçün strukturlarını təkmilləşdirir. Məqsəd dünya siyasi səhnəsinə güclü təşkilat kimi çıxmaqla qlobal proseslərə təsir imkanlarını artırmaqdır. Bu sahədə ölkəmiz daha aktiv fəaliyyət göstərir. Çünki biz qardaş Türkiyə ilə əvvəllər daha sıx siyasi, iqtisadi və hərbi əlaqələr qurmağa nail olmuşuq. İkincisi isə, biz bir-birindən uzun illər ayrı düşən Mərkəzi Asiya ölkələri ilə Türkiyə arasında birləşdirici aktor kimi iştirak edirik. Bu prosesdə Prezident İlham Əliyevin apardığı siyasət əsas rol oynayır. Türk dünyasının bir araya gəlməsi üçün ən mühüm tədbirlərin ölkəmizdə keçirilməsi bunun göstəricisidir. İlk dəfə məhz Prezident İlham Əliyev bəyan etdi ki, bizim yerimiz türk dünyasındadır.

Onu da vurğulayaq ki, TDT-nin yaradılma müddəti uzun olmasa da, iqtisadi sahədə qazandığı uğurlar yüksək səviyyəyə gəlib çatıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dünyası Araşdırmalar Mərkəzinin ilkin statistika əsasında hazırladığı icmalda 2025-ci il üzrə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın, həmçinin müşahidəçi üzvlər olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının (ŞKTR) iqtisadi göstəricilərinin təhlili təqdim edilir. İcmal son iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq TDT üzvlərinin potensialı və qlobal iqtisadiyyata təsirini qiymətləndirir.

İcmalda qeyd edilir ki, 2025-ci ildə türk dövlətləri ümumilikdə 2,11 trilyon dollar ÜDM ilə qlobal iqtisadiyyatda 2 faizlik paya sahib olub. Əhalisi isə 178,8 milyon nəfərlə qlobal əhalinin 2,8 faizini təşkil edib. Bu göstəricilər türk dövlətlərinin beynəlxalq




müstəvidə həm iqtisadi, həm də demoqrafik baxımdan mühüm yer tutduğuna dəlalət edir.

Hesabat dövründə ilkin göstəricilərə əsasən, 3,2 faizlik qlobal artım tempi ilə müqayisədə türk dövlətləri 5,2 faiz ÜDM artımı ilə daha sürətli inkişaf nümayiş etdirib. Qırğızıstan, Özbəkistan və Qazaxıstan müvafiq olaraq 11,1, 7,7, 6,5 faiz artım tempini nümayiş etdirərək sənaye və kənd təsərrüfatı sektorunda davamlı inkişafın təmin edilməsinə nail olub. Türkmənistanda iqtisadi artım 6,3, ŞKTR-də 4,5 faizə çatıb. Türkiyə isə təşkilatın ən böyük iqtisadiyyatına sahib olmaqla 3,6 faiz iqtisadi böyüməyə nail olub. Azərbaycanda ÜDM-in artım tempi 1,4, Macarıstanda 0,4 faiz təşkil edib.

Ticarət dövriyyəsi həm qlobal inteqrasiya, həm də TDT ölkələri arasında iqtisadi inteqrasiya üçün xüsusi əhəmiyyət daşıyır. 2025-ci ildə türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 1,12 trilyon dollar təşkil edib ki, bu da 34 trilyon dollar həcmində olan qlobal ticarət dövriyyəsinin təxminən 3,6 faizinə bərabərdir. Ötən il Türkiyə 638,731 milyard dollarla ən yüksək ticarət dövriyyəsinə malik olub. Qazaxıstan və Özbəkistan isə müvafiq olaraq 143,888 milyard və 81,160 milyard dollar həcmində ticarət həyata keçirib.

İlkin rəqəmlərə əsasən, Qazaxıstan və Özbəkistanda kənd təsərrüfatı və sənaye sektorlarında davamlı ixrac artımı müşahidə edilib. Bu göstəricilər bölgədəki ticarət dinamikalarının fərqliliyini və türk dövlətlərinin güclü ixrac performansından faydalandığını göstərir və gələcəkdə o, birlik ölkələrinin ərzaq təhlükəsizliyinin təmin olunması üçün çox vacibdir. Kənd təsərrüfatı sektorunda Türkmənistan 7 faizlə ən güclü artım nümayiş etdirib. Bu sahədə Qazaxıstan 5,9, Özbəkistan, Macarıstan, ŞKTR hər biri 4,4 faiz artım əldə edib.

Sənaye sektorunda Qırğızıstan və Qazaxıstan müvafiq olaraq 10,6 və 7,4 faiz artımla liderlik edib. Özbəkistan və Türkmənistanda isə sənaye sektoru 6,8 faiz inkişaf edib. Bu artıma genişmiqyaslı istehsal və infrastruktur layihələri təsir göstərib. Türkiyədə sənaye sektoru 4,5 faiz artıb.

İnvestisiyalar, xüsusən sabit kapital sahəsindəki investisiyalar uzunmüddətli artım üçün vacibdir. Ötən il Qırğızıstan və Türkiyə sabit kapital investisiyalarında müvafiq olaraq 18,4 və 15,1 faiz artım nümayiş etdiriblər. Qazaxıstan və Özbəkistan da müvafiq olaraq, 13 və 10,5 faiz sabit kapital investisiyalarında sağlam artım göstəriblər və bununla işgüzar mühitlərində müsbət inkişaf əldə ediblər.

Türk dövlətlərində bank sektoru da əhəmiyyətli artım nümayiş etdirib. Hesabat dövründə Qırğızıstanın bank sektorunun cəmi aktivlərində 44,9, Türkiyədə 41, Özbəkistanda 25,5, ŞKTR-də 11,06, Qazaxıstanda 11, Macarıstanda 11 faiz artım olub. Bu göstəricilər iqtisadi inkişafı və investisiyaları dəstəkləyən maliyyə xidmətlərinin güclənməsinə əsaslanır. Azərbaycanın bank sektoru isə daha mülayim (7,7 faiz) artım nümayiş etdirib.

Dövlət büdcəsinin performansı iqtisadi sağlamlığın digər vacib göstəricisidir. ŞKTR-nin dövlət büdcəsi gəlirlərində 51,8, dövlət büdcəsi xərclərində isə 52,4 faiz olmaqla ən yüksək artım qeydə alınıb. Qırğızıstan da dövlət büdcəsi gəlirlərində 44, dövlət büdcəsi xərclərində 41 faiz olmaqla yüksək artıma nail olub. Azərbaycan, Türkiyə və Özbəkistan həm gəlirlər, həm də xərclər sahəsində sabit artım göstərərək effektiv maliyyə idarəetməsi göstəriblər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

Aprelin 23-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda cari ildə görülmüş işlərə və qarşıda duran aktual məsələlərə həsr olunmuş geniş kollegiya iclası keçirilib.




İclası giriş nitqi ilə açan baş prokuror bildirib ki, dünyada və regionda müşahidə olunan mürəkkəb geosiyasi vəziyyət fonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, hüquqi islahatların davam etdirilməsi, iqtisadi inkişafın dayanıqlığının təmin olunması və ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi istiqamətində ardıcıl siyasətin uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə sabitlik təmin edilməklə Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb. Eyni zamanda prokurorluq orqanlarının aidiyyəti dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti nəticəsində qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər həyata keçirilib.

Eyni zamanda "Şəhərsalma və Memarlıq İli" elan edilmiş 2026-cı ildə ölkəmizdə şəhərsalma və infrastrukturun inkişafı istiqamətində müasir şəhərsalma prinsiplərinin tətbiqi, dayanıqlı və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması, eləcə də işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının geniş tətbiqinin bu sahədə həyata keçirilən siyasətin əsas qayəsini təşkil etməsi vurğulanıb. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinin məntiqi davamı olaraq soydaşlarımızın öz doğma yurd-yuvalarına intensiv formada köçünün təmin edilməsinin cari ildə də planlı şəkildə həyata keçirilməsi müsbət hal kimi qeyd edilib.

İclasda həmçinin bu müddət ərzində prokurorluq orqanlarında görülmüş işlər, əldə edilmiş nailiyyətlərdən bəhs edilərək xidməti fəaliyyətin təkmilləşdirilməsi, işin keyfiyyətinin daha da artırılması istiqamətində qarşıda duran əsas prioritetləri, o cümlədən Cinayət və Cinayət-Prosessual Məcəllələrində cinayət mühakimə icraatının elektron qaydada aparılması, elektron formada sübutlarla, onların toplanması, mühafizəsi və digər məsələlərlə bağlı edilmiş dəyişikliklərlə əlaqədar prosessual fəaliyyətdə tətbiqi zəruri əhəmiyyət kəsb edən təşkilati və hüquqi məsələlər diqqətə çatdırılıb.

Daha sonra geniş kollegiya iclasının gündəliyinə uyğun olaraq bir sıra aktual məsələlər müzakirə olunub.

İclasda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanları rəhbərlərinin üçüncü yüksəksəviyyəli görüşünün təşkili ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə baş prokurorun müavini Heydər Məmmədov məruzə ilə çıxış edərək cari ildə Azərbaycan Respublikasında keçirilməsi nəzərdə tutulan bu mötəbər tədbirin ölkəmizin beynəlxalq hüquq-mühafizə əməkdaşlığında fəal iştirakının və korrupsiyaya qarşı mübarizə sahəsində təşəbbüskar mövqeyinin göstəricisi olduğunu, həmçinin görüş çərçivəsində iştirakçı dövlətlər arasında təcrübə mübadiləsinin genişləndirilməsi, institusional əməkdaşlığın gücləndirilməsi və birgə fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından mühüm nəticələrin əldə ediləcəyini vurğulayıb.

Bundan başqa, iclasda cinayət mühakimə icraatının elektron qaydada aparılması və elektron formada sübutlarla bağlı qanunvericiliyə edilmiş son dəyişikliklərdən irəli gələn vəzifələr ilə bağlı Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, İstintaq idarəsinin rəisi Nemət Əvəzov, əlaqədar digər məsələlərlə bağlı isə Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin İnformasiya texnologiyaları şöbəsinin rəisi Akif Məmmədyarov və Kibertəhlükəsizlik şöbəsinin rəisi Aydın Verdiyev, Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi Sahib İsmayılov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifəyə təyinata razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Müzakirələr zamanı kollegiya üzvləri və iclasa dəvət olunmuş şəxslər gündəliyə salınmış məsələlər ətrafında çıxış edərək təkliflərini səsləndirib, sonda gündəlikdə olan məsələlər üzrə müvafiq qərarlar qəbul olunub.

İclasa yekun vuran baş prokuror cari ildə prokurorluq orqanlarının qarşısında duran kifayət qədər məsuliyyətli məsələlərin həlli istiqamətində hər bir prokurorluq əməkdaşının öz bilik və təcrübəsini səfərbər edəcəyinə, prosessual fəaliyyətin yeni mərhələyə keçidinin təşkili və icrası ilə bağlı qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə və hər zaman olduğu kimi bundan sonra da qanunun aliliyinin təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi və dövlət maraqlarının qorunması istiqamətində fəaliyyətlərini ən yüksək tələblər səviyyəsində quracaqlarına əminliyini ifadə edib.

***"Azərbaycan"***

# Türkiyəli qonaqlar işğaldan azad edilmiş ərazilərdə olublar




Türkiyənin Milli Müdafiə Universitetinin (MMU) rektor müavini professor Talat Canbolatın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində türkiyəli qonaqlar işğaldan azad edilmiş ərazilərdə olub, bir sıra tarixi abidələri ziyarət ediblər. Nümayəndə heyətinə Ermənistan silahlı qüvvələri tərəfindən xalqımıza qarşı törədilən vandalizmin nəticələri və dağıntılar, eləcə də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq və yenidənqurma işləri haqqında ətraflı məlumat verilib. Həmçinin hərbi qulluqçular 44 günlük Vətən müharibəsi və digər uğurlu əməliyyatlarla bağlı xatirələrini bölüşüblər. "N" hərbi hissəsini ziyarət edən Türkiyənin nümayəndə heyəti burada yaradılan şəraitlə tanış olub. Qonaqlara torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən bölmələrin döyüş yolu haqqında geniş məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Türkiyə MMU-nun nümayəndə heyəti səfər proqramına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunu ziyarət edəcək.

# *TADİV:* Cənubi Qafqazla bağlı təhrif olunmuş və qərəzli qiymətləndirmələrdən imtina etməyə çağırırıq



Belçika və Niderland parlamentlərinin Cənubi Qafqazda baş verən proseslərə təhrif olunmuş qiymət verən qərəzli sənədləri dərin narahatlıq doğurur. Avropanın iki ölkəsinin qanunverici orqanlarının subyektiv qətnamələri Cənubi Qafqaz üçün son dərəcə həssas bir dövrdə, davamlı sülhün təmin olunmasına yönəlmiş təşəbbüslər fonunda qəbul edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) aprelin 22-də Ankarada fondun rəhbəri professor Aygün Attarın imzası ilə yayılan bəyanatında bildirilib.

TADİV-də 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində keçirilmiş Azərbaycan və Ermənistan liderlərinin görüşünün yekunları, həmçinin İrəvandakı rəsmi şəxslərin Bakı ilə münaqişənin başa çatması barədə bəyanatları xatırladılıb. "Belə bir şəraitdə Azərbaycanın məhkəmə strukturlarının mövqeyini şübhə altına almaq və ya münasibətlərin normallaşdırılması prosesinə birtərəfli siyasi çərçivələr sırımaq cəhdləri birbaşa dialoqun kövrək nailiyyətlərini sarsıda bilər", - deyə diaspor qurumundan vurğulanıb.

Türkiyə-Azərbaycan fondunda xəbərdarlıq olunub ki, revanşist əhvali-ruhiyyənin təşviqi regionun kəskin ehtiyac duyduğu etimad mühitini poza bilər. "Bununla əlaqədar balanslılıqdan və konstruktivlikdən uzaq, regionda sülhə xidmət etməyən mətnlər qəbuledilməzdir. Avropadakı məsuliyyətli siyasi xadimləri regional məsələlərin qiymətləndirilməsində ehtiyatlı olmağa, sabitliyi poza biləcək bəyanatlardan çəkinməyə çağırırıq. Cənubi Qafqaz yeni gərginlik mənbələrinə deyil, sülhün və sabitliyin möhkəmlənməsinə verilən töhfəyə ehtiyac duyur", - deyə bəyanatda qeyd olunub.

## *Niklas VAQNER:* "Azərbaycan, Ermənistan və Türkiyə arasında münasibətlərin inkişaf dinamikası bizim üçün əhəmiyyətlidir"

"Bu tədbir olduqca mühüm hadisədir, çünki burada əsas məqsəd hər iki ölkənin - Azərbaycanın və Almaniyanın parlamentlərini dialoqun mərkəzinə gətirməkdir".

Bu fikirləri Almaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Niklas Vaqner Azərbaycan və Almaniya parlamentarilərinin görüşü ilə bağlı AZƏRTAC-a açıqlamasında deyib.

"Ölkələrimiz arasında qurulmuş 34 illik diplomatik münasibətlər dövründə parlamentlər təbii ki, müstəsna rol oynayır, cəmiyyətlərimiz arasında körpü funksiyasını yerinə yetirirlər. İkitərəfli münasibətlərimiz həm siyasi, həm də xüsusilə iqtisadi müstəvidə qarşılıqlı maraqlara əsaslanır və biz bu əlaqələri daha da genişləndirmək niyyətindəyik", - deyə N.Vaqner qeyd edib.

Almaniyanın hazırda regiondakı mürəkkəb geostrateji vəziyyəti diqqətlə izlədiyini vurğulayan N.Vaqner Azərbaycan və Cənubi Qafqazın digər ölkələrinin münaqişələrlə - şimalda Rusiya-Ukrayna müharibəsi, cənubda isə İrandakı gərginliklərlə əhatə olunduğunu bildirib: "Məhz bu səbəbdən regionunuz ciddi çağırışlarla üz-üzədir və biz fikir mübadiləsinin intensivləşdirilməsində maraqlıyıq. Azərbaycanın bu münaqişələrə baxışı və xüsusilə qonşular - Azərbaycan, Ermənistan və Türkiyə arasındakı münasibətlərin gələcək inkişaf dinamikası bizim üçün əhəmiyyətlidir".

"Biz Ermənistan və Azərbaycan arasındakı normallaşma və sülh prosesini böyük maraqla müşahidə edirik. Azərbaycanın sülhün gətirəcəyi faydaları Ermənistan xalqına nümayiş etdirən addımlar atmasını yüksək qiymətləndiririk. Bu kurs iyunda Ermənistanda keçiriləcək seçkilərdən sonra da birlikdə davam etdirilməlidir. Biz Ermənistana və Azərbaycana bu yolda ehtiyac duyulduğu və arzu olunduğu təqdirdə hər cür dəstək verməyə hazırıq", - deyə Almaniya Xarici İşlər Nazirliyinin rəsmisi bildirib.

# WUF13 zamanı dərslər axsamayacaq

## Azərbaycan qlobal tədbirlər zamanı təhsil sistemində çevik mexanizmləri uğurla tətbiq edir

Azərbaycan qlobal əhəmiyyətli forumların, sammitlərin və idman yarışlarının keçirildiyi əsas beynəlxalq mərkəzlərdən birinə çevrilib. Bu cür mötəbər tədbirlərə evsahibliyi etmək təkcə diplomatik uğur deyil, həm də ölkə daxilində idarəetmə mexanizmlərinin, infrastrukturun və sosial xidmətlərin müasir standartlara uyğunlaşdırılması deməkdir. Ölkəmizin evsahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) Azərbaycanın beynəlxalq müstəvidə strateji qərarların qəbulundakı fəal iştirakını bir daha təsdiqləyir. Mayın 17-dən 22-dək Bakıda keçiriləcək bu mötəbər tədbir respublikamızın dünya arenasında siyasi nüfuzunu möhkəmləndirməklə yanaşı, yeni əməkdaşlıq platformalarının yaranmasına zəmin yaradacaq.

Hazırda forumun yüksək təhlükəsizlik və konfort standartlarına uyğun təşkili üçün kompleks hazırlıq tədbirləri icra olunmaqdadır. WUF13 kimi platformalar Azərbaycanı müasir, rəqəmsal və dayanıqlı şəhərsalma modelini mənimsəyən bir ölkə kimi təqdim edir. Şəhər infrastrukturunun qonaqlar üçün optimallaşdırılması xarici investorlarda paytaxtın idarəetmə potensialı haqqında müsbət rəy yaradır.

Qlobal sammitin keçirilməsi şəhərin digər həyat sahələrində olduğu kimi təhsilin təşkilində də çevik və adaptiv həllərin tətbiqini qaçılmaz edir. Bu prosesdə əsas hədəf təhsilin kəsilməzliyi prinsipini rəhbər tutaraq, tədris prosesinin dinamikasını qorumaqdır. Forum müddətində təhsil proqramının axsamaması məqsədilə müvafiq dövlət qurumu tərəfindən strateji qərarlar qəbul edilib. WUF13-ün keçiriləcəyi tarixlərində Bakı şəhərində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilində bəzi dəyişikliklər ediləcək. Bundan başqa, Pirallahı, Qaradağ, Suraxanı, Sabunçu və Nizami rayonları istisna olmaqla, Bakı şəhərinin digər rayonlarında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin V-XI siniflərində dərslər mayın 18-dən 22-dək distant formada keçiriləcək. Eyni zamanda Bakı şəhərində yerləşən peşə, orta ixtisas və ali təhsil müəssisələrində də tədris distant formada təşkil ediləcək.

Təhsilin fasiləsizliyi prinsipinə uyğun olaraq tədbir müddətində dərslərin onlayn formata keçirilməsi şagirdlərin təhsil proqramından geri qalmasına imkan vermir. Ümumiyyətlə, müasir dövrdə rəqəmsal təhsil alətləri artıq alternativ deyil, tamamlayıcı mexanizm kimi çıxış edir. Distant tədrisə keçid həm texnoloji bacarıqların inkişafına, həm də təhsil sisteminin dayanıqlılığının gücləndirilməsinə töhfə verir. Bu yanaşma təhsil sisteminin istənilən qlobal çağırışa hazırlıqlı olduğunu və dünya standartları ilə tam uzlaşdığını göstərir.

Təhsilin müvəqqəti onlayn formata keçməsi dövlətin böyük resursları operativ idarəetməsi qabiliyyətini də göstərir. Əvvəllər hər hansı irimiqyaslı tədbir zamanı dərslərin dayandırılması və ya tətil verilməsi təcrübəsi var idisə, müasir dövrdə bu, akademik itki kimi qiymətləndirilir. Şagirdlər anlayırlar ki, təhsil məkandan asılı olmayan bir prosesdir. Bu, onların gələcəkdə qlobal əmək bazarında distant işləmə bacarıqlarının təməlini qoyur.

Onlayn təhsil və məsafədən iş rejimi şəhərdəki trafik yükünü 20-30 faiz azaldır ki, bu da beynəlxalq nümayəndə heyətlərinin hərəkəti üçün həlledici faktordur. Eyni zamanda karbon emissiyasının azaldılması və şəhər ekologiyasının qorunması baxımından bu qərar "yaşıl şəhərsalma" prinsiplərinə tam uyğundur.

Bu təcrübə, əslində, pandemiya dövründə qazanılmış zəngin rəqəmsal bacarıqların növbəti sınağı və inkişaf mərhələsidir. Azərbaycanın irimiqyaslı tədbirlər zamanı təhsilin idarə olunmasında artıq formalaşmış uğurlu bir yol xəritəsi mövcuddur. 2024-cü ildə keçirilən COP29 iqlim sammiti zamanı tətbiq edilən distant model öz effektivliyini sübut edib. Hər il keçirilən "Formula 1" yarışları zamanı tətbiq olunan onlayn dərslər də sistemin çevikliyini artırıb.

Dünya təcrübəsinə nəzər salsaq, London, Sinqapur və ya Dubay kimi şəhərlərdə iri sammitlər (məsələn, COP, EXPO, G20) zamanı bənzər addımlar atılır. Onlayn tədris dünyanın müxtəlif şəhərlərində böyük beynəlxalq tədbirlər zamanı tətbiq edilən təcrübələrlə uyğunluq təşkil edir və təhsil sisteminin çevikliyini nümayiş etdirir.

Təbii ki, qəbul edilən qərarlar müvəqqəti və situativ xarakter daşıyır, tədris proqramının ümumi icrasına uzunmüddətli təsir göstərmir. Beləliklə, Bakı həm qlobal problemlərin nüfuzlu müzakirə mərkəzinə çevrilir, həm də rəqəmsal təhsilin dayanıqlı modelini nümayiş etdirir. Təhsilin kəsilməzliyi prinsipi ilə şəhər infrastrukturunun qlobal tədbirə hazırlanması prosesinin uğurlu sintezi dövlətin uzaqgörən siyasətinin nəticəsidir. Bu təcrübə sübut edir ki, Azərbaycanın təhsil sistemi hər hansı fors-major və ya xüsusi şəraitdə öz funksionallığını itirmir, əksinə, yeni texnoloji imkanları mənimsəyərək daha da güclənir. Bakının həm intellektual müzakirə platforması, həm də çevik idarəetmə nümunəsi kimi təqdim etdiyi bu model ölkəmizin beynəlxalq imicini yüksəltməklə yanaşı, gələcək nəslin rəqəmsal dünyaya inteqrasiyasını daha da sürətləndirəcək.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# *Rumın mediası:* Qafqazda yeni marşrut gündəmdədir, Avropa-Asiya ticarət yolları dəyişə bilər

Rumıniyanın "Click" nəşrində dərc olunan məqalədə Qafqaz regionunda 30 ildən artıq bağlı qalan ərazilərin yenidən açılması fonunda Avropa ilə Asiya arasında ticarət marşrutlarının dəyişə biləcəyi təhlil olunur.




AZƏRTAC xəbər verir ki, məqalədə Türkiyənin Ermənistanla sərhəddə yerləşən və uzun illərdir bağlı olan Alican keçid məntəqəsini yenidən açmağı planlaşdırdığı bildirilir. Bu addım Avropa ilə Asiya arasında yeni quru ticarət marşrutunun formalaşmasına şərait yarada bilər.

Qeyd olunur ki, hazırda, demək olar ki, istifadəsiz qalan bu ərazi gələcəkdə mühüm tranzit bölgəsinə çevrilə bilər. Bildirilir ki, artıq keçid məntəqəsində sənədlərin yoxlanılması üçün müasir sistemlərin quraşdırılmasına başlanılıb və layihə konkret mərhələyə daxil olub. Bu təşəbbüs Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində aparılan daha geniş proseslə bağlıdır və regional əməkdaşlığın genişlənməsinə xidmət edir. Bildirilir ki, layihə çərçivəsində Türkiyənin Avropa ilə Asiya arasında təhlükəsiz və sabit tranzit mərkəzinə çevrilməsi hədəflənir. Bu isə xüsusilə Hörmüz boğazı kimi geosiyasi risklərin yüksək olduğu marşrutlardan yan keçmək baxımından strateji əhəmiyyət daşıyır.

Məqalədə qeyd olunur ki, təşəbbüs "Sülh və Beynəlxalq Rifah üçün Tramp Marşrutu" kimi təqdim olunur və regionda yeni ticarət, logistika imkanlarının yaradılmasını nəzərdə tutur.

Bununla yanaşı, Türkiyə Körfəzi Avropa ilə birləşdirəcək "İnkişaf yolu" layihəsini də irəli sürür. Lakin bu layihənin yüksək maliyyə tələbləri və İraq ərazisindən keçməsi onun həyata keçirilməsini çətinləşdirir. Daha real alternativ kimi isə artıq qismən fəaliyyət göstərən Orta dəhlizin genişləndirilməsi göstərilir. Bu marşrut Çin ilə Avropanı Qafqaz və Türkiyə üzərindən birləşdirir və bu kontekstdə Ermənistanla sərhədin açılması mühüm əhəmiyyət daşıyır.

Məqalədə vurğulanır ki, yeni marşrut İranı kənarda qoyaraq alternativ logistika xətti yaratsa da, təhlükəsizlik baxımından müəyyən risklər də mövcuddur. Regionda mühüm aktor olan Rusiya bu prosesləri ehtiyatla izləyir. Mövcud geosiyasi şərait Türkiyə üçün yeni imkanlar yaradır və ölkə Şərqlə Qərb arasında əsas ticarət qovşaqlarından birinə çevrilmək niyyətindədir.

# Zorakılığın xronikası və dünyanın göz yumduğu həqiqət

## Alman alimi Rüdiqer Kipke Azərbaycan xalqına qarşı törədilən cinayət aktlarını kitabında sənədlərlə göstərib

Almaniyanın Ziqen Universitetində çalışan politoloq alim, professor Rüdiqer Kipkenin "Azərbaycan xalqına qarşı misilsiz etnik zorakılıq. Dünya yan baxmaqdadır" adlı ingilis və alman dillərində kitabı 2020-ci ilin iyununda Berlində nəşr edilmişdir. Professor Kipke Şərqi Avropa və Qafqaz xalqlarının tarixi üzrə mütəxəssisdir. O, ermənilərin Azərbaycana qarşı ərazi iddialarına dair uzun illərdir rusdilli mənbələri də araşdırmaqla tədqiqatlar aparır və bununla bağlı iki kitab nəşr etdirmişdir.



Geniş auditoriya üçün nəzərdə tutulan bu nəşrdə müəllif Ermənistanla Azərbaycan arasındakı mövcud gərginliyin tarixi səbəblərinə ekskurs etmiş, XIX və XX əsrlərdə ermənilərin Qarabağ bölgəsinə və Azərbaycanın digər ərazilərinə kütləvi köçünü, 1905-1906-cı və 1918-1920-ci illərdə ermənilər tərəfindən Azərbaycan əhalisinə qarşı törədilən cinayətləri, xüsusilə Bakı, Quba, Şamaxı, Zəngəzur, İrəvan və Qarabağ ərazilərində müsəlmanların məruz qaldıqları kütləvi dəhşətli qırğınları və etnik təmizləməni təhlil etmiş və bu hadisələrin məğzində ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarının dayandığını sübut etmişdir.

Professor Kipke yazır ki, Qərbdə bu hadisələri yalnız erməni nöqteyi-nəzərindən təsvir edən çoxsaylı kitab mövcuddur, bu nəşr isə Azərbaycan xalqının yaşadığı məşəqqətlərin araşdırılmasına həsr edilmişdir.

Müəllif araşdırmışdır ki, erməni Şaumyanın ümumi rəhbərliyi altında regionlarda digər erməni komandirlərin, Zəngəzurda Andranikin, Şamaxıda Lalayevin, Qubada Srvandzyanın komandanlığı altında erməni silhalı dəstələrdən, o cümlədən daşnaklardan və bolşeviklərdən ibarət hərbi birləşmələr yerli müsəlman əhaliyə qarşı misilsiz qırğın və qətllər törətməklə etnik təmizləmə həyata keçirmişlər. Müəllif yazır ki, XX əsrin əvvəllərində azərbaycanlıların məruz qaldığı etnik zorakılığa 1998-ci ildə ovaxtkı Prezident Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilərək 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Professor Kipke 1828-ci il Türkmənçay müqaviləsindən sonra Qacarlar imperiyası və Osmanlı imperiyası ərazilərindən ermənilərin Qarabağ və Azərbaycanın digər ərazilərinə ilk kütləvi köç axınını, İrəvan və Naxçıvan xanlıqları ərazisində 1828-ci ildə çar Rusiyasının erməni vilayətini yaratmasını, 1877-1878-ci ildə ermənilərin Azərbaycan ərazilərinə köçünün ikinci dalğasının başlanmasını, ermənilərin müsəlmanların münbit torpaqlarında yerləşdirilməsi ilə yerli əhalinin sıxışdırılmasını və bununla gələcək etnik-siyasi problemlərin əsasının qoyulduğunu təhlil etmişdir.

Professor Kipke kütləvi köçürmələr nəticəsində Qarabağ xanlığı ərazisində demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişməsinə dair statistikanı təqdim edərək bu cür demoqrafik inkişafın etnik-siyasi problemlərin yaranması üçün zəmin olduğunu və sonrakı illərdə regionun "simasını" köklü dəyişdiyini əsaslandırmışdır: Belə ki, əgər 1823-cü ildə ermənilər 9 faiz, azərbaycanlılar 91 faiz idisə, artıq 1871-ci ildə erməni əhalinin nisbəti 24 faizə və 1897-ci ildə 39,5 faizə qalxmış, azərbaycanlılar isə müvafiq olaraq 1871-ci ildə 73 faizə, 1897-ci ildə 59,5 faizə enmişdi. Təxminən bir əsr sonra 1919-cu ildə ermənilər artıq əhalinin 71,5 faizini, azərbaycanlılar isə 25,5 faizini təşkil edirdilər.

Bu və digər ziddiyyətlərin inkişafı nəticəsində ermənilər və müsəlmanlar arasında 1905-ci ildə Bakıda başlanan etnik münaqişə yerli və mərkəzi Çar hökumətinin ilkin vaxtlar göstərdiyi hərəkətsizlik nəticəsində 1906-cı ildə bütün Azərbaycan ərazisinə yayıldı, soyğunçuluq, qətllər və dağıntılar iki xalq arasında bu günə qədər davam edən etibarsızlıq və düşmənçiliyin başlanğıcını qoydu.

**Qan çanağı Bakı 1918.** Professor Kipke Bakıda törədilən zorakılığın dəqiq təsvirini "Azərbaycan" qəzetinin 1918-ci il sayından sitatla belə vermişdi: "Bolşeviklər bu günlər Azərbaycanlılara qarşı bir millət olaraq savaş açmışdılar, adi terror insanların başının üstünü almışdı…" Bakıda "Fantaziya" hamamında müsəlmanlar diri-diri qaynar suya atılmış, məşhur "Malinovski" teatrı yüzlərlə müsəlmanın qapıdılaraq işgəncələrə məruz qaldığı həbsxanaya çevrilmiş, evlərə ağ bayraq taxılması da onları dağıntıdan xilas etməmişdir, küçələr alov dənizinə qərq edilmiş, islam dini tələb etsə də, küçələrdə həyat təhlükəli olduğundan günlərlə dəfn edilməmiş meyitlərin intensiv qoxusu şəhəri bürümüşdü. Çoxsaylı Quran nüsxəsi yandırılmış, ibadətxanalar yerlə yeksan edilmişdir. 1918-ci il hadisələri zamanı Bakıda 30000 azərbaycanlı öldürülmüş, minlərlə insan isə yaralanmışdır".

**İrəvanda azərbaycanlıların taleyi.** Professor Kipke çar Rusiyasının ərazi statistikasına istinadən yazır ki, XIX əsrin ortalarında İrəvan xanlığı ərazisinin əhalisi 70 faizdən artıq azərbaycanlılardan ibarət idi, əsrin sonunda azərbaycanlılar İrəvan Quberniyasında 7 qəzanın (uyezd) 4-də əhalinin mütləq əksəriyyətini təşkil edirdi. 1917-ci ilin payızından 1918-ci ilin martınadək olan dövrdə İrəvan xanlığı ərazisində 200 müsəlman kəndi darmadağın edilmiş, 100000 müsəlman qətlə yetirilmiş, acından və xəstəlikdən ölmüşdür. Ümumilikdə isə 150000 azərbaycanlı İrəvan və ətraf ərazilərdən qaçaraq Osmanlı hərbçiləri yanında sığınacaq tapmışlar.

**1918-ci ilin aprelində Şamaxı və Quba qətliamları.** Bakı erməni neft milyonçusunun oğlu Lalayevin rəhbərliyi altında Şamaxıda sərxoş erməni silahlı dəstələri insanların gözünü çıxartmış, evlərinin balkonlarından atmış, uşaqları və yaşlı insanları döyə-döyə amansızcasına qətlə yetirmişlər. Qaçaraq məsciddə sığınacaq tapanlar elə oradaca yandırılmışlar. Şamaxıda yaşayan 30 min müsəlmandan 7 min nəfəri öldürülmüş və ya oradan qovulmuşlar.

Aprelin sonunda Şaumyanın əmri ilə digər erməni komandir Srvandzyanın rəhbərliyi altında 2000 erməni əsgəri Qubaya göndərilmişdir. "Yerli əhalinin duz-çörək və ağ bayraqla əsgərləri qarşılamasına baxmayaraq, mülki əhaliyə amansız divan tutulmuşdur. Qurbanlar haqqında dəqiq statistika olmasa da, 4000 azərbaycanlının vəhşiçəsinə öldürüldüyü bildirilir".

**Zəngəzurun Ermənistana güzəşt edilməsi.** Zəngəzurda qonşu erməni həmkəndlilərin də müraciətinə cavab olaraq Andranikin silahlı dəstələrinin hücumu nəticəsində 10 000 müsəlman həyatını itirmiş, 50 000 insan oradan qovulmuşdur. Təkcə 1918-ci ilin yayında Zəngəzurda 115 müsəlman kəndi dağıdılmışdır. 1920-ci ilin 30 noyabrında isə Sovet Azərbaycanı Zəngəzuru Sovet Ermənistanına güzəşt etmiş, bunu rəsmiləşdirən protokolda isə heç bir səbəb göstərilməmişdir. Kipke yazır ki, "Naxçıvanla Azərbaycanın digər əraziləri arasında coğrafi bağlayıcı funksiyaya malik bu ərazi sovet hökuməti tərəfindən "əhəmiyyətsiz/lazımsız ərazi" (quantite negligeable) kimi aşağılanaraq qeyri-məhsuldar ərazi kimi Ermənistana verildi".

**Qarabağda qırğınlar.** ADR hökuməti dövründə Britaniya qoşunlarının komandanlığı coğrafi mövqeyinə, iqtisadi və nəqliyyat infrastrukturuna görə Qarabağı Azərbaycan ərazisi kimi tanımışdır. Müəllif yazır ki, 1920-ci ilin Novruz bayramında Şuşa, Xankəndi, Tərtər, Əsgəran və ətraf ərazilərdə ermənilər azərbaycanlılara qarşı yenidən hücum etdilər. Aprelin əvvəlində bolşeviklərin şimal sərhədinə yaxınlaşdığı bir vaxt ADR hökuməti məcbur olub qoşunların bir hissəsini şimal sərhədindən çəkərək Qarabağa yönətməli oldu. Beləliklə, Qırmızı ordu böyük müqavimətlə qarşılaşmadan Azərbaycan sərhədini keçdi və 28 aprel 1920-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinə son qoydu.

Professor Kipke Qafqaz bürosunun 1921-ci il 4 və 5 iyul tarixli iclaslarını təhlil edərək yazır ki, əgər 4 iyul iclasında Dağlıq Qarabağı Ermənistana birləşdirməkdən söhbət gedirdisə, 5 iyul protokolunda Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət statusunun verilməsi qərarı rəsmiləşdirilmişdi. 5 iyul iclas protokolunu orijinalda kitaba əlavə edən müəllif yazır ki, bundan əlavə Azərbaycan rəhbərliyinə muxtar qurumun səlahiyyətinin müəyyənləşdirilməsi həvalə edilmişdi. Dağlıq və vadi Qarabağ ərazisinin, eləcə də Dağlıq Qarabağ regionunun Azərbaycanın digər hissəsi ilə iqtisadi bağlantısı hətta Dağlıq Qarabağın bolşevik erməniləri tərəfindən qəbul edilirdi. "Dağlıq Qarabağın Azərbaycanla iqtisadi bağlılığının güzgüsü nəqliyyat infrastrukturunun mövcud olmasıdır. Qarabağdan Azərbaycanın digər bitişik ərazilərinə şimal və şərq istiqamətində yollar aparır və davamlı, ikitərəfli iqtisadi əlaqələr mövcud idi. Qərbə, bugünkü Ermənistanda yerləşən Sevan gölü isiqamətində isə dağlıq ərazi, bəzi yerlərdə keçilməz hündür dağ silsiləsi gediş-gəlişi əhəmiyyətli dərəcədə çətinləşdirirdi. Ermənistanla Qarabağ arasında araba nəqliyyatı üçün yararlı birbaşa yol mövcud olmamışdır". Professor Kipke yazır ki, Azərbaycandan fərqli olaraq, Ermənistanla Qarabağ arasında nəqliyyat əlaqələrinin və iqtisadi bağlantının olmaması yetərli səbəb sayılmışdır ki, Qarabağla ətrafdakı digər Azərbaycan əraziləri arasındakı bağlantı qorunmaqla Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın.

Sovet Ermənistanı 1921-ci ilin iyulunda Qafqaz bürosunun qərarından narazı qaldığını bildirsə də, qərara ləyaqətlə və loyal şəkildə əməl edəcəklərinə zəmanət verdi. Azərbaycan hökuməti də İrəvan və Zəngəzurun güzəşt edilməsindən sonra bu qərardan çox da razı qalmamışdılar və hətta 1921-ci ilin sentyabrında Qafqaz bürosunun xəbərdarlığına baxmayaraq, Dağlıq Qarabağa muxtariyyət verilməsini əngəlləmək istəyirdilər. Nəhayət, iki il sonra, 1923-cü ilin iyulunda Azərbaycan sovet hökuməti Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret imzaladı. 1924-cü ilin 26 noyabrında Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini müəyyən edən hüquqi sənəd qəbul edildi, bununla belə sonrakı illərdə, 1928-ci ilədək yeni vilayətin inzibati sərhədlərinin müxtəlif dəyişik formalarda çapına rast gəlindi.

**Dağlıq Qarabağ münaqişəsinin II Dünya müharibəsindən sonra davamı.** 1964-cü ildə verilən petisiyada guya "Dağlıq Qarabağın erməni əhalisinin Azərbaycan dövlət orqanları tərəfindən sosial və iqtisadi cəhətdən sıxışdırıldığı və ermənilərin Ermənistana köçürülməsi üçün Bakının şərait yaratması" iddia olunurdu. Professor Kipke yazır ki, "petisiyalar məzmunca bir-birini təkrarlayırdılar, iddialar isə statistik göstəricilər əsasında və mərkəzi plan təsərrüfatı və idarəçiliyi olan bir vaxtda təsdiqini tapmır. Əslində, Bakı həmişə ermənilərin sosial həyat məsələlərinə diqqət yetirmişdir. Ermənilərin böyük miqyasda regiondan köçü (exodus) də sənədlər əsasında sübut olunmur. Ümumi əhalinin artımı nisbətində azərbaycanlıların artması isə müsəlman əhalinin doğum əmsalı ilə izah olunur".

**Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ uğrunda müharibə.** 1988-ci ildə münaqişə başlayanda Dağlıq Qarabağda əhalinin 25 faizini azərbaycanlılar təşkil edirdi. Sovet İttifaqının çöküşü prosesində 250 000 azərbaycanlı Ermənistandan qovuldu. Ermənistan 1992-ci ildə Laçın və Şuşanı zəbt etdi. Ermənistan 1993-cü il ərzində Dağlıq Qarabağ regionunun ətrafında digər 7 Azərbaycan rayonunu da işğal etmiş və Azərbaycan ərazilərində beynəlxalq birliyin heç bir üzvü tərəfindən tanınmayan əldəqayırma rejim quraşdırmışdır. Professor Kipke 1992-ci ilin fevralında 613 azərbaycanlının amansızcasına qətlə yetirildiyi Xocalı faciəsinin dəhşətini Almaniyanın TAZ qəzetinin 7.03.1992-ci il buraxılışından sitatla təsvir etmişdir.

Professor Kipke nəticəyə gəlmişdir ki, Ermənistan və Azərbaycan arasında baş verən müharibə yalnız Azərbaycan torpaqlarında getdiyindən ölkəyə böyük ziyan vurmuş, insanlara misilsiz müsibətlər yaşatmışdır. Dünya ictimaiyyəti isə bütün bunlar haqqında ən yaxşı halda kiçik qeydlər etməklə kifayətlənmişdir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı, siyasi elmlər doktoru***





# Ermənistan mədəni irsimizin məhvinə görə cavabdehlik daşıyır







Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biri olmaqla yanaşı, həm də zəngin mədəniyyət ocağıdır. Ölkəmizin ərazisindəki qayaüstü təsvirlər, memarlıq inciləri və arxeoloji tapıntılar bu torpaqlarda formalaşmış qədim ictimai-mədəni mühitin dərin köklərini əyani şəkildə nümayiş etdirir.

Ermənistanın işğalı dövründə Qarabağ və ətraf rayonlarımız hərbi təcavüzlə yanaşı, həm də mədəni irsimizin soyqırımı ilə üzləşib. Torpaqlarımızın işğalı nəticəsində Azərbaycanın mədəni mühiti vandallığa məruz qalıb, yüzlərlə tarixi abidə, muzey, minlərlə sənət nümunəsi vandalizmin qurbanı olub.

Ermənistan tərəfindən həyata keçirilən işğal siyasəti, sadəcə, torpaqlarımızı zəbt etmək deyil, həm də azərbaycanlıların bu yerlərdəki izlərini tamamilə silmək məqsədi daşıyıb. Şuşadan Ağdama, Kəlbəcərdən Füzuliyə qədər bütün qədim şəhərlərimizdə məscidlər, muzeylər, türbələr və kitabxanalar vəhşicəsinə dağıdılıb. Tarixi abidələrin təhqir olunması və mənimsənilməsi beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, bəşəri dəyərlərə qarşı törədilmiş bir cinayətdir. Törədilmiş dağıntıların miqyası Ermənistanın həm hüquqi, həm də mənəvi məsuliyyətini önə çıxarır.

İşğal nəticəsində 700-dən çox tarixi abidə, 22 muzey və 4 rəsm qalereyası məhv edilib, o cümlədən 100 min muzey eksponatı talan olunub. 927 kitabxanada saxlanılan 4,6 milyon kitab və əlyazma yandırılıb. 58 arxeoloji yaşayış yeri, 26 qala və qala divarı, 144 məbəd və 65 məscid dağıdılıb. Bütün bu faktlar sistemli şəkildə həyata keçirilən vandalizmin təsdiqidir.

Şuşanın işğalı dövründə şəhərin 170-dən çox tarixi yaşayış binası və 160-a yaxın abidəsi dağıdılıb və ya talan edilib. Şuşa Dövlət Tarix-Memarlıq Qoruğunda qorunan Daş dövrünə aid mağaralardan tutmuş XVIII əsrə məxsus Pənahəli xan və İbrahimxəlil xan sarayları, "Gəncə qapısı", XVIII-XIX əsrlərin Yuxarı və Aşağı Gövhər ağa, Saatlı məscidləri, karvansaralar Ermənistanın soyqırımı siyasətinin qurbanı olub. Şuşa Tarix Muzeyinin 5 minə yaxın eksponatı, Azərbaycan Xalça Muzeyinin Şuşa filialının fondları, Üzeyir bəy Hacıbəylinin 300-dən çox şəxsi əşyası, Bülbülün 400-ə yaxın eksponatı, Mir Möhsün Nəvvabın xatirə muzeyinin materialları qarət edilib. Həmin dahi şəxsiyyətlərin ev muzeylərinin viran qoyulması təcavüzün birbaşa Azərbaycanın tarixi yaddaşına və irsinə qarşı yönəldiyini sübut edir.

Bundan başqa, ən qədim insan məskənlərindən sayılan Azıx və Tağlar mağaraları belə hərbi məqsədlərlə istifadə edilərək dağıdılıb. Qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr məhv edilib. Məzar daşlarının üzərindəki yazılar silinib. Qafqaz Albaniyasına aid xristian abidələri erməni kilsəsi kimi təqdim olunub. Tatev, Noravank və Sevanavank kimi monastır kompleksləri üzərində aparılan dəyişikliklər onların mənşəyinin saxtalaşdırılmasına səbəb olub.

Ağdam şəhərində yerləşən Pənahəli xanın imarəti və Cümə məscidi də dağıntıya məruz qalıb. Məscidin uzun müddət baxımsız qalması və heyvandarlıq məqsədilə istifadə edilməsi faktı beynəlxalq mediada da əks olunub. Bu, dini irsə qarşı açıq hörmətsizlik kimi qiymətləndirilir. Laçın rayonunda Həmzə Sultan və Soltan Əhməd sarayları, digər məscid və ziyarətgahlar da eyni aqibəti yaşayıb. İşğal dövründə muzeylər də talan edilib. Ağdam, Qubadlı və Zəngilan tarix-diyarşünaslıq muzeylərinin minlərlə eksponatı Ermənistana daşınıb. Ağdam Çörək Muzeyi tamamilə məhv edilib. Kəlbəcər muzeyinin 13 min, Laçın muzeyinin isə 5 mindən çox nadir əşyası talan olunub. Bütün bunlar mədəni irsə qarşı vandalizm deyil, bəs nədir?

Qeyd edək ki, məsələ, sadəcə, Qarabağla da məhdudlaşmırdı. Bugünkü Ermənistan ərazisində də Azərbaycan irsi sistemli şəkildə məhv edilib. İrəvan şəhərində vaxtilə mövcud olmuş onlarla məscid, karvansara və memarlıq abidəsi artıq yoxdur. Abbas Mirzə məscidi, Zal xan məscidi, İrəvan qalası və Xan sarayı dağıdılıb. Şəhərin tarixi siması məqsədli şəkildə dəyişdirilib. Bu proses XX əsrin ortalarına qədər davam edib. Eyni zamanda bəzi abidələrin kimliyi dəyişdirilib. Göy məscid bu gün "fars məscidi" kimi təqdim olunur. Halbuki tarixi faktlar onun Azərbaycan irsi olduğunu göstərir. Bu, mədəni mənimsəmə siyasətinin açıq nümunəsidir.

Göyçə, Zəngəzur, Dərələyəz və digər bölgələrdə də oxşar hallar yaşanıb. Qəbiristanlıqlar dağıdılıb, məscidlər baxımsız vəziyyətə salınıb.

Tarixi proseslərə nəzər saldıqda, bu siyasətin mərhələli şəkildə həyata keçirildiyi aydın olur. Birinci mərhələ XIX əsrdə ermənilərin regiona köçürülməsi ilə başladı. İkinci mərhələ 1918-1920-ci illərdə Daşnak Ermənistanı dövründə davam etdi. Üçüncü mərhələ sovet dövrünü əhatə etdi. Bu dövrdə abidələr baxımsızlıq nəticəsində məhv edildi və toponimlər dəyişdirildi. Dördüncü mərhələ isə 1991-ci ildən sonra davam etdi və açıq şəkildə dövlət siyasətinə çevrildi. Beynəlxalq hüquq baxımından bu əməllər ciddi qanunsuzluqdur. 1954-cü il Haaqa Konvensiyası, 1972-ci il UNESCO Konvensiyası və digər sənədlər açıq şəkildə pozulub. Bu isə qlobal mədəni irsə qarşı cinayətdir.

Ekspertlər hesab edirlər ki, bu faktların beynəlxalq səviyyədə sənədləşdirilməsi vacibdir. Sübutlar toplanmalı, rəqəmsal arxivlər yaradılmalıdır. Peyk görüntüləri və ekspert rəyləri ilə faktlar təsdiqlənməlidir. UNESCO və digər təşkilatların monitorinq missiyaları təşkil olunmalıdır. Eyni zamanda beynəlxalq məhkəmələrdə iddialar irəli sürülməlidir. Kompensasiya məsələsi prinsipial şəkildə qaldırılmalıdır. Çünki bu, mənəvi zərərlə yanaşı, həm də maddi zərərdir. İnformasiya müstəvisində də fəaliyyət genişləndirilməlidir. Beynəlxalq mediada kampaniyalar aparılmalıdır. Sənədli filmlər, sərgilər və akademik nəşrlər hazırlanmalıdır. Xarici universitetlərdə tədqiqatlar təbliğ olunmalıdır.

Bütün bu kompleks təhlillər sübut edir ki, işğal dövründəki dağıntılar Azərbaycanın izlərini silməyə yönəlmiş sistemli bir siyasətdir. Bu fəaliyyət beynəlxalq hüququn kobud şəkildə pozulması ilə yanaşı, həm də regionun gələcək sabitliyinə vurulmuş ağır zərbədir.

Bu gün azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri tarixi ədalətin təntənəsidir. Lakin işğala son qoyulması Ermənistanı 30 il ərzində mədəni irsimizə qarşı törətdiyi cinayətlərinə görə məsuliyyətdən azad etmir. Azərbaycan xalqının mədəni və tarixi yaddaşına qəsd edən Ermənistan həm beynəlxalq hüquq müstəvisində, həm də bəşəri vicdan qarşısında cavabdehlik daşıyır.

***Təhminə VERDİYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# *Mədəni soyqırımın sübutları:*
# İrəvandan Qarabağadək silinən izlər

Ermənistanın işğal dövründə Azərbaycanın tarixi-mədəni irsinə qarşı həyata keçirdiyi sistematik vandalizm beynəlxalq hüququn kobud pozuntusudur. Ermənistan öz ərazisində və işğal etdiyi torpaqlarda azərbaycanlılara məxsus dini-tarixi abidələri məqsədyönlü şəkildə dağıdıb və mənimsəyib.

Xüsusilə Ağdam, Füzuli, Zəngilan və Cəbrayıl rayonlarında yüzlərlə Azərbaycan məzarlığı təhqir edilib, qəbirlər qazılıb və daşlar oğurlanıb. Bəzi tarixi məscidlərin donuz və inək saxlanılan yerlərə çevrilməsi dini hisslərin alçaldılması və ən ağır təhqir formasıdır. Ermənistan öz ərazisində də Şah Abbas və Sərdar məscidləri kimi XVI-XVIII əsrə aid abidələri məhv edərək azərbaycanlıların tarixi izlərini silib. Eyni zamanda Alban məbədlərinin (Xudavəng, Gəncəsər və s.) erməniləşdirilməsi və saxtalaşdırılması mədəni təmizləmə siyasətinin bariz nümunəsidir. Bu vandalizm aktları 1954-cü il Haaqa Konvensiyası və 1972-ci il UNESCO Konvensiyası ilə qadağan edilən beynəlxalq cinayətlərdir. Roma Statutuna görə, tarixi və dini obyektlərin qəsdən dağıdılması müharibə cinayəti kimi təsnif edilir. Bu siyasət təkcə fiziki dağıntı deyil, həm də xalqın mənəvi yaddaşının və tarixi köklərinin məhv edilməsinə yönəlmiş mədəni soyqırımı aktıdır. Beynəlxalq hüquqi sənədlərə əsaslanan bu faktlar Ermənistanın Azərbaycan xalqının tarixi irsinə qarşı sistemli şəkildə nifrət və mədəni təmizləmə siyasəti yürütdüyünü sübut edir.

Mövzu ilə bağlı AZƏRTAC-a açıqlama verən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, son 200 il ərzində xalqımız müxtəlif deportasiya və soyqırımı ilə üzləşib. Bu dövr ərzində bölgədə davamlı gərginlik yaşanıb.

Deputatın sözlərinə görə, deportasiya və soyqırımları nəticəsində mədəni irsimiz, tarixi abidələrimiz, toponimlərimiz və milli dəyərlərimiz müxtəlif dövrlərdə dəyişikliklərə və zərərə məruz qalıb.

"Qərbi Azərbaycan ərazisində 734 qəbiristanlığın monitorinqi aparılıb və onlardan 201-i üzrə nəticələr sənədləşdirilib. Bu qəbiristanlıqlardan 12-nin üzərindən asfalt yollar çəkilib, 16 qəbiristanlıq üzərində yaşayış evləri tikilib, 56-sı əkin sahəsinə çevrilib, 6-sında yenidən dəfn aparılaraq erməni qəbiristanlığına çevrilib. Bundan əlavə, 67 qəbiristanlıqda vandalizm halları qeydə alınıb, 4-ü sənaye obyektlərinə çevrilib, 5-də hərbi istehkam işləri aparılıb, 32-də tikinti işləri görülüb və 3-də su anbarı inşa edilib.

Digər bir fakt: 1829-cu ildə rus məmuru İvan Şopen İrəvan şəhərində 12 məscid qeydə alıb, bu gün o məscidlərdən yalnız Göy məscidin bir hissəsi qalır, onun da mənşəyi dəyişdirilib.

Bu yaxınlarda daha bir dəhşətli faktın şahidi olduq: İrəvan şəhərindəki Təpəbaşı məscidi şərabxanaya çevrilib.

İndi ölkələrimiz arasında sülh danışıqları gedir. Azərbaycanda hər kəs istəyir ki, bölgədə əmin-amanlıq yaransın. Amma Ermənistandakılar hələ də revanşist düşüncələrlə, "Böyük Ermənistan" mifi ilə yaşayırsa, Azərbaycanı ənənəvi böhtanlarla suçlamağa çalışırsa, onda 200 il ərzində xalqımıza qarşı törətmiş olduqları cinayətlərin də haqq-hesabını verməli olacaqlarını yaddan çıxarmasınlar. Qərbi Azərbaycan İcması olaraq, biz bu cinayətlərin hər biri ilə bağlı dəlil-sübutları masa üzərinə qoymağa hazırıq", - deyə Ə.Ələkbərli əlavə edib.

# REGİONLAR

## Gəncədə Çin avtomobilləri istehsal olunacaq



**Gəncə şəhər nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə Çinin iki şirkəti arasında əməkdaşlığa dair sənədlər imzalanıb.**

İmzalanma mərasimindən əvvəl keçirilən hər iki görüşdə Gəncə ŞİH-in başçısı Niyazi Bayramov Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə formalaşan əlverişli biznes və investisiya mühitindən danışıb. Qeyd edib ki, qədim İpək yolu üzərində yerləşən Gəncə tarixi mövqeyini qoruyaraq bu gün də "Şərq-Qərb" nəqliyyat dəhlizinin mühüm mərkəzlərindən birinə çevrilib və bu, şəhərin həm daxili bazar, həm də ixracyönümlü istehsal üçün böyük potensiala malik olduğunu göstərir.

"Gəncə Avtomobil Zavodu" İB haqqında məlumat verən müəssisənin rəhbəri Xanlar Fətiyev bildirib ki, zavodun əsası 1986-cı ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub, 2004-cü ildə isə Prezident İlham Əliyevin tapşırığı ilə fəaliyyətə başlayıb. Hazırda təxminən 500 nəfərin çalışdığı müəssisə yük və minik avtomobilləri, avtobuslar, traktorlar və xüsusi təyinatlı nəqliyyat vasitələrinin istehsalı üçün müasir yığım xətləri ilə təchiz olunmuş böyük sənaye kompleksidir. O, həmçinin müəssisənin istehsal imkanları və beynəlxalq əlaqələri barədə məlumat verərək Çin şirkətləri ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına əminliyini ifadə edib.

Sonra "CLW Chengli Group" şirkəti ilə əməkdaşlıq sazişi imzalanıb. Sazişə əsasən, Azərbaycanda ticarət və yük avtomobillərinin yığımına başlanılması barədə razılıq əldə olunub. Razılaşmaya görə, "Gəncə Avtomobil Zavodu" İB şirkətin Azərbaycanda elektrik şassilərinin satışı və satışdan sonra xidmət, orijinal ehtiyat hissələri, sürtkü yağları və aksesuarların satışı, eləcə də təmir xidmətləri üzrə eksklüziv distribütoru olacaq. İstehsal ediləcək avtomobillərin ilkin olaraq daxili bazar üçün nəzərdə tutulması, növbəti mərhələdə isə ixracının həyata keçirilməsi planlaşdırılır. Sənədlər Xanlar Fətiyev və "CLW Chengli Group" şirkətinin baş meneceri Don Şunquo tərəfindən imzalanıb.

İkinci əməkdaşlıq sazişi isə "Shaanxi Automobile Group Commercial Vehicle Co Ltd" (SAGMOTO) ilə bağlanıb. Bu razılaşmaya əsasən, Azərbaycanda ticarət avtomobillərinin yığımı nəzərdə tutulur. Eyni zamanda "Gəncə Avtomobil Zavodu" İB "SAGMOTO"nun elektrik və dizel şassilərinin, ehtiyat hissələrinin, sürtkü yağlarının və aksessuarlarının satışı, həmçinin satış sonrası xidmət və təmir işləri üzrə eksklüziv distribütor hüququ əldə edib. Sənədləri Xanlar Fətiyev və "SAGMOTO" şirkətinin baş direktor müavini He Vencun imzalayıblar.

Hər iki görüş zamanı Gəncəyə və Çin şirkətlərinin fəaliyyətinə dair videomateriallar nümayiş olunub.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Sumqayıtda 13 yeni transformator məntəqəsi tikilir

**Sumqayıtda enerji infrastrukturunun yenilənməsi və gücləndirilməsi istiqamətində genişmiqyaslı işlərə başlanılıb. Belə işlərdən biri də şəhərin müxtəlif ərazilərində elektrik enerjisinin dayanıqlığının artırılması üçün yeni yarımstansiyaların, eləcə də transformator və paylayıcı məntəqələrin tikintisidir.**




Hazırda şəhərin 2-ci, 9-cu, 10-cu, 11-ci və 13-cü mikrorayonları, həmçinin 48-ci məhəllə ərazilərində ümumilikdə 13 yeni transformator və paylayıcı məntəqənin inşası aparılır. Layihə çərçivəsində əlavə olaraq daha 7 məntəqənin tikintisi planlaşdırılır ki, bu da ümumi enerji şəbəkəsinin əhatə dairəsini daha da genişləndirəcək.

Yeni qurğuların quraşdırılması mövcud şəbəkədə yüklənmənin azaldılmasına, elektrik enerjisinin daha sabit və itkisiz ötürülməsinə şərait yaradacaq. Eyni zamanda bu addımlar qəza hallarının sayının minimuma endirilməsinə və nasazlıqların daha operativ aradan qaldırılmasına imkan verəcək.

"Azərişıq" ASC-nin Sumqayıt Regional Enerji Təchizatı və Satışı İdarəsindən bildirilib ki, həyata keçirilən yenidənqurma və tikinti işləri nəticəsində xüsusən yay və qış ayları müşahidə olunan yüksək yüklənmə dövrlərində enerji təchizatında fasilələrin qarşısı alınacaq, abonentlərin fasiləsiz və keyfiyyətli elek-trik enerjisi ilə təminatı daha etibarlı şəkildə həyata keçiriləcək.

Qeyd edək ki, görülən işlər şəhərin sürətli inkişafı, yeni yaşayış massivlərinin salınması və əhali sayının artması fonunda enerji tələbatının qarşılanmasına yönəlib. Layihələrin mərhələli şəkildə icrası yaxın vaxtlar Sumqayıtın bütün ərazilərində enerji təminatının daha dayanıqlı və təhlükəsiz olmasına imkan verəcək.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Neftçalada nohur balıqçılığının perspektivləri müzakirə edilib

**Neftçalada rayon icra hakimiyyətinin dəstəyi, təşəbbüsü və Kənd Təsərrüfatı Nazirliyi yanında Balıqçılıq və Akvakultura Mərkəzinin, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidmətinin, agentliyin yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin birgə təşkilatçılığı ilə "Akvakultura sahəsində nohur balıqçılıq təsərrüfatlarının inkişaf perspektivləri" mövzusunda maarifləndirici tədbir keçirilib.**

Neftçala rayonunda fəaliyyət göstərən balıqçılıq təsərrüfatlarının nümayəndələrinin, fermer və sahibkarların, adıçəkilən qurumların nümayəndələrinin iştirakı ilə keçirilən maarifləndirici tədbirdə balıqçılıq təsərrüfatlarının yaradılması, su hövzələrinin seçilməsi və balıqçılıq təsərrüfatlarının təşkili, akvakultura sahəsində səmərəli idarəetmə və ekoloji yanaşmalar, su təminatı, sudan istifadə ilə bağlı su müqavilələrinin bağlanması, akvakultura obyektlərinə əmtəə yetişdirilməsinə dair şəhadətnamələrin verilməsi barədə danışılıb. Sonra Balıqçılıq və Akvakultura Mərkəzinin direktor müavini Elşən Məcidov təmsil etdiyi qurumun yaranması və fəaliyyəti, balıqçılıq təsərrüfatlarının inkişafı ilə bağlı "Balıqçılıq haqqında" qanunun, Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli qərarı ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın müvafiq bəndləri üzrə ətraflı məlumat verib. Regional Su Meliorasiya Xidmətinin sektor müdiri Ömər İsmayılov isə yerlərdə fəaliyyət göstərən Su Meliorasiya Sistemləri İstismarı İdarəsi tərəfindən xidmət sahəsinə daxil olan suötürücü su kanalları vasitəsilə nohur təsərrüfatlarına suyun nohur təsərrüfat sahibləri ilə bağlanmış müqavilə əsasında verilməsinin hüquqi əsasları, sudan istifadə ödənişləri, qanunsuz sudan istifadə hallarının yaratdığı fəsadlar və bu istiqamətdə görülən tədbirlər barədə söhbət açıb. Tədbirdə Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin sektor müdiri Zaur Kərimov da çıxış edib. O, "Meliorasiya və İrriqasiya haqqında" qanunun tələbləri, suların su obyektlərindən götürülməsinin, nəql edilməsinin, paylanmasının mahiyyəti, su obyektlərinə qanunsuz müdaxilələrin hüquqi tərəfləri barədə vacib məqamlara toxunub.



Sonra Neftçala Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin rəisi Təbriz Eyyubov çıxış edərək 2026-cı ilin məhsulu üçün əkilməsi planlaşdırılan 38 min 158 hektar əkin sahəsinin suvarılması məqsədilə nəzərdə tutulan illik 401,7 min kubmetr suyun həcminə uyğun olaraq əkin işlərinin planlaşdırıldığını diqqətə çatdırıb.

Tədbirin sonunda yığıncaq iştirakçılarının təklif və fikirləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi formatında müzakirələr aparılıb.

***Seyran CAVADOV, "Azərbaycan"***

## İşığın doğulduğu şəhər

**Malik olduğu iqtisadi potensialı, yerləşdiyi coğrafiya ilə ölkənin nəhəng elektrik enerjisi təchizatçısı olan Mingəçevirin tarixin bütün zamanlarında dövlətin sosial-iqtisadi siyasətində prioritet yeri olub. İstər sovet, istərsə də müstəqillik dövründə şəhərdə möhtəşəm tikinti-quruculuq, abadlıq işləri görülüb.**

Azərbaycana rəhbərlik etdiyi illərdə Heydər Əliyev dəfələrlə Mingəçevirə səfər etmiş, energetiklər şəhərinin tikilib qurulmasına xüsusi diqqət vermişdir. Qafqazın ən böyük enerji istehsalçısı olan Dövlət İstilik-Elektrik Stansiyasının məhz Mingəçevirdə inşası Ulu Öndərin təşəbbüsü olmuşdur. İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə də Mingəçevir sürətli inkişaf yolunu davam etdirərək müasir sənaye şəhərinə çevrilmişdir.

Yazın bu oğlan çağında "nur şəhəri"nin gözəlliyi gözqamaşdıran bahar qızını xatırladır. Şəhər sakinlərinin isti ürəklə qurub-yaratdıqları, dövlətin dəstəyi ilə araya-ərsəyə gətirdikləri yaraşıqlı park və xiyabanlar, istirahət məkanına çevrilən seyrəngahlar, gül-çiçəklə, yaşıllıqlarla əhatə olunan prospektlər, küçələr, meydanlar mahir bir rəssam fırçasının yaratdığı ecazkar təbiət tablosuna bənzəyir. Bu şəhərdə təbiət gözəl, insanlar mehriban, qayğıkeş və qonaqpərvərdirlər. Vəsfinə şeirlər yazılan, nəğmələr bəstələnən, şəhəri ikiyə bölən ana Kürün pıçıltıya bənzər laylası mingəçevirlilər üçün əzizdir, doğmadır. Şəhər rəhbərliyi dövlətin davamlı qayğısından güc alaraq hər iki sahilin, bütövlükdə Mingəçevirin daha da abadlaşması, hər bir şəhər sakininin gerçək qürur mənbəyinə çevrilməsi üçün bütün qüvvələri bacarıqla səfərbər edir, səy və bacarığını əsirgəmir. Bütün bunlar isə hər kəsin ürəyincədir.

Mustafa Muradovla çoxdan tanışıq. Uzun illər şəhərin rabitə sistemində vəzifələrdə çalışıb. Şəhər sakinlərinin istirahət mərkəzinə çevrilmiş sahil parkında Mustafa müəllimlə təsadüfən görüşdük. Təbii ki, köhnə tanışlar kimi hal-əhval tutduq. Bizi çay süfrəsinə dəvət etdi. Ötüb keçən illəri xatırlasaq da, söhbətin mövzusu bu günümüzə bağlandı:

- Allaha şükürlər olsun ki, dünənimiz pis olmayıb, amma bu günümüz  daha gözəldir. Ömrün ixtiyar çağındayam. Mingəçevir gözlərimin qarşısında uşaq yaşa dolan kimi addım-addım böyüyüb, inkişaf edib. Bir övlad kimi fəxr edirəm ki, onun belə möhtəşəm şöhrətə qovuşmasında az da olsa, mənim də əməyim var. Bu gün də kənarda dayanmamışam. Şəhər Ağsaqqallar Şurasının sədri olaraq yaşıdlarımı ətrafıma yığıb Mingəçevirin ictimai-siyasi həyatında fəal iştirak edirik. Təkliflərimiz, müraciətlərimiz şəhər rəhbərliyi tərəfindən həssaslıqla qarşılanır. Çünki hamımızın bir məqsədi var. Əl-ələ verib doğma şəhərimizi daha abad, daha gözəl edək. Atalarımızın çox dəyərli bir sözü var - "El bir olsa, dağ oynadar yerindən". Tam səmimiyyətlə deyə bilərəm ki, bu gün mingəçevirlilər nail olduqları sarsılmaz birlik sayəsində qarşıya qoyulan hədəfə inamla çatırlar. Canlı şahid kimi onu deyə bilərəm ki, Mingəçevir yarandığı zamandan bəri heç vaxt indiki qədər belə abad, belə yaraşıqlı və belə güclü iqtisadi potensiala malik olmayıb. Bu uğurlu nəticə Prezident İlham Əliyevin siyasəti sayəsində reallaşıb.

Həmsöhbətimin sözünə qüvvət, son illər Mingəçevirdə yüksəliş, tərəqqi dönməz xarakter alıb. Prezident İlham Əliyevin şəhərin sosial-iqtisadi inkişafını sürətləndirmək üçün imzaladığı sənədlər, zamanında verdiyi dəyərli tapşırıq və tövsiyələr hesabına Mingəçevirin iqtisadi potensialı güclənir, sakinlərin həyat şəraiti, güzəranı yaxşılaşır. Dövlət başçısının Mingəçeviri regionun ən gözəl şəhərləri səviyyəsinə qaldırmaq istəyinin göstəricisidir ki, dəfələrlə bura səfərlər edir. Hər səfər də şəhərin sosial-iqtisadi həyatında əlamətdar hadisəyə çevrilir, unudulmaz iz buraxır, sakinlərin ürəyində hədsiz minnətdarlıq və məmnunluq doğurur. Belə səfərlərdən biri keçən il olmuşdur. "8 Noyabr" İstilik-Elektrik Stansiyasının açılışında iştriak edən Prezident yeni enerji obyektini Azərbaycan energetikasının böyük uğuru kimi dəyərləndirmişdir. Stansiyanın işə düşməsi ölkənin ən böyük elektrik enerjisi istehsalçısı olan Mingəçevirin iqtisadi potensialının daha da güclənməsinə sanballı töhfədir.









Mingəçevir Sənaye Parkının yaradılması son dərəcə möhtəşəm və uğurlu bir layihədir. Layihənin ilkin mərhələsi olaraq "Mingəçevir tekstil" MMC mütərəqqi texnologiya ilə çalışır. Burada xeyli sayda şəhər sakini işlə təmin olunub. İstehsal edilən məhsulun çox hissəsi xarici ölkələrə ixrac edilir. Hazırda sənaye parkında ikinci fabrikin inşasına hazırlıq görülür.

Mingəçevir həm də gənclər şəhəridir. Gənclik və idman isə ayırlmazdır. Uzun illərboyu baxımsızlıqdan bərbad vəziyyətə düşmüş avarçəkmə bazası Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa standartları səviyyəsində yenidən qurulub. Burada yaradılan təlim-məşq bazası ən müasir tələblərə cavab verir, bazada fəaliyyət göstərən hotel ən yüksək komforta malikdir. Artıq burada beynəlxalq avarçəkmə yarışları keçirilir, yarışları izləmək üçün çox sayda əcnəbi turistlər gəlir.

Şəhər rəhbərliyi öz gündəlik fəaliyyəti ilə çalışır ki, dövlətin qayğı payını gerçək ünvanına ehtiyacı olan ailələrə çatdırsın, şəhər sakinlərinin məmnunluğunu təmin etsin. Təbii ki, bu sırada şəhid ailələrinə, qazilərə, Qarabağ müharibəsi veteranlarına üstünlük verilir. Şəhid ailələri və qazilər üçün tikilən 72 mənzilli yaşayış binasında üçotaqlı mənzil alan qazi Pərviz Məmmədov deyir ki, artıq ailəmizin mənzil problemi yoxdur: "Ailəmiz bu sonsuz sevinci bizə yaşadan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdardır. Bu torpağın, bu dövlətin uğrunda şəhid olmaq ölümsüzlüyə qovuşmaq deməkdir. 44 günlük Qarabağ savaşında yaralanıb sağlamlığımı itirmişəm. Buna heyifsilənmirəm, əksinə, qürur duyuram".

Şəhid ailələrinə qayğını şəhər icra hakimiyyəti daim diqqətdə saxlayır. Qəzalı vəziyyətdə olan köhnə evin yerində 40 mənzilli yeni yaşayış binası tikilib istifadəyə veriləndə 7 mənzil məhz şəhid ailələrinə ayrıldı. Şəhər İcra Hakimiyyətinin balansında xidməti ev kimi saxlanan mənzil də bu yaxınlarda yüksək keyfiyyətlə təmir olunaraq şəhid anası Kamilə Rzayevaya verildi. Qayğı, diqqət dolu belə misalların sayı yetərincədir. Çünki Mingəçevirdə şəhid adı uca tutulur, müqəddəs sayılır. Bu fikrin təsdiqi üçün ilin bütün fəsillərində təzə-tər güllərə qərq edilən Şəhidlər xiyabanını ziyarət etmək kifayətdir.

Ana təbiət bu yerlərə növbəti dəfə bahar xalısı sərib. Hər naxışı, hər ilməsi yaz çiçəkləri kimi al-əlvan bahar xalısı. Ana Kür xırda ləpələriylə nur şəhərinin romantik gecələrinə şirin layla deyir. Parklar, xiyabanlar şəhəri kimi sevilən, tərənnüm edilən Mingəçevirdə yaşamağın özü bir xoşbəxtlikdir. Heydər Əliyev parkı, Sahil parkı, Dostluq parkı, Nizami parkı, Nəsimi parkı.... və bir də 44 günlük şanlı qələbəmizin şərəfinə sonsuz məhəbbətlə yaradılan möhtəşəm Zəfər parkı.

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov:

- Həyatım, əmək fəaliyyətim Mingəçevirlə bağlıdır desəm, səhv olmaz - sovet dönəmində komsomol, partiya işi, müstəqillik illərində icra hakimiyyətində müxtəlif vəzifələr. Hərdən tək olanda özümlə söhbətləşirəm, sual verib, cavab alıram. Sonda gəldiyim nəticə məsuliyyət hissimi birə-min artırır. Cənab Prezident 103 min nəfərdən çox əhalisi olan, böyük strateji əhəmiyyətə malik bir şəhərə məni icra hakimiyyətinin başçısı təyin edibsə, bu, çox böyük ehtiva və məsuliyyətlidir. Dövlət başçısının tapşırıq və tövsiyəsi aydın və birmənalıdır - xalqın xidmətçisi olmaq. Bu vəzifənin necə yerinə yetirildiyini təbii ki, əhalinin münasibəti müəyyən edir. Əsas şərt hər kəs üçün əlçatan olmaqdır. Çox vaxt şəhərdə camaat arasında oluram. Bəzən küçədə mənə hansısa problemin həlli ilə bağlı müraciət edirlər. Səlahiyyətim çərçivəsində köməyimi əsirgəmirəm. Bu adamlarla xeyrimiz, şərimiz də birdir axı. Hamımızın bir amalı olmalıdır. Əl-ələ verib, bir-birimizə arxa, dayaq olub dövlətimizin gücünü, qüdrətini artırmaq üçün çalışmalıyıq. Qüdrətli dövlət isə firavan həyat deməkdir.

Boz dağın ətəyinə yavaş-yavaş bir yaz gecəsinin qaranlığı çökür. Arxada "nur şəhəri"nin laciverd işıqları sayrışır. Elə bil səmanın ovuc-ovuc ulduzları səpilmişdi şəhərin üstünə...

***Lazım QULİYEV, "Azərbaycan"***





# Mədəniyyət





● Səməd Vurğun - 120

# Unutmur bu oba, bu mahal onu



**Azərbaycanın ədəbiyyat səmasında elə ulduzlar var ki, onların işığı zaman keçdikcə nəinki sönür, əksinə, illər ötdükcə daha da parlayır. Bu ulduzlardan biri də sözün qüdrətini xalqın ruhu ilə birləşdirən böyük şair Səməd Vurğundur. Onun yaradıcılığı təkcə bir dövrün deyil, bütövlükdə bir millətin mənəvi yaddaşının ifadəsinə çevrilib.**

Prezident İlham Əliyevin XX əsr Azərbaycan ədəbiyyatinin qüdrətli simalarindan biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun 120 illik yubileyinin qeyd olunması barədə imzaladığı sərəncamda qeyd olunub: "Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir".

Onun adı çəkiləndə göz önündə yalnız bir şair deyil, bütün ziddiyyətləri, ağrı-acıları, sevinci və ümidləri, inamı və inamsızlıqları ilə birlikdə bütöv bir dövr canlanır.

Səməd Vəkilov həyatını, mənəvi dünyasını təcəssüm etdirən Vurğunu özünə təxəllüs götürmüşdü. O, 1906-cı ilin Novruz bayramı günündə - martın 21-də Qazax qəzasının Yuxarı Salahlı kəndində dünyaya göz açmışdı. Uşaqlıq illəri doğma kəndində keçmişdi. Yuxarı Salahlının təbiəti, yurddaşlarının sadə həyat tərzi, el-obanın zəngin folkloru onun gələcək yaradıcılığına güclü təsir göstərmişdi.

Anası Məhbub xanım 28 yaşında dünyadan köçəndə Səmədin 6 yaşı varmış. Körpə qəlbinin ozamankı sarsıntılarını illər sonra - 1927-ci ildə belə qələmə almışdır:

*Pək cocuğdum, yerə gömdülər səni,*
*Həyata qanadsız atdılar məni.*
*Bax necə pozulub ömür gülşəni,*
*Həyat sənsiz mənə zindandır, ana!*

Səməd Vurğun atası Yusif ağa ilə ana nənəsi Aişə xanımın himayəsində böyüyüb. 1918-ci ildə görkəmli maarifçi Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsinə nail olanda Səməd və böyük qardaşı Mehdixan həmin filialda təhsil alıblar.

Onun poeziyaya kiçik yaşlarından maraq göstərməsi kimsə üçün qeyri-adi olmayıb. Çünki Səməddən qabaq da qohumları arasında şair kimi tanınanlar vardı. Ana babası Mehdixan ağa Köhənsal təxəllüsü ilə şeirlər yazırdı. Ana nənəsi Aişə xanım isə görkəmli şair Molla Vəli Vidadinin nəslindən idi.

Səməd 1924-cü ildə seminariya təhsilini başa vurandan sonra Qazaxda, Qubada, Gəncədə orta məktəbdə müəllim işləyib. Ancaq poeziyaya vurğunluğu bütün varlığına, mənəvi aləminə hakim kəsilib. O vaxtdan Vurğun təxəllüsü ilə qələmə aldığı poeziya nümunələrində doğma yurdunu, vətənini, onun təbiətinin əsrarəngiz gözəlliklərini vəsf edib. Amma həmin illər yazdığı şeirlərində şairin nakam sevgisini də görmək olurdu.

1929-cu ildə Moskvaya yollanan Səməd ikinci Moskva Universitetinin Ədəbiyyat fakültəsinə qəbul edilib. O həmin illər artıq şair kimi öz sözünü deyirdi. Moskvadakı təhsil illərində isə yaradıcılıqla daha da fəal məşğul olub.

1930-cu illərdən etibarən Səməd Vurğun Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutmağa başlayıb. Onun şeirləri xalqın ruhuna yaxınlığı, sadəliyi və eyni zamanda dərin məzmunu ilə seçilib, hər misrası oxucuların qəlbinə yol tapıb.

1930-cu ildə "Şairin andı" adlı ilk kitabı işıq üzü görüb, 1934-cü ildə onun "Könül dəftəri", 1935-ci ildə "Şeirlər" adlı kitabları çapdan çıxıb. Qələmə aldığı şeirlər, poemalar onun istedadının təcəssümünə çevrilib. Səməd Vurğun təkcə öz yaradıcılığında deyil, ümumilikdə Azərbaycan ədəbiyyatında mühüm yer tutan "Azərbaycan" adlı şeirini də həmin illər - 1933-cü ildə yazıb. Şair vətənə sonsuz məhəbbətini səmimi duyğularla, ahəngdar dillə belə ifadə edib:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Bu misralar sadəcə poetik ifadə deyil, bir xalqın vətənə bağlılığının bədii manifestidir. Şair vətəni ana ilə eyniləşdirərək bu sevgini ən yüksək səviyyədə tərənnüm edib. "Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı"nda qeyd olunduğu kimi: "Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir.

Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir.

Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır".

Səməd Vurğunun poeziyasında qədim Azərbaycan torpağının nəfəsi, ulu Azərbaycan xalqının ruhu var. Onun misralarında dağların əzəməti, çayların coşqusu, insanların arzuları və mübarizəsi yaşayır. Şair qələmi ilə sadəcə söz demir, şeir yazmırdı, o, insanların duyğularını dilə gətirirdi.

Şairin yaradıcılığına diqqət yetirəndə ilk nəzərə çarpan məqam sadəliklə dərinliyin vəhdətidir. Səməd Vurğun fəlsəfi fikirləri elə səmimiyyətlə ifadə edirdi ki, hər kəs onu anlayırdı.

Şairin əsərlərində insan obrazı da xüsusi əhəmiyyət daşıyır. Onun qəhrəmanları real həyatdan götürülmüş sadə, lakin böyük əksəriyyəti mənəvi cəhətdən zəngin - sevən, zəhmətlə yaşayan, əziyyətlərə qatlaşan, mübarizə aparan, ümid edən insanlardır. Səməd Vurğun bu obrazlar vasitəsilə insanın daxili dünyasını, onun mənəvi gücünü ustalıqla açmağı bacarırdı.

Səməd Vurğun həm də istedadlı dramaturq idi. Onun "Vaqif" (1938), "Xanlar" (1939), "Fərhad və Şirin" (1941), "İnsan" (1944) və başqa əsərləri Azərbaycan dramaturgiyasının dəyərli nümunələrindəndir.

Şairin yaradıcılığından söz açarkən dili xüsusi qeyd olunmalıdır. Onun dili zəngin olduğu qədər də ahəngdar və axıcıdır. Şair doğma xalq dilinin gözəlliklərini qoruyaraq onu poetik zirvəyə qaldırmağı bacarırdı. Misralarında həm zəngin folklorumuzun izlərini, həm də müasiri olduğu dövrün düşüncələrinin əksini görmək mümkündür.

Onun gənclik illəri mürəkkəb ictimai-siyasi hadisələrin baş verdiyi bir zamanda keçib. Bütün çətinliklərə rəğmən, yaradıcılıq yolunu davam etdirib. Ancaq dövrünün ağır sınaqları, kəskin, ziddiyyətli siyasi rejim şairi erkən qocaldıb. Səməd Vurğunun "Şair, nə tez qocaldın sən" şeiri özünün özünə ağrılı etirafı, zamanəsinə etirazı kimi səslənir:

*Bəzən uca, bəzən asta,*
*Ötür sazım min sim üstə.*
*Andı yalan, eşqi yalan,*
*Dostluğu da rüşvət olan,*
*Ürək yıxan bir iblis də*
*Üzəvari deyir hərdən:*
*Şair, nə tez qocaldın sən!*

Ancaq şair bir həqiqəti bilirdi. Əmin idi ki, onu dövrünün acıları sağalmaz xəstəliyə mübtəla etsə də, ömrü 50 yaşında - 1956-cı il mayın 27-də son mənzilinə yetsə də, adı Azərbaycan ədəbiyyatında və xalqının qəlbində hər zaman yaşayacaq. Elə bu inamla da yazmışdı:

Bəxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandır ayrılıq dərdi.
Demə, Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● İncəsənət xadimlərimiz

# Sənətşünas alim, bənzərsiz rəssam

**XX əsr sənətşünaslıq elmimizin formalaşması və inkişafında müstəsna xidmətlər göstərmiş alim və rəssam Adil Qazıyev təsviri sənət sahəsi üzrə bir çox mövzuda sanballı elmi məqalə və monoqrafiyalar müəllifi kimi incəsənət tariximizdə silinməz iz qoymuşdur.**



Adil Yusif oğlu Qazıyev Naxçıvanda dünyaya göz açmışdı. Tale yolunun müəyyənləşməsində yaxın dostu, tanınmış rəssam Bəhruz Kəngərlinin böyük rolu olmuşdu. A.Qazıyev bu haqda "Qobustan" jurnalında dərc olunmuş xatirələrində belə yazırdı: "Bəhruz Kəngərli portret və mənzərə əsərlərinin bir çoxunu mənimlə birgə etüdə getdiyimiz zaman (1919-1920) çəkmişdir. Mən də ona baxaraq işləyir və öyrənirdim. Lakin Bəhruzla işlərkən mən bir sıra müvəffəqiyyətli akvarel də çəkmişdim. Kəngərli 1921-ci ildə öz əsərlərindən ibarət üçüncü sərgisinin ekspozisiyasına mənim də işlərimdən bəzilərini daxil etmişdi. Bir gün sərgiyə gəldiyim zaman Bəhruz mənə dedi ki, sənin işlərindən bir neçəsini tamaşaçılar bəyənib almışlar. Sonrakı görüşümüzdə söylədi ki, hər ölkənin keçmişdə sənət ustaları olmuşdur, onlar haqda kitablar da yazılıbdır. İndi biz ikimiz də Naxçıvan rəssamıyıq. Hansımız bu dünyadan əvvəl gedərsə, digəri onun adını gərəkdir ki, əbədiləşdirsin. Onun bu arzusunu yad edərək mən 1942-ci ildə Bəhruzun surətini yaddaşımın köməyilə işlədim. Bu, rəssamın 1921-ci ildəki simasını təsviri bir sənəd kimi əks etdirir".




Adil Qazıyev əvvəlcə ixtisas təhsilini Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda alıb, 1925-ci ildə oranı bitirəndən sonra Moskva Dövlət Tekstil İnstitutunun bədii fakültəsində təhsil alıb, S.V.Gerasimov və A.V.Kuprindən sənətin sirlərini əxz edib. Həmçinin həmin institutun aspiranturasını bitirib, təhsil ocağının bədii fakültəsində dərs deyib. 1941-ci ildə vətənə geri dönən sənətşünas alim Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetinin incəsənət kafedrasının müdiri vəzifəsində çalışıb. Azərbaycan Milli Elmlər Akademiyası yaradıldıqdan sonra isə Adil Qazıyev ömrünün sonuna qədər AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda böyük emi işçi, şöbə müdiri vəzifələrində işləyib. Texnika elmləri namizədi, sənətşünaslıq elmləri doktoru, professor Adil Qazıyev apardığı araşdırma və tədqiqatları ilə bu gün də sənətşünaslıq elmində öz aktuallığını saxlayır.

Adil Qazıyevin nəşr olunmuş kitab və monoqrafiyalarından "Rəng nəzəriyyəsinin əsasları" (Bakı, 1951), "Xalq rəssamı Əzim Əzimzadə" (Bakı, 1953), "Rəsmin tədris üsulu I-VI siniflər" (Bakı, 1954), "Memarlıq, inşaat və təsviri incəsənət terminləri lüğəti" (Q.M.Əlizadə, Ə.M.Qasımov ilə birgə, Bakı, 1956), "Nizami "Xəmsə"si 1539-1543-cü illər əlyazmasının miniatürləri" (Bakı, 1964, rusca), "Orta əsr kitab boyakarlığı, xəttatlığı və cild sənətinin bədii-texniki materialları və terminologiyası" (Bakı, 1966, rusca), "XIII-XVII əsrlər Azərbaycan əlyazmalarının bədii tərtibatı" (Moskva, 1977, rusca) və başqalarını qeyd etmək olar. Tanınmış alimin rus dilində yazılmış "Nizami "Xəmsə"si 1539-1543-cü illər əlyazmasının miniatürləri", "Orta əsr kitab boyakarlığı, xəttatlığı və cild sənətinin bədii-texniki materialları və terminologiyası" və "XIII-XVII əsrlər Azərbaycan əlyazmalarının bədii tərtibatı" adlı kitabları fundamental əhəmiyyətə malikdir və sənətşünaslıq elmimizin ən layiqli nümunələrindən hesab olunur.



Çox təəssüflər olsun ki, hələ də bu cür elmi əhəmiyyətə malik, incəsənət tariximizin miniatür və əlyazmalarla bağlı sahəsini özündə əks etdirən qiymətli monoqrafiyalar doğma ana dilimizə tərcümə edilib nəşr olunmayıb. Alimin ölümündən sonra tələbəsi və dostu olmuş sənətşünas alim Kərim Kərimov tərəfindən Moskvada nəfis şəkildə nəşr edilən "XIII-XVII əsrlər Azərbaycan əlyazmalarının bədii tərtibatı" adlı kitabı dünya sənətşünaslıq elmində şərq incəsənəti ilə məşğul olan tədqiqatçı alimlərin istinad etdikləri elmi mənbələr sırasındadır.



Sənətşünas alimin məşhur elmi toplu, jurnal və qəzetlərdə təsviri sənətin müxtəlif sahələrinə dair çoxsaylı məqalələri dərc edilmişdir. Bir çox ilklərə imza atmış Adil Qazıyev təsviri sənət üzrə ilk sənətşünas, rəssam Sadiq bəy Əfşarın həyatı və yaradıcılığı haqqında araşdırma apararaq "Qanun üs süvər" adlı traktatını ana dilimizə tərcümə edib nəşrinə nail olmuşdur. Adil Qazıyev AMEA-nın elmi nəşrlərində dekorativ tətbiqi incəsənət və rəssamlıq sahəsində müxtəlif mövzulara dair onlarla elmi məqalələrin müəllifi olmuş, bir çox sənətşünas alimlərimizin yetişməsində misilsiz xidmətlər göstərmişdir.

Adil Qazıyev, qeyd etdiyimiz kimi, yaradıcılığının ilk illərində həm də rəssamlıq fəaliyyəti ilə məşğul olmuşdur. Onun işlərindən "Avtoportret" (1923), "İki dəmirçi" (1928-1930), "Bəhruz Kəngərlinin portreti" (1931), "M.F.Axundovun portreti" (1939), "Bəhruz Kəngərlinin portreti" (1942), "Naxçıvan mənzərələri" (1938, silsilə, pastel), həmçinin "Azərbaycan SSR 10 il" (1930, tempera) xalça, eskiz layihə və başqalarını qeyd etmək olar. Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Nizami adına Ədəbiyyat Muzeyi və Milli Azərbaycan Tarixi muzeylərində saxlanılır. O, həmçinin Naxçıvan teatrında səhnəyə qoyulmuş bir sıra tamaşaların rəssamı kimi teatr eskizləri və rəsmləri yaratmışdır.

Sənətşünaslıq doktoru, professor Adil Qazıyevin anadan olmasından 120 il ötür. Ömrü boyu Azərbaycan incəsənətinin tədqiqi, araşdırılması, tədrisi və təbliği ilə məşğul olan, bu işdə uğurlu fəaliyyət göstərən sənətşünas alim və rəssam Adil Qazıyevin adı təsviri sənət tariximizdə əbədi yaşayacaq.

***Əsəd QULİYEV,***
***Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas***

# Səsi ilə sözə nəfəs verən ustad

**Tanrı ona elə bir böyük məharət, gözəl bir səs bəxş etmişdi ki, bu təkrarolunmaz deyim tərzi yalnız və yalnız ona məxsus idi. Çoxları bu yolda var-gəl etsə də, Həsən Əbluc üslubu daim öz kamilliyi, ustalığı, axarı, qeyri-adi səslənişi ilə ürəklərə qəribə bir rahatlıq, bəlkə də narahatlıq gətirirdi. Sanki dinləyici onu dinləməyə məhkum olurdu. Ona görə ki, onun səsləndirdiyi istər poeziya, istərsə də nəsr nümunələrini başqaları nədənsə dinləyicinin daxilinə, varlığına o cür hakim edə bilmirdi. Bu ləngərli, tutarlı, sanballı üslub Həsən Əblucu zaman baxımından çoxlarından fərqləndirirdi - sağlığında da, ölümündən sonra da. Elə bil onun öz deyim tərzi vardı. Bu ölçüdə hər şey gözəl səslənirdi. Təkcə səslənmirdi, həm də gözəl dinlənilirdi...**



H.Əbluc Tofiq Kazımov kimi istedadlı rejissorun Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında hazırladığı tamaşalarda ikinci rejissor işləyib, həm də onun kursunda təhsilini davam etdirib. 3-cü kursda oxuyanda Akademik Dram Teatrına işə dəvət olunub. Ona səhnə danışığından Müxlis Cənizadə dərs deyib. O, Həsənin gözəl danışığına, sənətinə, diksiyasına, savadına görə assistent götürüb. Həsən Əbluc 30 il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bir pedaqoq kimi gənclərə sənətin sirlərini öyrədib.

Vaxtilə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Azərbaycan qrupu yaradılmışdı. Məşhur aktyor, rejissor Yevgeni Motveyev həmin qrupun rəhbəri idi. Ayda bir həftə səhnə danışığından dərs demək üçün Həsən Əblucu Moskvaya dəvət edirdilər.

Həsən Əbluc gözəl, ecazkar, cəlbedici, inandırıcı səsi ilə qəlbi sözə bağlı olanların sevimlisinə çevrilmişdi. O, radio tamaşalarında da saysız-hesabsız baş rollarda oynamışdır. Dublyaj filmlərində bütün rejissorlar baş rolları səsləndirməyi H.Əbluca həvalə edirdilər. Çünki o, dublyajda da öz möhürünü vurmuşdu.

Həm müəllim, həm rejissor, həm də aktyor olan Həsən Əbluc, eyni zamanda bir-birindən maraqlı hekayələr, dram əsərləri yazıb.

O, cəmi 52 il yaşadı. Bu işıqlı dünyadan ömrünün kamilliyə yenicə çatdığı bir vaxtda ayrılan Həsən Əbluc yaddaşlarda da öz kamil və ləngərli səsi ilə elə bu yaşda qaldı. Onun səsinin yaşı ilə ömrünün yaşı bəlkə də üst-üstə düşür. Azı ona görə ki, belə qiraət ustasının səsi heç vaxt qocala, titrəyə, öz təravətini itirə bilməzdi...

Sənətkarın qardaşı kinorejissor Ənvər Əbluc onun haqqında "Həsən Əbluc" filmini lentə alıb. Bu, Həsən Əbluca bir qardaş sevgisi ilə yanaşı, həm də tamaşaçı aşiqliyindən irəli gəlib.

# "Azərbaycan romanslarını gənc ifaçılar üçün daha əlçatan etməyi hədəfləyirik"

**"Bu layihə mənim üçün xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda bu iş vokal silsilənin başlanğıcıdır. Artıq bu proqramla Laçında çıxış etmişəm, daha sonra isə Muğam Mərkəzində keçirilən yaradıcılıq gecəmdə romanslar proqramın əsas hissəsini təşkil edib. "Gedim, bir az ağlayım" romansı ilk dəfə məhz Laçında səsləndirilib və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Layihə çərçivəsində təqdim olunan romansların sözləri Leyla Əliyeva tərəfindən qələmə alınıb".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında bəstəkar Sevda Rəhimova bildirib.

O qeyd edib ki, layihənin əsas məqsədi Azərbaycan romanslarının inkişafına töhfə verməkdir. "İstəyirik ki, bu əsərlər silsilə halını alsın, notlaşdırılsın və gələcəkdə çap olunaraq gənc ifaçılar üçün əlçatan olsun. Bu, həm də böyük bəstəkar Asəf Zeynallının qoyduğu ənənənin davamı kimi qiymətləndirilə bilər", - deyə Sevda Rəhimova vurğulayıb.

Layihənin ideyasının yaranmasından danışan bəstəkar bildirib ki, romans üçün söz axtarışı zamanı "Gedim, bir az ağlayım" şeirinə müraciət edib: "Həmin sözlər məni dərindən təsirləndirdi və bu mətn əsasında romans yazmaq qərarına gəldim. Beləliklə, gecənin konsepsiyası - poeziya ilə vokalın vəhdəti üzərində quruldu".

# "Oriondan sevgilərlə" filmi beynəlxalq festivalda nümayiş olunacaq

**Rejissoru və prodüseri Rafiq Hacıyev, ssenari müəllifləri Rafiq Hacıyev və Kənan Yusifov olan "Oriondan sevgilərlə" film bu il "Kyrgyzstan - Land of Short Films" festivalı çərçivəsində nümayiş olunacaq. Filmin istehsalçısı "ROG VFX Studio" MMC-dir.**

AZƏRTAC xəbər verir ki, film 15 il əvvəl qızını itirmiş çoban Akifin hekayəsindən bəhs edir. O, qızının yadplanetlilər tərəfindən qaçırıldığına inanır və illərlə astronomiya və fizika ilə məşğul olaraq səmaya siqnallar göndərir. Ümidini itirdiyi anda isə həyatını dəyişəcək gözlənilməz hadisə baş verir...

Qırğızıstanda keçirilən bu festival MDB ölkələrindən qısametrajlı filmləri bir araya gətirərək gənc rejissorlar və müəllif işləri üçün beynəlxalq platforma rolunu oynayır.

"Oriondan sevgilərlə" filminin bu festivalda iştirakı Azərbaycan kinosunun beynəlxalq arenada təqdimatı baxımından mühüm addımdır.



İdman

# Yunan-Roma güləşi üzrə komandamız ardıcıl ikinci il Avropa çempionu oldu

Albaniyanın paytaxtı Tiranada keçirilən yunan-Roma güləşi üzrə Avropa çempionatında iki qızıl və üç bürünc medal qazanan Azərbaycan komandası 133 xal toplayaraq Türkiyəni (121) və Gürcüstanı (118) qabaqlayaraq yenidən qitənin ən güclü komandası tituluna sahib olub.







Həsrət Cəfərov (67 kq) və Qurban Qurbanov (82 kq) qızıl, Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq) və İslam Abbasov (87 kq) isə bürünc medal qazanıblar. Xatırladaq ki, ötən il də komandamız qitə çempionu olmuşdu, ilk qalibiyyətimiz isə 2022-ci ilə təsadüf edir.

Ayrı-ayrı idmançılarımıza gəldikdə H.Cəfərov dördüncü dəfə Avropa çempionu titulunu qazanaraq Azərbaycan güləşi tarixində bu nailiyyətə görə rekord qırıb. Növbəti qələbədən sonra o, təəssüratlarını bölüşüb: "Təəssüratlarım həqiqətən çox gözəldir. Bu gün çox sevincliyəm. Ardıcıl 4-cü qızılımı qazanıram. Həqiqətən də bu qızılların arxasında böyük əziyyət, zəhmət dayanır. Bu qızılı qazandıqdan sonra onun həzzini indi hiss edirəm. Heç bir əziyyət yadıma düşmür. Yalnız yadda qalan bu qızıl olur. Bu qızılımı, tarixi uğurumu qızıma həsr edirəm".

Ardıcıl ikinci dəfə Avropa çempionatının qızıl medalını qazanan Q.Qurbanov isə möhtəşəm uğurdan sonra deyib: "İndiki keçid dövrümdə titulu qorumaq daha çətin oldu. Ötən il Avropa çempionu olduqdan sonra ardıcıl ağır zədələr aldım. Hər iki çempionluğum mənə əzizdir. Sözsüz, çempion kimi çıxış edəndə məsuliyyət daha çox olur. Həsrət Cəfərov 4-cü dəfə Avropa çempionu oldu. Əlbəttə, aramızda xoş bir rəqabət var. Biz də istəyirik ki, bundan da böyük uğurlar qazanaq. Özümü, Həsrəti, bütün komandanı təbrik edirəm".

Albaniya paytaxtında keçirilən AVRO həm də yeni baş məşqçi Məhəmməd Bananın rəhbərliyi altında milli komandamız üçün ilk ciddi sınaq idi. Qalib komanda titulunu yaxşı başlanğıc hesab etmək olar. Lakin əsas sınaq, şübhəsiz ki, oktyabr ayında Bəhreyndə keçiriləcək dünya çempionatında olacaq. Azərbaycanın yunan-Roma güləşi üzrə komandasının baş məşqçisi Məhəmməd Bana komandanın Avropa çempionatındakı qələbəsini belə şərh edib: "Əvvəlcə bütün Azərbaycan xalqını bu qələbə münasibətilə təbrik edirik. Komandamızın çempion olmasına sevinirik. Bunu gözləyirdik. Ümid edirəm ki, gələcəkdə daha da yaxşı nəticələr əldə edəcəyik. Bu hazırkı nəticə asan qazanılmadı. Biz aylarla əmək sərf etdik. Gələcəkdə daha yaxşı olmağa ümid edirik. Bütün güləşçilərimdən razıyam. Deyirlər ki, güləş fərdi idman növüdür. Amma bu, doğru deyil. Çempionluğu komanda qazanır. 5 medal qazandıq - 2 qızıl və 3 bürünc. Sənan Süleymanov və Beka Kandelaki kimi digər güləşçilər də xal qazanmasaydılar, komanda qalib gəlməyəcəkdi. Buna görə də hər birindən məmnunam və onlara təşəkkür edirəm. Məqsədimiz təkcə dünya çempionatı deyil, həm də Olimpiya Oyunlarıdır".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Strateji tərəfdaş və dost
Prezident İlham Əliyev Latviya Prezidentinin ölkəmizə səfəri ilə bağlı paylaşım edib
Latviya Respublikasının Prezidenti Edgars Rinkeviçs Azərbaycana rəsmi səfər edib
Bakı-Brüssel xəttində yeni dönəmin anonsu verildi
Vətənin bütövlük günü
İqtisadi əlaqələr məsafə tanımır
Minatəmizləyənlərin ailə üzvlərinə dövlət qayğısı gücləndirilir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


BEYNƏLXALQ HƏYAT

# Britaniyalı dalğıclar Hörmüz boğazında minaları təmizləməyə hazırlaşırlar

"Politico" Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, Britaniya hərbi dalğıcları belə bir qərar qəbul ediləcəyi halda Hörmüz boğazında minaları təmizləməyə hazırlaşacaq.



Nazirliyin məlumatına görə isə, minatəmizləmə və minaların zərərsizləşdirilməsi üzrə təlim keçmiş Kral Dəniz Qüvvələrinin mütəxəssisləri Hörmüz boğazında əməliyyatlar aparmağa artıq hazırlaşmağa başlayıblar. "Politico" qeyd edir ki, London bununla ABŞ Prezidenti Donald Trampa Fars körfəzindən keçən əsas keçidin qorunmasına əhəmiyyətli töhfə vermək istəyini nümayiş etdirməyə çalışır.

Ötən ay Böyük Britaniya Fars körfəzinə Kral Dəniz Qüvvələrinə məxsus gəmi və ya muxtar mina ov sistemləri ilə təchiz olunmuş kommersiya gəmisi göndərməyi nəzərdən keçirdiyini açıqlayıb. Daha əvvəl "The Washington Post" qəzeti Pentaqon rəsmisinin Konqresə Hörmüz boğazında minatəmizləmə əməliyyatının 6 aya qədər çəkə biləcəyini bildirdiyi haqda məlumat vermişdi. Nəşrin yazdığına görə, "Pentaqon Konqresə məlumat verib ki, İran ordusu tərəfindən qoyulmuş minalardan Hörmüz boğazının tamam təmizlənməsi 6 ay çəkə bilər və bu cür əməliyyatları yalnız ABŞ-İran müharibəsi bitdikdən sonra həyata keçirmək mümkündür. Bu qiymətləndirmə o deməkdir ki, münaqişənin iqtisadi təsirləri bu ilin sonlarında və daha sonra hiss oluna bilər".

# BMT Sinqapurda narkotiklə əlaqəli edamların sayından narahatdır

## Hakimiyyət orqanları isə ölüm hökmünün Sinqapuru dünyanın ən təhlükəsiz ölkələrindən birinə çevirdiyini iddia edirlər

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İdarəsi Sinqapurda narkotiklə əlaqəli cinayətlərə görə edam edilən insanların sayından rahatsızlığını bildirib.

Ofisin rəhbəri Volker Türk bildirib ki, Asiyada ölüm hökmündən davamlı olaraq geri çəkilmə müşahidə edilsə də, Sinqapur qəsdən insan qətli ilə əlaqəli olmayan cinayətlərə görə ölüm hökmünü tətbiq edən azsaylı ölkələrdən biri olaraq qalır. Sinqapurda 500 qram kannabis və ya 15 qram heroin kimi müəyyən miqdardan artıq narkotik qaçaqmalçılığı ölümlə cəzalandırıla bilər.

BMT İnsan Hüquqları üzrə Ali Komissarlığı Sinqapurun təcrübəsini "insan ləyaqəti və yaşamaq hüququ ilə uyğunsuz" adlandırıb və Sinqapuru, eləcə də hələ də ölüm hökmündən istifadə edən digər ölkələri "bu qeyri-insani təcrübə"nin ləğvi üçün ilk addım olaraq belə hökmlərə moratorium qoymağa çağırıb. BMT-nin məlumatına görə, ötən il Sinqapurda edam edilən 17 nəfərdən 15-i narkotiklə əlaqəli cinayətlərdə təqsirli bilinib və ilin əvvəlindən bəri bu ölkədə narkotiklə əlaqəli cinayətlərə görə 8 nəfər edam edilib. 2023-cü və 2024-cü illərdə isə Sinqapurda həyata keçirilən 25 edamdan 24-ü narkotiklə bağlı olub.

Sinqapur hakimiyyəti öz növbəsində iddia edir ki, ölüm hökmü şəhəri - ölkəni dünyanın ən təhlükəsiz yerlərindən birinə çevirib. 2023-cü ildə keçirilən sorğuda ictimaiyyətin ağır cinayətlərə görə ölüm hökmünü qətiyyətlə dəstəklədiyi məlum olub.




## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi olan şəxslər arasında idman tədbirlərinin keçirilməsi və onların yarışlarda (beynəlxalq və ya ölkədaxili) iştirakına şərait yaradılması" adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 08 may 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 12 may 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

# "Buranın torpağı, suyu, havası bir başqadır"

Xocalı rayonunun Xanabad kəndindəyik. Dağlar qoynunda yerləşən bu cənnətməkan kənd işğaldan azad edildikdən sonra aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri nəticəsində daha da gözəlləşib. Bu gün doğma sakinlərini yenidən qoynuna alan kənddə həyat qaynayır. İnsanlar illərdir həsrətində olduqları torpağa qayıdıb, əkin-biçinlə məşğul olur, bu torpağa yenidən nəfəs verirlər. AZƏRTAC-ın bölgə müxbirinin Xanabad kəndindən hazırladığı reportajı təqdim edirik.



Xanabad kəndinin küçələri ilə gəzdikcə hər addımda dirçəlişin izlərini görmək mümkündür. Həyətyanı sahələrdə çalışan insanlar, yeni əkilmiş ağaclar, torpağa sevgi ilə toxunan əllər - bütün bunlar burada həyatın yenidən başladığını göstərir. Bu mənzərə insanda böyük sevinc və qürur hissi yaradır.

Kəndin kənarında kəklikotu yığan sakinlərlə qarşılaşırıq. Səmimi salamlaşmadan sonra bizi evlərinə - kəklikotulu çaya dəvət edirlər. Bu dəvəti məmnuniyyətlə qəbul edirik. Həyətə daxil olan kimi samovar qalanır. Ailə başçısı Nəbi Cabbarov həyətini göstərərək deyir: "34 il bu torpağın həsrətini çəkmişik. Bu gün isə ona qulluq edirik. Görürsünüz, ağaclar əkmişik, əhəngləmişik. İstixananı şitil əkmək üçün hazırlamışıq. Bu torpaq bərəkətli torpaqdır. Kartof, göyərti əkmişik. Bu torpaq uğrunda qan tökülüb. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərə cansağlığı versin. Biz bu torpaqları dirçəltməliyik ki, onların ruhu şad olsun".

Samovar qaynayır, dəmlənən kəklikotu çayının ətri ətrafa yayılır. Söhbətimiz çay süfrəsi arxasında davam edir.

Nəbi Cabbarov ötən illəri xatırlayaraq deyir: "Mən buradan gedəndə 18 yaşım var idi, cavan oğlan idim. 51 yaşımda ailəmlə, uşaqlarımla qayıtmışam. Şükürlər olsun ki, yenidən bu yerlərdəyik. Prezidentimizə təşəkkür edirik ki, bizə bu günü yaşatdı. Burada əkin işləri aparırıq. İnşallah, mal-qara, toyuq-cücə də saxlayacağıq. Bura təsərrüfat üçün çox əlverişli yerdir".

Söhbətə ailənin xanımı Zərifə Cabbarova da qoşulur. Onun səsində həm sevinc, həm də illərin həsrəti duyulur: "Bu yerlərin həsrətini çox çəkmişdik. Şükür bu günə ki, gəlib torpağımıza qovuşduq. Prezidentimizə minnətdarıq. Şəhidlərimizə Allahdan rəhmət, qazilərə cansağlığı diləyirəm. Buranın torpağı, suyu, havası çox gözəldir. Hər bitkidən var. Bir az əvvəl kəklikotu yığmışıq. Çöl göyərtiləri yığıb qutab bişiririk. Şükür ki, bu günləri görmək bizə də qismət oldu".

Günəş yavaş-yavaş dağların arxasında gizlənir, Xanabadın üzərinə sakitlik çökür. Doğma yurdlarımıza gerçəkləşdirilən Böyük qayıdışın növbəti ünvanı olan bu cənnət məkandan - torpağına məhəbbətlə sarılan insanların yanından böyük sevinc, fərəh və xoş təəssüratla ayrılırıq. Bəli, illərin nisgilini öz həyətində, çay süfrəsi arxasında şirin söhbətlərlə geridə qoyan Cabbarovlar ailəsi kimi Xanabadın bütün sakinləri bu torpaqlarda yenidən həyat qurur, keçmişin ağrılarını ümid və zəhmətlə əvəz edirlər. Xanabad kəndində yanan hər ocaq, əkilən hər fidan illərlə davam edən həsrətin sona çatdığını, yeni bir həyatın isə artıq inamla davam etdiyini göstərir.

# Yunanıstanın 13 millət vəkilinin toxunulmazlığı ləğv edilib

Yunanıstan parlamentariləri prokurorluğun müraciəti əsasında Avropa fondları ilə bağlı iddia edilən fırıldaqçılıqla əlaqəli işdə iştirak edən 13 həmkarının parlament toxunulmazlığının ləğvi üçün səs veriblər.



İş artıq ləğv edilmiş dövlət fondu çərçivəsində Yunanıstan kənd təsərrüfatının inkişafı üçün Avropa İttifaqı subsidiyalarının mənimsənilməsi ilə bağlıdır. Bu qalmaqal Baş nazir Kiriakos Mitsotakisin mövqeyini ciddi sarsıtmış və onun bir neçə naziri istefa vermişdir.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Vaqif Axundova bacısı

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1975-ci il, 1978-ci il və 1980-ci il buraxılış 10-cu sinif məzunları sinif yoldaşları Sərməst, Qəşəm və Məcid Adıgözəlov qardaşlarına anaları

**GÜLGƏZ QARAŞ QIZI GÜLMƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3722**
**Sifariş 511**

**Qiyməti 60 qəpik**